RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 229 (9396) 20 OKTYABR 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## MÖHTƏŞƏM 20 İL



# Azərbaycan: güclü iqtisadi potensialı olan qalib dövlət

### Prezident İlham Əliyevin daxili və xarici siyasəti Azərbaycan xalqının və dövlətinin inkişafında və qüdrətlənməsində tarixi nailiyyətlərin əldə olunmasını təmin edib

*Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ölkəmizdə taleyüklü məsələlərin həllini mümkün edib. Uğurlarımızın əsasında bu il 100 illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin mütərəqqi ideyaları dayanır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ağır problemlər məngənəsində olan ölkəmiz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında dirçəlməyə başladı, bütün sferalarda çevik islahatlar aparıldı, sabitlik təmin edildi, dövlət proqramları qəbul olundu, bazar iqtisadiyyatı formalaşdı, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edildi.*

Düşünülmüş iqtisadi siyasət nəticəsində beynəlxalq institut və korporasiyalarla səmərəli əlaqələr quruldu, inkişaf üçün vacib olan neft strategiyası gerçəkləşdirildi, davamlı iqtisadi artımın əsası qoyuldu, rifahın yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. Bütün qeyd edilənlər isə gələcək iqtisadi uğurların möhkəm təməllərini formalaşdırmış oldu.

Cənab İlham Əliyev birinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilərkən beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam və şərtsiz bərpasını öz siyasi proqramının ali məqsədi olaraq bəyan etmişdi. Bu gün biz cənab Prezidentin bu siyasi proqramı təntənəli şəkildə reallaşdırdığının şahidiyik. Tarixi əhəmiyyətli Zəfərin əldə olunması zərgər dəqiqliyi ilə seçilən strateji planlaşdırma və ölkəmizin əsas inkişaf proqramlarının yerinə yetirilməsi sayəsində mümkün oldu. Müasir ordu quruculuğu, parlaq diplomatiya, vətənpərvər gənc nəslin yetişdirilməsi, ictimai-siyasi sabitliyin qorunub saxlanması və daha da gücləndirilməsi kimi zəruri elementlər ölkəmizi şanlı Qələbəyə aparıb. Bununla da müasir Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və yeni strateji dövrdə davamlı inkişaf üçün əsaslı zəmin yaranıb.

Qeyd edilən uğurlarla yanaşı, iqtisadi inkişaf və tərəqqi Qələbəmizin təməlini təşkil edib, ona zəruri maliyyə və maddi resurslar yaradıb. Bu resurs çağdaş dövrün ən görkəmli siyasətçisi tərəfindən ölkənin iqtisadi və hərbi üstünlüyünə, xalqımızın tarixi nailiyyətinə çevrilib. Beləliklə, dahi strateq məharəti və xalqımızın öz liderinə sarsılmaz inamı, həddi-hüdudu olmayan motivasiyası sayəsində Azərbaycan misilsiz Qələbə qazandı.

Bununla da ölkəmizin təhlükəsiz gələcək inkişafı təmin olunub və yeni tərəqqi dövrü başlanılıb.

**Sosial-iqtisadi inkişaf strategiyasının uğurları yeni mərhələdə**

Yeni və çevik iqtisadi yanaşmalar, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin daha da artırılması, vergi və gömrük sistemində köklü dəyişikliklər, şəffaflığın artırılması kimi mühüm amillər Azərbaycanın dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafını təmin edir. Ölkə iqtisadiyyatının pandemiya və qlobal böhranlara yüksək immunitetinin təmin edilməsi və bu böhranların mənfi təsirlərinin minimallaşdırılması məhz möhkəm təməllərə əsaslanan milli iqtisadi inkişaf modelinin dayanıqlılığı ilə izah olunur.

Bu inkişaf modelinin mərkəzində isə Azərbaycan vətəndaşının rifahı dayanır. Sosial sahədə həyata keçirilən siyasət yeni mərhələdə sistemli şəkildə davam etdirilir. Bu istiqamətdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan sosial layihələr minlərlə insanın rifahının yaxşılaşması üçün yeni imkanlar açır və həyat səviyyəsinin yüksəlməsinə mühüm töhfə verir.

→ 4-5

# Mədəni-mənəvi dəyərlərimizin yaşadılmasında Azərbaycan qadınlarının xidmətləri misilsizdir

## Azərbaycan qadınlarının VI Qurultayının iştirakçılarına

Hörmətli qurultay nümayəndələri!

Əziz xanımlar!

Sizi Azərbaycan qadınlarının VI Qurultayının açılışı münasibətilə salamlayır, hamınıza cansağlığı, xoşbəxtlik və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Qurultayın Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması dərin məna daşıyır. Ümummilli Lider qadınlarımızın ictimai-siyasi proseslərdə yaxından iştirak etmələrinə və dövlət qurumlarında geniş təmsil olunmalarına həmişə xüsusi diqqət yetirmişdir. Azərbaycan qadınlarının 25 il əvvəl Ulu Öndərin təşəbbüsü ilə keçirilən ilk qurultayı ölkəmizdə qadın hərəkatının keyfiyyətcə yeni mərhələsini başlatmışdır. Ötən müddətdə cəmiyyətdəki mövqeləri daha da möhkəmlənən qadınlarımız respublikanın sosial-iqtisadi və mədəni-elmi potensialının gücləndirilməsi işinə dəyərli töhfələr bəxş etmişlər. Onların təqdirəlayiq ictimai nüfuzu təməl prinsipləri Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlət qadın siyasətinin ardıcıl gerçəkləşdirilməsinin nəticəsidir.

Qloballaşmanın vüsət aldığı və milli özünəməxsusluğu sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda mədəni-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və yaşadılmasında Azərbaycan qadınlarının xidmətləri misilsizdir. Məmnunluq hissi ilə bildirmək istəyirəm ki, onlar eyni zamanda maarifpərvər sələflərinin ənənələrini müvəffəqiyyətlə davam etdirərək, artan təşəbbüskarlıqları və dolğun sosial-mədəni fəaliyyətləri ilə ictimai həyatımıza yeni güc qatır, müstəqillik salnaməmizə parlaq səhifələr yazırlar. Hər bir nailiyyətimizdə qadınların böyük zəhməti vardır. Fədakar analarımızın Vətən sevgisinin bariz nümunəsi dövlətimizin suverenliyi və ərazi bütövlüyünün bərpası naminə döyüş meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir.

Azərbaycan öz tarixinin taleyüklü hadisələrlə zəngin, çox şərəfli bir dövrünü yaşayır. İşğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdışla bağlı hazırda genişmiqyaslı müxtəlif layihələr icra olunmaqdadır. Vətənimizin rifahı üçün var qüvvələrini əsirgəməyən qadınlarımız bu nəhəng quruculuq işlərinin fəal iştirakçılarıdır.

Əminəm ki, qurultayınız aktual mövzulardakı ətraflı müzakirələri və dəyərli tövsiyələri ilə faydalı platforma rolunu oynayaraq, ölkəmizdə qadın hərəkatını milli prioritetlərdən irəli gələn vəzifələrin layiqincə həllinə istiqamətləndirəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2023-cü il*

# 3-cü Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" - "Rebuild Karabakh" Sərgisinin iştirakçılarına

Hörmətli Sərgi iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

Sizi 3-cü Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" - "Rebuild Karabakh" Sərgisinin açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Ötən illərin təcrübəsi göstərir ki, belə sərgilərin təşkili işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi həyatın bərpası, regional sülh və davamlı inkişaf məqsədinin reallaşması baxımından faydalı olmuşdur. Şübhəsiz ki, bugünkü Sərgi də gələcək biznes layihələrinin gerçəkləşdirilməsi üçün mühüm fürsətlər yaradacaqdır.

Bu Sərgi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin keçirildiyi dövrə təsadüf edir. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dövlətimizin ərazi bütövlüyünün təmin edilməsində və müstəqil inkişafında onun misilsiz xidmətləri vardır.

Ümummilli Lider Heydər Əliyev suveren Azərbaycanı Qarabağsız və onun tacı olan Şuşasız təsəvvür etmirdi. Ulu Öndər həmin ərazilərin iqtisadi-mədəni inkişafı və həyat səviyyəsinin davamlı yaxşılaşması naminə xüsusi səy göstərmişdir.

Ulu Öndərin böyük coşqu ilə sevdiyi Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən canlanır. Şəhərlər, kəndlər, qəsəbələr abadlaşdıqca, bu torpaqların əzəli sahibləri sülh şəraitində əbədi yaşamaq üçün doğma yurdlarına qayıdırlar. Həmin ərazilərdə uğurla icra edilən quruculuq-bərpa və reinteqrasiya işləri dövlət və özəl sektor arasında faydalı əməkdaşlıq və inkişaf nümunəsinə çevrilir.

Sərgi iştirakçılarını - qabaqcıl iş adamlarını işğaldan azad edilmiş doğma torpaqların bərpası və inkişafı üçün dövlətimiz tərəfindən yaradılmış imkanlardan faydalanmağa, habelə biznes ideyalarını vahid məqsəd ətrafında birləşdirməyə dəvət edirəm.

Əminəm ki, "Rebuild Karabakh" Sərgisi Qarabağda və Şərqi Zəngəzurda faydalı təşəbbüslərin uğurla gerçəkləşməsi və yeni işgüzar əlaqələr qurulması baxımından əlverişli platforma olacaqdır.

Bir daha bütün Sərgi iştirakçılarına və ziyarətçilərə işlərində müvəffəqiyyətlər arzulayıram!

Qarabağ Azərbaycandır!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 oktyabr 2023-cü il*

## Zəfərin Zəngilan səhifəsi

### Şərqi Zəngəzurun giriş qapısı yeni növrağını yaşayır

Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasından üç il ötür. Vətən müharibəsinin 24-cü günündə Zəngilan da azadlığına qovuşan şəhərlər sırasına daxil oldu. Oktyabrın 20-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Zəngilan şəhəri və rayonun daha 6 kəndinin - Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Birinci Muğanlının işğaldan azad olunduğunu elan etdi.

Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər edən Prezident İlham Əliyev 2020-ci il dekabrın 23-də Zəngilanda Azərbaycanın üçrəngli bayrağını qaldırdı.

→ 8

## Mənasız və əhəmiyyətsiz kağız parçaları

### Avropa Parlamenti və İspaniya Senatının erməni təəssübkeşliyi boşboğazlıqdan başqa bir şey deyil



Ötən gün biz yenə də riyakar strukturun Azərbaycana çağırış edən, ermənilərin Qarabağa qayıdış hüququndan bəhs edən saxtakar bəyanatlarına şahidlik etdik. 700 mindən artıq məcburi köçkünün, 300 mindən artıq qərbi azərbaycanlının qayıdış hüquqlarından bir dəfə də olsun bəhs etməyən, 1 milyondan artıq insanın hüquqlarını görməzdən gələn Avropa İttifaqını bu gün hansı maraqlar danışdırır, bizə tam aydındır.

→ 10

## Azərbaycanı haqlı mövqeyindən kimsə çəkindirə bilməyəcək

### Ermənistanı öz tərəfinə çəkmək üçün "yarışan" Qərb dövlətlərini yalnız məkrli, çirkin maraqları düşündürür

Azərbaycan müxtəlif maraqlı dövlətlərin yaratdıqları, Ermənistan vasitəsi ilə həyata keçirdikləri çoxillik Qarabağ problemini özü əbədi olaraq həll etdi. Başqa sözlə desək, öz çirkin niyyətlərini həyata keçirə bilməyən dövlətlərin Cənubi Qafqaz planlarını pozdu. Həll olunmamış yeganə məsələ Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin hələlik imzalanmamasıdır.

→ 10

## Azərbaycan Qadınlarının VI Qurultayı keçirilib

Qurultay ölkəmizdə qadın hərəkatının əsasını qoymuş Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi, eyni zamanda müstəqil Azərbaycanın ilk Qadın Qurultayının 25 ili münasibətilə təşkil edilib. Tədbirdə paytaxt və bölgələrdən 600-ə yaxın qadın iştirak edib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

→ 3

# Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Kontitusiyasının 92-ci maddəsini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 107; 1999, № 5, maddə 284; 2000, № 6, maddə 380, № 12, maddələr 832, 834; 2003, № 2, maddə 77; 2004, № 5, maddə 314; 2006, № 1, maddə 3, № 5, maddə 396, № 12, maddə 1005; 2007, № 8, maddə 755, № 11, maddələr 1049, 1081; 2009, № 6, maddə 395; 2010, № 3, maddə 171; 2013, № 4, maddə 358; 2016, № 1, maddə 35; 2019, № 1, maddə 1, № 8, maddə 1365; 2020, № 4, maddə 395, № 6, maddə 673, № 7, maddə 848; 2021, № 1, maddə 3; 2023, № 4, maddə 446) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 15-ci maddənin adına və birinci hissəsinə "hazırlanması" sözündən sonra ", razılaşdırılması" sözü əlavə edilsin.
2. 16-cı maddənin birinci hissəsinə "Milli Məclisdə" sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin təsis edilməsi, inzibati ərazi bölgüsü, dövlət təltifləri," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2023-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş katibliyi, üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə ürəkdən təbrik edirəm.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı olaraq Zati-aliniz tərəfindən uğurla davam etdirilir. Sizin müəyyənləşdirdiyiniz uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan siyasi, iqtisadi, sosial və mədəni sahələrdə böyük tərəqqi və inkişafa nail olmuşdur.

Zati-alinizin rəhbərliyi ilə dövlət müstəqilliyinin bərpasının 32-ci ildönümünün qeyd olunduğu bu il Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmişdir. Bu gün Azərbaycanın üçrəngli Dövlət Bayrağı ölkənin bütün şəhər və rayonlarında qürurla dalğalanır.

TÜRKSOY-un yaradılmasının 30-cu ildönümü münasibətilə Bakıda keçirilən təntənəli mərasimə ünvanladığınız təbrik məktubu bizi daha da ruhlandırmış və ortaq türk mirasının qorunması, təbliği ilə bağlı gerçəkləşdirəcəyimiz irimiqyaslı layihələrdə Azərbaycanın gələcəkdə də TÜRKSOY-a geniş dəstək verəcəyinə əminliyimizi artırmışdır.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh, tərəqqi və əmin-amanlıq arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi ölkənin və onun hər bir vətəndaşının həyatında mühüm bayramlardan biri olan Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin Bərpası Günü münasibətilə təbrik edirəm.

Siz Azərbaycanın inkişafı, onun iqtisadiyyatı, təhsili, sosial həyatı üçün çox işlər görürsünüz. Xüsusilə, ölkənizin elmdə, o cümlədən tibb sahəsində əldə etdiyi inkişafı vurğulamaq istəyirəm.

Rusiya Səhiyyə Nazirliyinin Seçenov Universiteti ilə Azərbaycanı möhkəm və çoxillik əməkdaşlıq münasibətləri bağlayır.

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı respublikanın səhiyyə sektoru üçün gələcək mütəxəssislər hazırlayır və oradakı tədris səviyyəsi dünya standartlarına cavab verir.

Əminəm ki, tibb, təhsil və elm kimi mühüm sahələrdəki əməkdaşlığımız xalqlarımızın mənafeyi naminə bundan sonra daha fəal şəkildə inkişaf edəcək.

Səmimi-qəlbdən Sizə və bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq və rifah arzu edirəm.

*Dərin hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 371** **QƏRAR** **Bakı şəhəri, 18 oktyabr 2023-cü il**

## “Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373, № 6, maddə 792, № 8, maddə 1118, № 11, maddə 1386; 2021, № 4, maddə 398, № 7, maddə 861, № 8, maddə 964, № 10, maddə 1167, № 11, maddə 1291; 2022, № 2, maddə 174, № 4, maddə 372, № 6, maddə 670, № 8, maddə 964, № 10, maddə 1215, № 12, maddə 1532; 2023, № 1, maddə 138, № 3, maddələr 434, 440; № 5, maddə 721; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 8 yanvar tarixli 2 nömrəli və 2023-cü il 1 avqust tarixli 255 nömrəli qərarları) 2-ci hissəsində "2023-cü il oktyabrın 2-dək" sözləri "2024-cü il yanvarın 2-dək" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti Şuşaya səfər edib







**Türkiyə Böyük Millət Məclisinin Baş katibi Talip Uzunun rəhbərlik etdiyi parlament nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində oktyabrın 19-da Şuşa şəhərində olub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətini Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər müşayiət ediblər.

Şuşada qonaqlara şəhərin tarixi, işğal dövründəki vəziyyəti və Şuşada Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında aparılan quruculuq işləri, şəhərdəki tarixi abidələrin bərpası və nəzərdə tutulan planlar barədə məlumat verilib.

Sonra TBMM-in nümayəndə heyəti Şuşada Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş rəsm sərgisi ilə tanış olub.

Qonaqlar Saatlı və Yuxarı Gövhər ağa məscidlərində, Cıdır düzündə olmuş, Şuşanın Qala divarlarını seyr etmişlər. Cıdır düzündə qonaqlara məlumat verilib ki, qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxmış, canları və qanları bahasına Şuşanı işğaldan azad etmişlər. Cıdır düzü işğaldan əvvəl olduğu kimi, möhtəşəm tədbirlərin keçirildiyi məkana çevrilib.

***"Azərbaycan"***

# Baş nazir Əli Əsədov Türkiyənin ailə və sosial xidmətlər naziri ilə görüşüb

**Oktyabrın 19-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaşla görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin bir millət, iki dövlət prinsipinə uyğun olaraq bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

Ə.Əsədov Azərbaycanda sosial sahədə aparılan ardıcıl islahatlar, əhalinin rifah halının və sosial təminatının yaxşılaşdırılması, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması istiqamətində görülən davamlı tədbirlər barədə məlumat verib.

Bununla yanaşı, əhalinin dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi və vətəndaş məmnunluğunun artırılması prioritet istiqamətlər kimi dəyərləndirilib.

Türkiyəli nazirin Bakıda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş Azərbaycan Qadınlarının 6-cı Qurultayında iştirakının əhəmiyyəti vurğulanıb.

Diqqətə çatdırılıb ki, 25 il əvvəl Ulu Öndərin təşəbbüsü və iştirakı ilə keçirilən Azərbaycan Qadınlarının 1-ci Qurultayı müasir dövrdə ölkəmizdə qadın hərəkatının əsasını qoymuşdur.

Vurğulanıb ki, hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk dövlət olmuşdur. Azərbaycan dövlətinin bu gün qadın hüquqlarının təmin olunmasına xüsusi önəm verdiyi bildirilib. Ölkədə gender bərabərliyinin, qadınların sosial və ictimai həyatın bütün sahələrində bərabər iştirakının təmin edilməsinə yönəlmiş siyasətin aparıldığı qeyd olunub.

Eyni zamanda, Azərbaycanda uşaq hüquqlarının təmin olunmasının da diqqət mərkəzində olduğu diqqətə çatdırılıb. Ölkəmizdə uşaqların müdafiəsi üçün kompleks tədbirlər həyata keçirilir. Bu tədbirlərin bir istiqaməti də uşaq əməyinin istismarına qarşı mübarizəyə yönəlib. Ötən dövrdə ölkəmiz BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyası da daxil olmaqla bir sıra beynəlxalq sənədlərə qoşulub.

Həmçinin Azərbaycan ilə Türkiyə arasında ailə, qadın və uşaq problemləri sahəsində qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğu vurğulanıb. Bu baxımdan ötən ilin noyabr ayında İstanbulda Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ailə, qadın və uşaq məsələləri üzrə Fəaliyyət Planının imzalanmasının önəmi qeyd olunub, ötən dövr ərzində Fəaliyyət Planının icrası çərçivəsində görülən işlər təqdir edilib.

Həmçinin srağagün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyi arasında imzalanmış 2024-2025-ci illər üzrə Fəaliyyət Planının əhəmiyyətinə toxunulub.

Görüş zamanı iki ölkə arasında qarşılıqlı maraq doğuran müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri müzakirə edilib.

# Azərbaycan ilə Özbəkistan Müdafiə nazirlikləri arasında ikitərəfli əməkdaşlıq planı imzalanıb

**Özbəkistan Respublikasının müdafiə naziri general-leytenant Baxodir Kurbanovun dəvəti ilə bu ölkəyə rəsmi səfər edən Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 19-da "Bahouddin Nəxşbəndi" memorial kompleksində olub.**



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

Komplekslə tanışlıqdan sonra general-polkovnik Z.Həsənov "Buxara" ümumqoşun poliqonuna gəlib.

Rəsmi qarşılanma mərasimi keçirilib. Müdafiə nazirləri fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himni səsləndirilib.

Müdafiə nazirləri arasında əvvəlcə təkbətək, daha sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, hər iki ölkənin mütəxəssislərindən ibarət heyətin mütəmadi olaraq qarşılıqlı səfərlərinin təşkili və maraq doğuran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonra poliqonun fəaliyyəti, maddi və tədris bazası ilə tanışlıq olub. Burada qonaqlara hərbi qulluqçuların nümunəvi məşğələləri nümayiş etdirilib.

Daha sonra qarşılıqlı hədiyyələr təqdim edilib.

Yekunda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında 2024-cü il üçün ikitərəfli əməkdaşlıq Planı" imzalanıb.

# Fövqəladə halların idarə edilməsində əməkdaşlıq genişləndirilir

**Oktyabrın 18-də Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) İcraiyyə Şurasının 56-cı sessiyası öz işinə başlayıb. Tədbirdə ölkəmizi fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.**



Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iki gün davam edən sessiyada Beynəlxalq Mülki Müdafiə Təşkilatının İcraiyyə Şurasının prezidenti və vitse-prezidenti vəzifələrinə seçkilərin keçirilməsi, İcraiyyə Şurası tərəfindən BMMT-nin 2024-cü il üçün büdcə layihəsi ilə bağlı müzakirələrin aparılması, o cümlədən seminar və treninqlərin mövzularının təsdiq edilməsi nəzərdə tutulur. Sessiyada həmçinin təşkilata üzv ölkələrdə mülki müdafiə işinin vəziyyəti, təşkilat çərçivəsində çoxtərəfli əməkdaşlıq platformasının daha da möhkəmləndirilməsi məsələləri və digər mövzularda müzakirələr aparılır.

Sessiya çərçivəsində nazir Kəmaləddin Heydərov Qırğız Respublikasının Nazirlər Kabinetinin sədri Akılbek Japarov ilə görüşüb.

Görüş zamanı nazir Azərbaycanda fövqəladə hallarla mübarizə və mülki müdafiə sahəsində görülən işlərdən danışıb. Azərbaycan Fövqəladə Hallar Nazirliyinin strukturu və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verən K.Heydərov iki ölkənin fövqəladə halların idarə edilməsinə məsul qurumları arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsinin əhəmiyyətinə toxunub.

Qırğızıstanın Nazirlər Kabinetinin sədri Akılbek Japarov iki ölkə arasında əlaqələrin yüksələn xətlə inkişafından məmnunluq ifadə edib, uyğun qurumlar arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcud olduğunu diqqətə çatdırıb.

Bundan əlavə, sessiya çərçivəsində fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Qırğız Respublikasının fövqəladə hallar naziri Boobek Ajikeev arasında ikitərəfli görüş keçirilib.

Görüşdə fövqəladə halların idarə edilməsi sahəsində mövcud əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, o cümlədən "Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mülki müdafiə (mühafizə), fövqəladə halların xəbərdar edilməsi və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında" Sazişin, habelə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Qırğız Respublikası Fövqəladə Hallar Nazirliyi arasında 2022-2025-ci illər üçün əməkdaşlıq Planı"nın müvafiq müddəalarının icrası ilə bağlı gələcək əməkdaşlıq perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Bişkek şəhərində keçirilən Beynəlxalq Mülki Müdafiə Təşkilatının İcraiyyə Şurasının 56-cı sessiyası çərçivəsində Kəmaləddin Heydərov Rusiyanın mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması naziri general-leytenant Aleksandr Kurenkovla görüşüb.

Görüşdə iki nazirlik arasında fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlığın hazırkı vəziyyətindən məmnunluq ifadə olunub, əlaqələrin daha da genişləndirilməsinin qarşılıqlı faydası qeyd olunub və digər məsələlər geniş müzakirə edilib. Nazir A.Kurenkov 2010-cu ildə Rusiyada baş vermiş dəhşətli meşə yanğınları ilə mübarizə tədbirləri çərçivəsində Azərbaycan Fövqəladə Hallar Nazirliyinin göstərdiyi köməkliyi xatırladaraq təşəkkürünü çatdırıb.

Sessiya çərçivəsində nazir Kəmaləddin Heydərov Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi xanım Mariatu Yapla görüşüb.

Görüşdə dünyada böhran və fəlakətlərə çevik reaksiya verilməsində BMMT-yə üzv ölkələrin rolu yüksək qiymətləndirilib və fövqəladə hallarla mübarizə üzrə ölkələrin uyğun qurumları arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsinin əhəmiyyətinə toxunulub. Bu sahədə Azərbaycan Fövqəladə Hallar Nazirliyinin fəaliyyəti qeyd olunaraq, təşkilata üzv ölkələrin müvafiq qurumlarının mütəxəssislərinin ixtisaslarının artırılması üçün FHN Akademiyasının geniş imkanlara malik olduğu vurğulanıb.

# Azərbaycan Qadınlarının VI Qurultayı keçirilib















**Oktyabrın 19-da Bakıda Azərbaycan Qadınlarının VI Qurultayı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl qurultay iştirakçıları Fəxri xiyabanı ziyarət edərək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub və gül dəstələri düzüblər.

Həmçinin Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri qoyulub.

Qurultay ölkəmizdə qadın hərəkatının əsasını qoymuş Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi, eyni zamanda müstəqil Azərbaycanın ilk Qadın Qurultayının 25 ili münasibətilə təşkil edilib. Tədbirdə paytaxt və bölgələrdən 600-ə yaxın qadın iştirak edib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu oxuyub.

Daha sonra "Heydər Əliyev və dövlət qadın siyasəti" mövzusunda videoçarx nümayiş etdirilib.

Qurultayı açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova dövlət qadın siyasəti ilə bağlı məruzə ilə çıxış edib.

Qurultayın 200 illik münaqişənin sona çatdırıldığı bir dövrdə keçirilməsinin xüsusi qürur hissi yaşatdığını diqqətə çatdıran komitə sədri vurğulayıb: "Azərbaycan anası necə böyük ürəyə malik və Vətən üçün fədakar olduğunu Vətən müharibəsi dövründə bütün dünyaya nümayiş etdirdi".

B.Muradova Ulu Öndər Heydər Əliyevin Azərbaycanda qadın siyasətinə böyük önəm verdiyini və diqqət yetirdiyini diqqətə çatdırıb. Bildirib ki, ölkəmizdə mütəşəkkil qadın hərəkatının əsasını qoyan Ümummilli Liderin diqqət və qayğısı sayəsində Azərbaycanda savadlı, ictimai həyatda fəal iştirak edən qadınlar yetişib.

"Ulu Öndər tərəfindən əsası qoyulan qadın siyasəti bu gün uğurla davam etdirilir. Hazırda ölkəmizdə qadınların hüquqları yüksək səviyyədə qorunur və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlər görülür", - deyə Bahar Muradova qeyd edib.

Dövlət komitəsinin sədri bildirib ki, Prezident İlham Əliyev də qadınların dövlət idarəçiliyində və cəmiyyətdə rolunu yüksək qiymətləndirir, onların rolunun artırılması istiqamətində müvafiq dövlət proqramları qəbul olunur.

Sonra çıxış edən Azərbaycan Respublikasının Baş nazirinin müavini Əli Əhmədov Azərbaycan Qadınlarının VI Qurultayının iki başlıca xüsusiyyəti ilə diqqət çəkdiyini bildirib. Diqqətə çatdırılıb ki, Qurultayın Ulu Öndər Heydər Əliyevə həsr olunması və Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edildiyi vaxtda keçirilməsi mühüm tarixi hadisədir.

Baş nazirin müavini vurğulayıb ki, tarixi qələbələrimizin qazanılmasını şərtləndirən amillərdən biri də sağlam ailə və bu ailələrdə yetişən vətənpərvər gənclər olub. Biz bu gənclərimizlə fəxr edirik.

"Qadınlarımız həyatın bütün sahələrində iştirak edirlər. Onların rolunun və iştirakçılığının artırılması dövlətimizin prioritet istiqamətlərindəndir. Hazırda qadınlarımız çox inkişaf ediblər və Azərbaycan cəmiyyətində onların iştirakçılığının artırılması istiqamətində məqsədyönlü siyasət aparılır. Dövlətimiz qadınların iştirakçılığını təmin etməklə bərabər, onların potensialından düzgün istifadəni də diqqətdə saxlayır", - deyə Əli Əhmədov qeyd edib.

Türkiyənin ailə və sosial xidmətlər naziri Mahinur Özdəmir Göktaş, Milli Məclis Sədrinin müavini Adil Əliyev, BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Vladanka Andreyeva, insan hüquqları üzrə müvəkkil Səbinə Əliyeva, Tacikistanın əmək, miqrasiya və məşğulluq nazirinin müavini Nodiri Şaxnoza Anvar, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxışlarında qadınların hüquqlarının təmin olunması, onların ictimai hyəatda iştirakçılığının artırılması ilə bağlı fikirlərini bölüşüblər.

Çıxışlardan sonra BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin sədri Ana Pelaez Nervaezin qurultay iştirakçılarına videotəbriki nümayiş olunub.

Azərbaycan Qadınlarının VI Qurultayı işini "Ulu Öndər Heydər Əliyevin əsas missiyası: Böyük Qayıdış", "Gender məsələləri hüquqi müstəvidə: Mövcud vəziyyət, qarşıda duran məsələlər", "Sosial-iqtisadi islahatların gender aspektləri. Formal və qeyri-formal məşğulluqda qadın təmsilçiliyi", "Qadın hüquqlarının həyata keçirilməsində çağırışlar və qlobal tendensiyalar" mövzularında panel müzakirələrlə davam etdirib.

Tədbirdə iştirak edən Türkiyə, Özbəkistan və Tacikistanın dövlət rəsmiləri, Milli Məclisin deputatları, dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələri, görkəmli ictimai-siyasi xadimlər mövzular ətrafında fikirlərini bölüşüb, təkliflərini səsləndiriblər.

Qurultayın yekununda müzakirə və təkliflər əsasında qətnamə qəbul olunub.

Sonda Azərbaycan Qadınlarının VI Qurultayının iştirakçıları Prezident İlham Əliyevə müraciət ünvanlayıblar.

Müraciəti Milli Məclisin deputatı Səbinə Xasayeva səsləndirib.

# Müharibə veteranlarına təhsil sahəsində dövlət qayğısı davam etdirilir

Oktyabrın 19-da Milli Məclisin Elm və təhsil komitəsinin onlayn formatda növbəti iclası keçirilib. Komitə sədri Bəxtiyar Əliyev diqqətə çatdırıb ki, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri müzakirəyə çıxarılıb.



Bəxtiyar Əliyev gündəlikdəki məsələlər barədə məlumat verərək, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci və ikinci oxunuşda müzakirələri zamanı heç bir əlavə və təklifin daxil olmadığını söyləyib.

Sənədə əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Sonra "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edən komitə sədri bildirib ki, uyğunlaşdırma xarakteri daşıyan dəyişikliyə əsasən, layihəyə daxil olan "Elektron imza və elektron sənəd haqqında" qanuna təklif edilən dəyişiklikdə "elektron sənəd" anlayışının tərifi yeni redaksiyada verilir. O qeyd edib ki, layihədə elektron sənəd - elektron formada, o cümlədən mətn, səs, görüntü və ya audiogörüntü formasında saxlanılan kontent kimi müəyyən olunur.

Gündəlikdəki sonuncu məsələ - "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verən komitə sədri təklif edilən dəyişikliklərin uyğunlaşdırma xarakterli olduğunu söyləyib.

O, "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının ratifikasiyası ilə bağlı Cinayət Məcəlləsinə müvafiq dəyişikliklərin edildiyini bildirib. Buna uyğun olaraq, sənədə daxil olan "Ümumi təhsil haqqında" qanunun 27.2.5-ci maddəsində "və ya" sözlərindən sonra "cinsi" sözü əlavə edilir. Düzəlişə əsasən, uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər pedaqoji fəaliyyətlə məşğul ola bilməzlər.

Müzakirələr zamanı çıxış edən komitənin sədr müavini Musa Qasımlı, üzvləri Aqiyə Naxçıvanlı, Anar İsgəndərov, Etibar Əliyev, Ceyhun Məmmədov təqdim olunan məsələlərin əhəmiyyətini və aktuallığını qeyd ediblər.

Hər üç qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Hədəflər dəyişməyəcək

## Əhalinin sosial güvənliyinin artırılması, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsinin sürətləndirilməsi gələn ilin dövlət büdcəsi xərclərinin əsas istiqamətləri olacaq

**İstənilən dövlətdə büdcə prosesləri büdcə qanunvericiliyi ilə tənzimlənir. Dövlət büdcəsi vasitəsilə ölkənin sosial sahələrinin maliyyələşdirilməsi təmin edilir, iqtisadi rayonların və ayrı-ayrı sahələrin inkişafı tənzimlənir. İqtisadi münasibətlərin bu cür tənzimlənməsi vasitəsi ilə dövlət məhsuldar qüvvələrin inkişafını təmin edir.**



İndiki zamanda büdcə sistemindəki islahatın əsas elementlərindən biri dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı kompleks tədbirlər sisteminin işlənib hazırlanması və həyata keçirilməsidir ki, bu da hər ilin büdcə layihələri Milli Məclisdə müzakirə olunarkən nəzərdə tutulur.

Nazirlər Kabinetinin Azərbaycanın 2024-cü il üzrə dövlət büdcəsinin layihəsinə həsr olunmuş geniş iclasında Baş nazir Əli Əsədov bildirmişdir ki, cari ilin 8 ayında qeyri-neft sektorunda 2,6, qeyri-neft sənayesində 6 faiz artım qeydə alınıb. Ölkənin maliyyə vəziyyəti xeyli yaxşılaşıb, strateji valyuta ehtiyatları ilin əvvəlindən 14,5 faiz artaraq 67 mlyard ABŞ dollarına çatıb. Baş nazir onu da xatırladıb ki, cari ilin büdcə gəlirləri 3,1 milyard (10,1 faiz), büdcə xərcləri isə 3,3 milyard manat (9,8 faiz ) artırılb. Ümumilikdə 2023-cü ilin ortalarında dövlət büdcəsində aparılan dürüstləşmələrdən sonra işğaldan azad edilmiş ərazilərin yenidən qurulması ilə bağlı xərclər 1,8 milyard manat artırılaraq 4,8 milyard, müdafiə xərcləri isə 724 milyon manat artırılaraq 6 milyard manata çatdırılıb. Qeyd olunub ki, 2024-cü ilin büdcə layihəsində həmin xərclərin məbləği Milli Məclisdə yekun müzakirədən sonra tam dəqiqləşəcək.

Bəs, gələn ilin büdcə gəlirləri necə təmin olunacaq? 2024-cü ilin dövlət büdcəsinin gəlirlərində də 3 fiskal mənbə - vergi, gömrük və neft transfertləri başlıca yığımları təşkil edəcək. 2024-cü ilin büdcə gəlirləri 34 milyard 173 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin dürüstləşdirilmiş göstəricisi ilə müqayisədə 282,5 milyon manat və ya 1,2 faiz çoxdur. Növbəti ilin büdcə layihəsi ənənəvi olaraq İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış makroiqtisadi inkişaf proqnozlarına əsaslandığı üçün neftin bir barelinin orta illik ixrac qiyməti 60 dollar fərz edilməklə götürülüb. Bu isə o deməkdir ki, neft gəlirlərində artım nəzərə alınmayacaq. Bu səbəbdən də neftin büdcədəki payı azalmış olacaq. Belə ki, gələn ilin dövlət büdcəsində gəlirlərin 17 milyard 164 milyon manatının neft, 17 milyard 009 milyon manatının qeyri-neft-qaz sektorlarının payına düşəcəyi nəzərdə tutulur. O da nəzərdə tutulur ki, 2024-cü ildə neft sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin 76,3 faizini və ya 12781,0 milyon manatını Dövlət Neft Fondundan transfert, 23,7 faizini və ya 3975,0 milyon manatını vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edəcək. Növbəti ildə qeyri-neft-qaz sektoru üzrə dövlət büdcəsi gəlirlərinin 58,1 faizini vergi, 34,7 faizini gömrük orqanlarının xətləri ilə daxilolmalar, 4,9 faizini büdcədən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən büdcədənkənar fondlara daxilolmalar, 2,3 faizini isə sair gəlirlər təşkil edəcək.

Qarşıdakı növbəti ildə büdcənin gəlir siyasətinin sosial xarakterli güzəştlər vasitəsi ilə əhalinin vergi yükünün, eləcə də fiziki şəxslərin gəlirlərinə düşən vergi yükünün azaldılması üçün bəzi kateqoriyalı fiziki şəxslərə verilən güzəştlərin həcminin artırılması və bir sıra gəlirlərinin vergiyə cəlb olunan gəlir bazasına aid edilməməsi istiqamətində həyata keçirilməsi nəzərdə tutulur.

Milli Məclisin deputatı Vüqar Bayramov 2024-cü ilin dövlət büdcəsində əsas istiqamətlər üzrə xərclərin artacağını deyir: "Onların arasında ən mühümi xərclərdən biri sosial xərclərdir. Sosial xərclərin gələn il ərzində artırılması nəzərdə tutulub. Bu istiqamətdə 4,5 milyard manat vəsait ayrılacaq. Ümumiyyətlə, dövlət büdcəsinin xərclərinin 40 faizindən çoxu sosial yönümlü xərclər olacaq. Eyni zamanda təhsilə ayrılan xərclərdə də artımlar nəzərdə tutulub". V.Bayramov onu da vurğulayıb ki, neftin qiymətinin büdcədə proqnozlaşdırılandan daha çox olması büdcəyə əlavə vəsaitin daxil olmasına şərait yarada bilər: "Bununla belə, 2024-cü ilin dövlət büdcəsi sosial xarakterlidir və növbəti il sosial istiqamətə ayrılan vəsaitlərin artırılması pensiya və əməkhaqlarının artırılması üçün baza formalaşdıracaq".

Büdcə layihəsində azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinə ayrılacaq vəsaitlərin tərkibində Xankəndi, Əsgəran, Ağdərə, Xocavənd, Xocalı üzrə də əsaslı xərclərin yönəldilməsi nəzərdə tutulur. Azərbaycan Ordusunun sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra bölgədə dayanıqlı sülhün təmin olunması və burada yaşayan Azərbaycan vətəndaşları olan erməni sakinlərinin reinteqrasiyası ilə əlaqədar Qarabağ və Şərqi-Zəngəzurun digər şəhər və rayonları kimi Xankəndi, Əsgəran, Xocalı, Ağdərə, Xocavənddə də bərpa-quruculuq işlərinin aparılması, zəruri infrastrukturların və kommunikasiyaların yaradılması, həyati vacib sosial təminatların həlli, iqtisadi, sosial və humanitar xarakterli proqramların həyata keçirilməsi nəzərdə tutulur.

İşğaldan azad olunmuş ərazilərdə yaşayan əhalinin sosial müdafiəsi və təhlükəsizliyi, müasir təhsil, səhiyyə və sosial xidmətlərlə təmin olunması, zəruri infrastruktur, o cümlədən işıq, qaz, su, istilik təminatları və digər lazımi tələbatlar üçün tədbirlər planı hazırlanaraq həyata keçiriləcək. Həmin tədbirlərin icrası isə, təbii ki, həm də büdcə vəsaitləri hesabına təmin ediləcək. Bu o deməkdir ki, büdcə layihəsinin müzakirələri zamanı işğaldan azad olunmuş ərazilərin bərpası üzrə nəzərdə tutulan büdcə xərclərinin daha da artacağı şübhəsizdir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# *Türkiyə Ali Məhkəməsinin sədri:* "Xankəndidə Azərbaycan bayrağının dalğalandırılması türk xalqında böyük qürur və fərəh doğurdu"

Bu gün Şuşada keçirilən "Ədalət mühakiməsi və informasiya texnologiyaları: müasir çağırışlar" mövzusunda beynəlxalq konfrans türk dövlətləri arasında hüquq istiqamətində lazımi irəliləyişə nail olmağımız baxımından önəmli tədbirdir.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Şuşa şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Ədalət mühakiməsi və informasiya texnologiyaları: müasir çağırışlar" mövzusunda keçirilən beynəlxalq konfrans zamanı Türkiyə Ali Məhkəməsinin (Yargıtay) sədri Mehmet Akarca deyib.

"Bu gün burada olmaqdan çox xoşbəxtik və qürur duyuruq. Oktyabrın 15-də Prezident İlham Əliyevin Xankəndidə Azərbaycan bayrağını dalğalandırması Türkiyədə, türk xalqında böyük həyəcan, qürur və fərəh doğurdu. Başda Qarabağın işğaldan azad edilməsində böyük əməyi olan Prezident İlham Əliyev



olmaqla, bütün azərbaycanlı qardaşlarımızı, qazilərimizi təbrik edir, bu yolda canlarını qurban vermiş şəhidləri ehtiramla yad edirik", - deyə Mehmet Akarca bildirib.

O qeyd edib ki, konfrans zamanı Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransının qurulması təşəbbüsü irəli sürüldü, eyni zamanda təcrübə mübadiləsi və görüləcək işlərlə bağlı hədəflər müəyyən olundu: "Bununla bağlı olaraq bizim hüquq qurumlarımız arasında çox inkişaf etmiş əlaqələrimiz var. Bu anlaşma ilə biz bu əməkdaşlığı daha yüksək səviyyəyə qaldıra bildik".



# MÖHTƏŞƏM 20 İL 2003 2023

# Azərbaycan: güclü iqtisadi

## Prezident İlham Əliyevin daxili və xarici siyasəti Azərbaycan xalqının və dövlətinin

*Əvvəli 1-ci səh.*

Ölkənin sosial-iqtisadi sferasında əldə edilən nailiyyətlər dəqiq göstəricilər və rəqəmlərlə ifadə edilə bilər. Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub. Son 20 il ərzində ümumi daxili məhsul (ÜDM) 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, ÜDM-nin real həcmi 4 dəfə artıb.




Adambaşına ÜDM 769 ABŞ dollarından 7.798 ABŞ dollarına yüksəlib. Qeyri-neft-qaz ÜDM-i 4,1 milyard ABŞ dollarından 41,1 milyard ABŞ dollarına çatıb.




Ölkənin xarici ticarət dövriyyəsi 3,8 milyard ABŞ dollarından 52,7 milyard ABŞ dollarına yüksəlib.




İxracın həcmi 2,2 milyard ABŞ dollarından 38,1 milyard ABŞ dollarına çatıb.




Qeyri-neft ixracı 0,26 milyard ABŞ dollarından 3,05 milyard ABŞ dollarına yüksəlib.




Xarici ticarətin profisiti 0,5 milyard ABŞ dollarından 23,6 milyard ABŞ dollarınadək artıb. 2003-2022-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatı 2,2 dəfə, nəqliyyat sektoru 4,9 dəfə, turizm və ictimai iaşə 18,9 dəfə, informasiya və rabitə sahəsi isə 23 dəfə artıb.

Ölkəmizin strateji valyuta ehtiyatları 1,4 milyard ABŞ dollarından 58,5 milyard ABŞ dollarına yüksəlib. 2002-ci il ilə müqayisədə 2022-ci ildə yoxsulluq səviyyəsi 46,7%-dən 5,5%-ə enib.

Azərbaycanın 2030-cu ilədək Milli Prioritetlərində və 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasında hədəflənən nəticələrə və sağlam prinsiplərə əsaslanmaqla gələcəkdə qeyri-neft iqtisadiyyatını daha da inkişaf etdirmək, insan kapitalının inkişafı nəticəsində dünya iqtisadiyyatında ölkənin mövqeyini gücləndirmək, daha yuxarı gəlirli ölkələr qrupuna daxil olmaq hədəflənir.

### Azərbaycan: qlobal və strateji layihələr müəllifi

Transmilli enerji və nəqliyyat-kommunikasiya dəhlizləri sahəsində uğurlu siyasət sosial-iqtisadi inkişaf göstəricilərini yüksəldib. Ölkəmiz Avropanın enerji təminatında strateji və etibarlı tərəfdaşa çevrilib. 2006-cı ildə istismara verilən Bakı-Tbilisi-Ceyhan boru kəməri, 2018-ci ildə rəsmi açılışı olan "Cənub qaz dəhlizi" bu baxımdan xüsusi qeyd edilməlidir. Enerji əməkdaşlığının yeni mərhələsi üçün 2022-ci ildə Avropa və digər tərəfdaş ölkələrlə energetika sahəsində strateji əməkdaşlığa dair Memorandum və Saziş imzalanıb. Həmin sənədlər qaz nəqlinin artırılmasını, bərpa olunan mənbələrdən elektrik enerjisinin və maye hidrogenin Avropaya ixracını, habelə ötürmə üçün infrastrukturun qurulmasını nəzərdə tutur. Ölkəmiz qlobal enerji keçidi çağırışlarına uyğun olaraq, xarici investorlarla əməkdaşlıq çərçivəsində bərpaolunan enerji mənbələrinin səmərəli istehsalını təşkil edir. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" və Səudiyyə Ərəbistanı Krallığının "Acwa Power" şirkətləri ilə külək və günəş enerjisinin istehsalı layihələri uğurla icra edilir. Bununla yanaşı, bp şirkəti ilə birlikdə 240 meqavatlıq günəş-elektrik stansiyasının tikintisi planlaşdırılır. Digər bir sıra enerji şirkətləri ilə birgə həm quruda, həm də dənizdə günəş və külək enerjisi istehsalı layihələrinin icrası nəzərdə tutulur.

"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan yalnız tranzit ölkə kimi yox, eyni zamanda bir sıra nəqliyyat layihələrinin təşəbbüskarı kimi çıxış edir. Ölkəmizin təşəbbüsü və maliyyə dəstəyi ilə həyata keçirilən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi 2017-ci ildə istismara verilib. Bu, təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. Azərbaycanın təşəbbüskarı olduğu digər bir mühüm layihə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşası ilə bağlıdır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı üzrə ötən il ümumi yükaşırmanın həcmi 15% artaraq 6,4 milyon ton təşkil edib. Bunun 90%-ə qədəri tranzit yüklərin payına düşür. Tranzit potensialının artırılması üçün limanın 2-ci fazasının tikintisi ilə bağlı əsaslı işlərə başlanılıb.

Ələt Azad İqtisadi Zonası yerli və xarici investorları cəlb etməklə yüksək əlavə dəyərli, ixracyönümlü məhsul və xidmətlər istehsalını təşkil edəcək, Azərbaycanın tranzit imkanlarını genişləndirəcək, yükdaşımaları artıracaq.

Orta dəhlizin artan imkanlarından optimal şəkildə yararlanmaq üçün nəqliyyat infrastrukturu təkmilləşdirilir. Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz də Orta dəhliz marşrutunun şaxələnməsini təmin edəcək. 2022-2026-cı illərə dair sosial-iqtisadi inkişaf strategiyasında da ölkəmizin regional haba və e-ticarət mərkəzinə çevrilməsi, tranzit yükdaşıma və logistika əməliyyatlarının həcminin artırılması nəzərdə tutulur.

### İnnovativ yanaşmaların tətbiqi ilə investisiya cəlbediciliyinin artırılması

Ölkəmizdə davamlı makroiqtisadi və maliyyə sabitliyi daxili və xarici investisiya fəallığını şərtləndirir. Sağlam və şəffaf biznes mühitinin yaradılması ölkəyə yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınını stimullaşdırır. Azərbaycan beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb. Davamlı islahatlarla investorlar üçün yaradılan əlverişli biznes mühiti, güzəştlər, imtiyazlar və stimullar ölkə iqtisadiyyatına qoyulan investisiyaların artmasını, yeni istehsal sahələri və iş yerlərinin yaradılmasını təmin edib. Beynəlxalq təşkilatlar tərəfindən keçirilən sorğuların nəticələrinə görə, ölkəmizdə biznes mühitinin daha da təkmilləşdirilməsi və investorların gözləntilərinin yaxşılaşması müşahidə edilir. 154,1 milyard ABŞ dolları xarici investisiya olmaqla, 2003-2022-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 310,4 milyard ABŞ dolları təşkil edib.




2002-ci ildə iqtisadiyyata yönəldilən investisiyaların həcmi 2,8 milyard ABŞ dolları idisə, 2022-ci il üzrə bu rəqəm 17,1 milyard ABŞ dolları təşkil edib.




2003-2022-ci illər ərzində ölkə iqtisadiyyatına qoyulmuş birbaşa xarici investisiyaların (BXİ) həcmi 100,7 milyard ABŞ dolları olub.

Ölkədə investisiya mühitinin cəlbediciliyinin artırılması yönündə müxtəlif tədbirlər həyata keçirilir. Xarici investorlar üçün "vahid pəncərə" prinsipi tətbiq edilir və onlara müxtəlif istiqamətlər üzrə dəstək göstərilir. Həmçinin birbaşa xarici investisiyaların təşviqinə dair strategiya hazırlanır.

### İxracın artırılması əsas hədəflərdəndir

Bu dövrdə ölkəmizin ticarət tərəfdaşlarının sayı artaraq 2022-ci ildə 55 ölkədən 185-ə çatıb. Ötən il Azərbaycandan 110-dan çox ölkəyə qeyri-neft məhsulları ixrac olunub. Qeyri-neft-qaz ixracı sahəsində coğrafi şaxələnmə ilə yanaşı, məhsul çeşidlərinin şaxələnməsi üzrə də uğurlu nəticələr əldə olunub. Beynəlxalq sərgi və ticarət yarmarkalarında ölkə sahibkarlarının iştirakına və "Made in Azerbaijan" brendinin xaricdə tanıdılmasına dəstək və sair tədbirlər də ixracın artımını stimullaşdırır.

Hazırda xarici ölkələrdə Azərbaycan məhsullarının və mətbəxinin təqdim olunduğu 11 ticarət evimiz fəaliyyət göstərir. Ölkəmizin iqtisadi-ticarət əlaqələrini genişləndirmək, bu sahədə maraqlarını qorumaq və təmsil etmək məqsədi daşıyan ticarət nümayəndəliklərinin fəaliyyəti genişlənir.

Hazırlıq mərhələsində olan ixracın coğrafiyasının genişləndirilməsinin stimullaşdırılması mexanizmlərindən biri - logistikanın subsidiyalaşması ölkə ərazisindən keçən tranzit yüklərin qiymətinin enməsi, bununla da ölkəmizin tranzit sahəsində rəqabət qabiliyyətinin artırılmasına dəstək məqsədi daşıyır.

Hazırlanan Milli İxrac Strategiyasında qısa və orta perspektivdə mövcud məhsulların yeni bazarlara, uzunmüddətli perspektivdə isə yeni məhsulların yeni bazarlara ixracı hədəflənir. 2021-ci illə müqayisədə 2026-cı ildə Azərbaycanın qeyri-neft ixracının 85%, yəni təxminən 5 milyard ABŞ dolları səviyyəsində artırılması nəzərdə tutulur.

### Özəl sektor iqtisadiyyatda həlledici mövqeyə yüksəlib

Məşğulluğun, qeyri-neft ixracının artırılması və digər strateji məsələlərdə özəl sektor həlledici rola malikdir. Azərbaycanda azad rəqabət mühitinin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, vergi güzəştləri və subsidiyalar, real sektora maliyyə dəstəyi və digər tədbirlər həyata keçirilir. Bunun nəticəsi olaraq ötən dövr ərzində ölkədə biznes fəaliyyəti geniş miqyas alıb. Azərbaycanın iş adamları xarici ölkələrdə həyata keçirilən layihələrdə də fəal iştirak edir, müxtəlif sahələrə investisiya yatırır, etibarlı tərəfdaş kimi tanınırlar. Hazırda ölkədə sahibkarlıq fəaliyyəti ilə aktiv məşğul olanların sayı 683 mindən çoxdur. Özəl bölmənin ÜDM-də payı 83,5%, məşğulluqda payı isə 78%-ə yaxındır.




2003-2022-ci illər ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinin 42.703 investisiya layihəsinin maliyyələşdirilməsinə 2,83 milyard manat güzəştli kredit verilib.

Maliyyələşdirilmiş layihələr hesabına 178 mindən çox yeni iş yerinin açılması imkanı yaranıb.




Bakı və Abşeron iqtisadi rayonu istisna olmaqla, ayrılmış güzəştli kreditlərin 62,2%-i (1,76 milyard manat) regionların payına düşür. Kreditlərin 50,7%-i kənd təsərrüfatı məhsullarının istehsalına, 49,3%-i isə müxtəlif növ sənaye məhsullarının istehsalı, emalı, o cümlədən aqrar məhsulların emalı və digər sahələrin inkişafına yönləndirilib.

Sahibkarlıq subyektlərinin dövlətin güzəştli kreditlərinə əlçatanlığını asanlaşdırmaq üçün tələb olunan sənədlərin sayı minimuma endirilib, sənədlərin notarial təsdiq olunması şərti ləğv edilib və 200 min manatadək kreditlər üzrə biznes plan tələbi aradan qaldırılıb. 2018-ci ildə isə güzəştli kreditlərin illik faiz dərəcəsi 5%-ə endirilib.

Sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması məqsədilə, bir sıra hallar istisna olmaqla, yoxlamalar 2015-ci ildən 1 yanvar 2024-cü il tarixədək dayandırılıb.

Pandemiya dövründə sahibkarlara göstərilən dəstək dövlətin daim sahibkarların yanında olduğunun göstəricisidir. Bu tədbirlər sahibkarların iqtisadi fəallığının bərpası və artmasına, iqtisadi inkişafın sürətlənməsinə imkan verib. Bu, regionda ÜDM-ə nisbətdə ən böyük dəstək paketi idi. Pandemiya dövründə maliyyə dəstəyi almış sahibkarların sayı 132 mindən çox, ümumi ödənilmiş maliyyə vəsaitinin həcmi isə 364 milyon manata yaxın olub. Sahibkarlara həcmi 115 milyon manatdan çox olan vergi güzəşti paketi təqdim edilib. Bununla yanaşı, pandemiyanın təsirlərindən zərər çəkən sahibkarlar üçün dəyəri 1,5 milyard manat olan kredit-zəmanət və mövcud kredit portfeli üzrə faizlərin subsidiyalaşdırılması mexanizmlərini xüsusilə qeyd etmək lazımdır. Sahibkarların işinin sadələşdirilməsi, onlara dəstək mexanizminin artırılması dövlət əmlakının icarəyə verilməsi sahəsində də həyata keçirilib.

Hazırda ölkə üzrə sahibkarlıq subyektlərinin 99,6%-i mikro, kiçik və orta sahibkarlıq (KOB) subyektləridir. KOB-ların iqtisadiyyatda rolunun, bilik və bacarıqlarının artırılması, maliyyə resurslarına və satış bazarlarına çıxışının genişləndirilməsi, dövlət xidmətlərinə rahat çıxışının təmin edilməsi istiqamətində müxtəlif dəstək mexanizmləri həyata keçirilir. Bir sıra şəhər və rayonlarda sahibkarlara yerində xidmət göstərən "KOB dostu" ofislərinin, biznes biliklərinin artırılmasına dəstək olan KOB inkişaf mərkəzlərinin, sahibkarlara vahid məkanda dövlət və özəl xidmətlərin göstərildiyi "KOB evləri"nin fəaliyyəti, KOB-lara təhsil, elm, tədqiqat və dəstək sahələrində qrantın verilməsi, "Startap" şəhadətnaməsi, daxili bazar araşdırmasının aparılmasına, ticarət şəbəkələrinə və sərgilərə çıxışa dəstək mexanizmləri buna misal ola bilər.

Sənaye zonalarında sahibkarlıq fəaliyyəti üçün zəruri infrastrukturun yaradılması, səmərəli işin təşkili üçün müxtəlif xidmətlərin göstərilməsi də özəl sektorun inkişafına göstərilən dövlət dəstəyi tədbirlərindəndir.

İnnovativ sahibkarlığın inkişafında bilik iqtisadiyyatının, 4-cü Sənaye İnqilabının elementlərinin tətbiqi, qlobal dəyər zəncirinə inteqrasiya, klasterləşmə, sənayenin rəqəmsal transformasiyası, "ağıllı biznes" modellərinin yaradılması kimi məsələlər əsas hədəflərdəndir.

Lisenziyalar və icazələrin alınması sahibkarlıq fəaliyyəti üçün əsas şərtlərdəndir. Bu prosesi sadələşdirmək üçün İqtisadiyyat Nazirliyi tərəfindən, dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla, sahibkarlara lisenziyaların "ASAN xidmət" mərkəzləri və "KOB evləri" vasitəsilə verilməsi davam etdirilir. Həmçinin lisenziya və icazələr elektron qaydada "Lisenziyalar və icazələr" portalı vasitəsilə verilir.

Biznes mühitinin yaxşılaşdırılması üçün davamlı islahatların nəticəsi beynəlxalq hesabatlarda qeyd olunur. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik İndeksi" hesabatında ölkəmiz 11 pillə irəliləyərək 141 ölkə arasında 58-ci mövqedə qərarlaşıb. Hesabata əsasən, Azərbaycan 12 indikatordan 8-i üzrə irəliləyərək MDB ölkələri arasında lider mövqelər sırasında yer alıb, həmçinin Cənubi Qafqaz regionunda birinci olub. Bu hesabatda "biznesin dinamikliyi" üzrə Azərbaycan 8 pillə irəliləyərək dünya sıralamasında 23-cü yerdə qərarlaşıb ki, bununla ölkəmizin biznes mühitinin inkişafı istiqamətində apardığı intensiv islahatlar bir daha təsdiqini tapır.

### Sənayenin yeni üsullarla inkişaf etdirilməsi, yerli məhsul istehsalının artırılması

İqtisadi diversifikasiyada sənayenin innovativ üsullarla inkişafı və şaxələndirilməsi önəmli rol oynayır. İdxalı əvəz edən, yeni ixrac imkanları yaradan, eləcə də müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması bu kontekstdə dəyərləndirilə bilər.

Son 20 il ərzində sənayedə məhsul istehsalının həcmi 4,0 milyard manatdan 86,4 milyard manata çatıb.




Sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı 2002-ci ildə 54,9% olduğu halda, 2022-ci ildə 87,6% təşkil edib.




2002-2022-ci illərdə ölkənin qeyri-neft-qaz sənayesində istehsalın həcmi 1,6 milyard manatdan 17,7 milyard manata çatıb ki, bu da 4,3 dəfə real artımdan xəbər verir.




Sənayenin inkişafına yönəlmiş əhəmiyyətli mexanizmlərdən biri dövlət başçısının təşəbbüsü ilə sənaye zonalarının - sənaye parkları və məhəllələrinin yaradılmasıdır. Ölkədə 7 sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları, 5 sənaye məhəlləsi - Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərur sənaye məhəllələri yaradılıb.

Sənaye zonalarında ümumilikdə 10,23 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 3,35 milyard manatlıq hissəsi ixrac olunub. Cari ilin birinci yarısında sənaye zonalarında fəaliyyət göstərən müəssisələr tərəfindən 1,4 milyard manatlıq məhsul satılıb ki, bunun da 33,2%-i, yəni 470,6 milyon manatlıq hissəsi ixracın payına düşür.

2023-cü ilin birinci yarısında sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 16,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə 20,7 faiz (470,6 milyon manat) olub. Sənaye zonalarında istehsal edilən məhsullar 50-dən artıq ölkəyə ixrac olunur.

Sahibkarların biznes fəaliyyətini stimullaşdıran, onların vergi və gömrük güzəştləri əldə etməsi üçün əlverişli şərait yaradan və 2016-cı ildən tətbiq edilən investisiya təşviqi mexanizmi çərçivəsində 7 ildən artıq müddət ərzində 583 layihə təşviq olunub.



MÖHTƏŞƏM 20 İL 2003 2023

# potensialı olan qalib dövlət

## inkişafında və qüdrətlənməsində tarixi nailiyyətlərin əldə olunmasını təmin edib

Layihələrin icrası nəticəsində iqtisadiyyata 5,6 milyard manatdan artıq investisiya yatırılması, 38,6 mindən çox iş yerinin yaradılması nəzərdə tutulub. İndiyədək dəyəri 1,8 milyard manatdan artıq olan texnika, texnoloji avadanlıq və qurğular güzəştli şərtlərlə ölkəyə idxal edilib və müasir istehsal sahələri qurulub. Təşviq edilmiş layihələrin icrası nəticəsində ölkədə yeni məhsullar istehsal edən müəssisələr yaradılıb. Cənab Prezidentin 20 dekabr 2022-ci il tarixli fərmanı ilə əvvəlki illərin təcrübəsi nəzərə alınmaqla investisiya təşviqi mexanizmi təkmilləşdirilib. İnvestisiya təşviqi sənədi 2023-cü ilin 1 yanvar tarixindən 3 il müddətində sənaye məhəllələri, aqroparklar, turizm və rekreasiya zonaları və müvafiq ərazilərdə həyata keçirilən layihələrə, eləcə də dövlət başçısı tərəfindən müəyyən edilən istiqamətlər üzrə strateji layihələrə verilir. Yeni meyarlara ekoloji nöqteyi-nəzərdən əhəmiyyətli olan tullantıların təkrar emalı fəaliyyət sahəsi əlavə olunub, turizm istiqamətli fəaliyyət sahələri genişləndirilib. Mexanizm çərçivəsində layihələr üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğuların əhatə dairəsinin dəqiqləşdirilməsi məqsədilə mal mövqelərinin siyahısı təsdiq edilib. Hazırda strateji layihələr üzrə istiqamətlərin müəyyən olunması ilə bağlı işlər aparılır.

Ərzaq məhsullarının istehsalının artmasında, özünütəminetmə səviyyəsinin yüksəlməsində aqroparklar effektiv mexanizmlərdəndir. Dövlət başçısının tapşırığına əsasən, aqroparkların yaradılması zəruri xarici infrastrukturun dövlət vəsaiti hesabına qurulması, güzəştli kreditlərin və investisiya təşviqi sənədlərinin verilməsi yolu ilə dövlət tərəfindən dəstəklənir. Ötən dövr ərzində respublikanın 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqroparkın yaradılması üzrə işlər həyata keçirilib. Həmin aqroparklardan 46-sı artıq fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə və ya tikinti işləri aparılır. Aqroparkların yaradılmasına indiyədək sahibkarlar tərəfindən 1,5 milyard manatdan çox investisiya qoyulub. İnnovativ texnologiyaların tətbiqi nəticəsində aqroparklarda hər hektara düşən orta məhsuldarlıq respublika üzrə orta göstəricini təqribən 2 dəfə üstələyib.

Ümumilikdə dövlət tərəfindən həyata keçirilən dəstək tədbirləri nəticəsində 2003-2022-ci illər ərzində iqtisadi artımın sahəvi hərəkətverici qüvvəsi olan qeyri-neft-qaz sənayesində yaradılmış əlavə dəyər real olaraq 4,7 dəfə artıb.

"Yaşıl iqtisadiyyat"a keçid və "yaşıl texnologiya"ların tətbiqi istiqamətində irəliləyişlərə nail olmaq üçün sənayenin strukturunun yenilənməsi istiqamətində addımlar atılır.

### Rəqəmsal iqtisadiyyat dayanıqlı inkişafı şərtləndirir

Dünya iqtisadiyyatında sürətli rəqəmsallaşma və bu xüsusda məhsuldarlığın əhəmiyyətli artımı keyfiyyətli inkişaf üçün fürsətlər yaradır. Bu baxımdan dövlət rəqəmsal infrastrukturun təkmilləşdirilməsinə investisiya qoyuluşunu artırıb. Rəqəmsal iqtisadiyyatın inkişafı üzrə strategiyanın hazırlanması və tətbiqi, inkişaf üçün tənzimləyici mexanizmin, əlverişli infrastrukturun yaradılması nəzərdə tutulur. Bununla yanaşı, innovativ texnologiyaların tələblərinə uyğun bilik və bacarıqları olan insan kapitalının formalaşdırılması da zəruridir və bu sahəyə xüsusi diqqət göstərilir. Rəqəmsal texnologiyaların iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən təhsil, səhiyyə və digər sferalarda tətbiqi dayanıqlı inkişaf drayverlərinin hərəkətə gətirilməsini, ölkəmizin yeni qlobal trendlərə uyğunlaşmasını təmin edəcək.

Azərbaycanda fəaliyyət göstərən Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi də məhz yeni reallıqlar şəraitində ölkəmizin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq məqsədinə xidmət edir. Mərkəz rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların, layihələrin təhlili və koordinasiyası üzrə işlər görür.

### Paytaxtla regionlar arasında inkişaf fərqi azalır

Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları bölgələrdə infrastrukturun yenilənməsindən, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir.

Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir.

2022-ci ildə regionlar üzrə məhsul buraxılışının nominal həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə böyüyüb, əhalinin nominal gəlirləri isə 10,5 dəfə artıb. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb.



2004-2022-ci illərdə ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib. Elektrik enerjisinin 76%-i regionlarda istehsal edilir. Bu illər ərzində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Regionlarda qazlaşdırmanın səviyyəsi 94%-i ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9%-dən 73%-ə çatıb. Bu illərdə 9 hava limanı tikilib və yenidən qurulub. Laçın hava limanının tikintisi isə davam edir. Həmin müddətdə əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 760-a yaxın tibb müəssisəsi tikilib və ya təmir olunub, 43 Olimpiya İdman Kompleksi tikilib, çoxlu sayda körpü və tunellər, yollar istifadəyə verilib. İstehsal və sənaye müəssisələrinin çoxu bölgələrə aiddir. Hazırlanan növbəti dövlət proqramı da regionların inkişafının müasir tələblərə uyğunlaşdırılmasına hesablanıb.

Dövlət başçısının tapşırığına əsasən, Naxçıvanın sosial-iqtisadi inkişafına dair proqram və strateji layihələrin icrasına başlanılıb ki, bu da regionda rifahın yüksəlməsinə, biznes fəaliyyətinin genişlənməsinə münbit şərait yaradır.

### Azad edilmiş ərazilərin sürətli reinteqrasiyası yeni imkanlar açır

Azad edilmiş torpaqlarımızın dirçəlişi və reinteqrasiyası iqtisadi potensialımızın artmasına geniş imkanlar vəd edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Bölgədə müxtəlif sahələri əhatə edən layihələrin icrası məqsədilə dövlət büdcəsindən 2021-ci ildən bu günədək 12 milyard manata yaxın vəsait ayrılıb. Bununla yanaşı, bərpa və quruculuq işlərinə özəl investisiya cəlb olunması əsas məqsədlərdəndir. İnvestisiya cəlbi ilə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, məhsuldar ərzaq istehsalına əsaslanan dayanıqlı təcrübələrin tətbiqi, turizmin təşviqi və digər tədbirlər gerçəkləşdirilir. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə buraya yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri xüsusi qeyd edilməlidir. Bölgədə fəaliyyət göstərən müəssisələr üçün əlverişli investisiya mühiti yaradılıb. İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, habelə xammal və materiallar ƏDV və gömrük rüsumlarından azad edilib. Regionda fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəət (gəlir), torpaq, əmlak və sadələşdirilmiş vergidən də azad olunub. Sahibkarların maliyyəyə çıxış imkanlarının artırılması məqsədilə kreditlərə dövlət zəmanətinin verilməsi və faizlərin subsidiyalaşdırılması ilə bağlı elektron platforma hazırlanır.

Qlobal iqtisadiyyatda "yaşıllaşma və karbonsuzlaşma" meyilləri qeyri-resurs iqtisadiyyatının inkişafı üçün imkanlar yaradır. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzurun əhəmiyyətli potensialı var və bu, xarici investorların marağını cəlb edir. Artıq bu sahədə xarici investisiyalı müəssisələrin yaradılması ilə bağlı addımlar atılıb.

Reinteqrasiya kompleks xarakter daşıyır və ərazilərin iqtisadi dirçəlişi ilə yanaşı, sosial inkişaf da diqqət mərkəzindədir. Burada yaşayış üçün rahat şərait təmin edilir, sosial müdafiənin gücləndirilməsi, xidmətlərin qabaqcıl standartlara uyğun təmin olunması və məşğulluğun artırılmasına mühüm diqqət yetirilir. Artıq soydaşlarımız azad edilmiş ərazilərdə salınan yeni yaşayış məskənlərində məskunlaşmağa başlayıblar. "Ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi bölgədə rahat və müasir həyat şəraitini təmin edir.

### İqtisadi səmərəliliyin artmasına və vətəndaş məmnunluğuna xidmət edən islahatlar

Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi sahədə həyata keçirilən islahatların məqsədi iqtisadi səmərəliliyin və rifahın təmin olunması prinsiplərinə söykənir.

İqtisadi şəffaflaşma, biznes mühitinin cəlbediciliyinin artırılması, "kölgə iqtisadiyyatı"nın minimallaşdırılması, haqsız rəqabətin aradan qaldırılması, intizamlı biznes üçün mühitin təmin edilməsi vergi siyasətinin əsas istiqamətləridir. Son bir neçə ildə biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində əhəmiyyətli nəticələr əldə olunub. Əgər 2018-ci ilə, yəni vergi sistemində "yeni keyfiyyət başlanğıcı" adlandıra biləcəyimiz dövrün əvvəlinə qayıtsaq, son illərdə istər vergi sistemində, istərsə də biznes-dövlət münasibətlərində və biznesin fəaliyyəti kontekstində böyük dəyişiklikləri müşahidə edə bilərik.

2022-ci ildə ilk dəfə dövlət büdcəsinə 15,5 milyard manat həcmində vergi daxilolması təmin edilib. Əgər dövlət büdcəsinə vergi daxilolmalarının həcmini 2002-ci illə müqayisə etsək, iqtisadiyyatımızla yanaşı, dövlətimizin maliyyə imkanlarının nə qədər böyüdüyünün şahidi ola bilərik. Belə ki, 2002-ci illə müqayisədə vergi daxilolmalarında artım 23 dəfəyə yaxın, qeyri-neft-qaz sektorundan daxilolmalar isə 23,4 dəfəyədək artıb. Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi nəticəsində bölgələrdən daxilolmalar son 20 il ərzində 35,8 dəfə artıb. Vergi daxilolmalarının əhəmiyyətli artımı ölkəmizin maliyyə imkanlarının genişlənməsinə mühüm dəstək olub.

İqtisadi artım işgüzar aktivliyin və sahibkarların sayının ildən-ilə artmasına səbəb olub. Əgər 2002-ci ildə ölkədə cəmi 180 minə yaxın sahibkarlıq subyekti mövcud idisə, 2022-ci ilin sonuna qeydiyyatda olan vergi ödəyicilərinin sayı 1,4 milyondan çox olub, aktiv vergi ödəyicilərinin sayı isə ötən ilin sonuna 712 min təşkil edib.

Əmək bazarının "ağardılması" məqsədilə əməkhaqları üzrə 2019-cu ilin əvvəlindən tətbiq olunan vergi güzəştləri sayəsində qeyri-neft özəl sektorunda əmək müqavilələrinin sayı həmin dövrlə müqayisədə 340 mindən çox artıb. Bu, islahatın ortamüddətli dövrdə səmərəliliyinə dəlalət edir. Əmək müqavilələrinin sayının artması ilə əməkhaqqı fondunun böyüməsi sosial sığorta haqlarının yığım bazasının genişlənməsinə səbəb olur. Qeyri-neft-qaz özəl sektorun əmək müqavilələrində payı islahatın başlanğıcında olan 38,5%-dən 49,8%-ə yüksəlib.

Qarşıdakı dövrdə vergi sahəsi ilə bağlı əsas hədəflər ilk növbədə iqtisadi təşviq, effektiv nəzarət, rəqəmsallaşma prinsipləri əsasında reallaşdırılacaq. İqtisadi diversifikasiya və investisiyaların cəlbində vergi siyasətinin tənzimləyici rolu davam etdiriləcək. "Kölgə iqtisadiyyatı" ilə sistemli mübarizə yenə əsas prioritet olaraq qalır.

Dövlət əmlakının idarə edilməsi və özəlləşdirmə proqramlarının reallaşdırılması prosesi müasir təcrübələr əsasında optimallaşdırılıb. Əsas prioritet özəlləşdirmənin sosial ədalət prinsipi rəhbər tutulmaqla həyata keçirilməsi, prosesə geniş maliyyə imkanlarına və təcrübəyə malik investorların cəlbidir. 2003-cü ildən sonrakı dövrdə özəlləşdirmə prosesi çərçivəsində 23 mindən artıq kiçik müəssisə və obyekt özəl mülkiyyətə keçib. Orta və iri dövlət müəssisələrinin bazasında yaradılmış 1600-ə yaxın açıq səhmdar cəmiyyətindən 1100-ə yaxını məhz həmin dövr ərzində özəlləşdirilib. Təkcə investisiya müsabiqələri vasitəsilə özəlləşdirilmiş müəssisələrə 900 milyon ABŞ dollarına yaxın investisiya yatırılıb, rəqabətqabiliyyətli və ixracyönümlü, həmçinin idxalı əvəzləyən bir sıra məhsulların istehsalı üçün imkan yaradılıb. Dövlət əmlakının özəlləşdirilməsi nəticəsində bu dövrdə 300 mindən artıq iş yeri açılıb, 220 mindən çox şəxs səhm sahibi olub. ÜDM-də özəl sektorun payının çoxalmasında dövlət əmlakının özəlləşdirilməsinin mühüm rolu var.

Dövlət müəssisələrinin korporativ idarəetmə prinsipləri əsasında fəaliyyəti, iqtisadi effektivliyin yüksəldilməsi, maliyyə dayanıqlılığının yaxşılaşdırılması iqtisadi inkişafa töhfədir. Bu məqsədlə yaradılan Azərbaycan İnvestisiya Holdinqinə dövlət müəssisələrinin idarəçiliyinin həvalə olunması, müəssisələrdə yaradılan müşahidə şuraları vasitəsilə fəaliyyətin optimal tənzimlənməsi - məsuliyyətin bölüşdürülməsi, hesabatlılığın təmin edilməsi dövlət müəssisələrinin iqtisadi dividendlərini artırıb, zərərdən mənfəətə keçməyə, büdcəyə ödəmələr edən kommersiya əsaslı strukturlara çevrilməyə əsaslı zəmin yaradıb.

Bu ilin 6 ayı ərzində isə artan tendensiya qorunmaqla dövlət müəssisələrinin ümumi dövriyyəsi 44 milyard manatdan yüksək olmaqla, toplam əməliyyat mənfəəti təqribən 5,5 milyard manat təşkil edib.

Yeni idarəetmə metodu həm də iri dövlət müəssisələrinə özəl investisiyaların cəlbini asanlaşdırır. Dövlət başçısının dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirləri nəzərdə tutan sərəncamı əsasında mühüm sektorları əhatə edən iri dövlət şirkətlərində institusional islahatlar davam etdiriləcək və onlarda dövlətin iştirak payı tədricən azaldılacaq. Kapital bazarlarının canlandırılmasına şərait yaradacaq bu yenilik dövlət müəssisələrinin idarə edilməsində vətəndaşların iştirakını və həmin müəssisələrə özəl investisiyaların yatırılması imkanlarını genişləndirəcək. Əldə olunacaq təcrübənin digər sahələrdə fəaliyyət göstərən təsərrüfat subyektlərinə də tətbiqi gözlənilir.

İqtisadiyyatın bütün sahələrində dövlət-özəl sektor tərəfdaşlığının genişləndirilməsi və özəl sektorun iqtisadi inkişafda rolunun artırılması sahəsində həyata keçirilən tədbirlər, o cümlədən qabaqcıl təcrübəyə əsaslanan yeni qanunun qəbul edilməsi də xüsusi önəm kəsb edir. Qanunun tətbiqi ilə ölkə iqtisadiyyatında investisiya fəallığının həm dinamikası, həm də keyfiyyətində yeni bir səhifə açılıb. Bu gün dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində innovativ və prioritet layihələr həyata keçirilməyə başlanıb.

Şəffaflığın artırılması istiqamətində digər addım 14 iyul 2023-cü il tarixdə dövlət başçısı tərəfindən "Dövlət satınalmaları haqqında " Qanunun imzalanmasıdır. Yeni qanun dövlət satınalmaları sahəsində şəffaflığı və intizamlılıq səviyyəsini artırmağı, çeviklik tələblərini nəzərə almağı, dövlət büdcəsi vəsaitlərindən qənaətli istifadəni və elektron satınalmalara keçidi təmin etməyi, nəzarət imkanlarını genişləndirməyi hədəfləyir.

Sağlam rəqabət ölkədə iqtisadi inkişafı təmin edən əsas amillərdəndir. Ədalətli rəqabətdən, qiymətlərin azalmasından, məhsul çeşidinin genişlənməsindən təkcə sahibkarlar, dövlət deyil, həm də istehlakçılar, sadə vətəndaşlar qazanırlar. Bu baxımdan Rəqabət Məcəlləsinin qəbul olunması ölkədə özəl sektorun inkişafını dəstəkləyən əlverişli biznes mühitinin inkişaf etdirilməsinə imkan yaradacaq, inhisarçılığın məhdudlaşdırılmasına, yerli təsərrüfat subyektlərinin daxili və xarici bazarlarda rəqabətqabiliyyətliliyinin artırılmasına, dövlətin iqtisadi tənzimləmə səmərəliliyinin yüksəldilməsinə, iqtisadi artım və inkişafın sürətlənməsinə əhəmiyyətli töhfə verəcək.

Ölkədə idarəetmənin insan amili üzərində təmərküzləşməsi, vətəndaşlara xidmətin texnoloji yeniliklər və müasir trendlər əsasında qurulması prinsipləri rəhbər tutulur. Vətəndaşlara, o cümlədən sahibkarlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan islahatlara uyğun olaraq, İqtisadiyyat Nazirliyi tərəfindən 260-dan çox xidmət göstərilir. Həmin xidmətlərdən artıq 194-ü elektronlaşdırılıb.

Həyata keçirilən islahatlar müstəqil Azərbaycanı növbəti böyük dönüş astanasına gətirib. Yeni mərhələdə dayanıqlı inkişaf tədbirlərinin uğurla həyata keçirilməsi, o cümlədən iqtisadiyyatın innovativ üsullarla inkişaf etdirilməsi, qeyri-neft sektorunun şaxələndirilməsi, rəqəmsal ekosistemin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, habelə iqtisadi və sosial sahələrdə nəticəyönümlü islahatların davam etdirilməsi öz növbəsində daha yüksək sosial-iqtisadi nailiyyətləri və artımı təmin edəcəkdir.

*Beləliklə, dövlət başçısının xalqımızın rifahı və dövlətimizin qüdrətlənməsi naminə gördüyü böyük işlər Azərbaycan tarixinin parlaq səhifəsidir. Bu gün yeni strateji hədəflərə nail olmaq üçün bütün səmərəli artım mənbələrindən istifadəni dəyərləndirən Azərbaycan yeni reallıqlar şəraitində qalib və güclü iqtisadi potensialı olan dövlət kimi dünyada mövqelərini daim möhkəmləndirir. Cənab Prezidentin müdrik və uzaqgörən siyasəti bundan sonra da onilliklər ərzində xalqımızın rifahına böyük töhfə verəcəkdir.*

**Mikayıl CABBAROV,**
***Azərbaycan Respublikasının iqtisadiyyat naziri***

# 20 Oktyabr Energetiklər Günüdür

**Bu il 20 Oktyabr-Energetiklər Günü həm milli dövlətçilik tariximiz, həm də ölkəmiz və region üçün əlamətdar bir dövrə təsadüf edir. Bu il Azərbaycanın bir çox dövlətçilik nailiyyətinin, o cümlədən enerji ölkəsi kimi mühüm uğurlarının müəllifi olan Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyidir. Azərbaycana rəhbərlik etdiyi iki fərqli dövrün hər birində ölkəmizin enerji müstəqilliyinin təmin edilməsi, suveren dövlət kimi öz taleyinin sahibi olması Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin əsas qayəsi idi.**




# Azərbaycanın enerji tarixinin möhtəşəm 20 ili

Ümummilli Liderin bütün ideallarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 il ərzində Azərbaycanın nəinki qüdrətli enerji dövləti kimi inkişafına nail oldu, eyni zamanda qətiyyəti, dəmir iradəsi sayəsində ərazi bütövlüyümüzü, suverenliyimizi tam təmin edərək ölkəmizin liderliyi ilə regionun geosiyasi mənzərəsini dəyişən yeni tarixi reallıqlar yaratdı. Azərbaycanın "yaşıl enerji" kursunda Qarabağ və Şərqi Zəngəzurun öz yerini tutması, işğaldan azad edilmiş ərazilərimizin enerji şəbəkəsinin vahid enerji sisteminə inteqrasiyası, ölkəmizin enerji potensialının daha da güclənməsi və enerji təchizatçısı missiyamızı uğurla davam etdirmək üçün yeni imkanların qazanılması bu reallığın ayrı-ayrı elementləridir.

Bütün bunlar, xüsusilə də dövlətlərin enerji təhlükəsizliyi ilə sınağa çəkildiyi qlobal böhran dövründə Azərbaycanın nüfuzunun güclənməsi və sürətlə dəyişən geosiyasi mühitdə beynəlxalq hüququ, ədaləti təmin etməklə Qələbə qazanması, uzunillik münaqişəni tarixdə bənzəri olmayan sonluqla başa çatdırması diqqəti bu nailiyyətlərdə həlledici rol oynamış lider amilinə yönəldir. Bu aspektdə İlham Əliyev dünyanın müasir tarixinin ən parlaq liderlərindəndir.

2003-cü ildən başlayaraq İlham Əliyevin Prezident və lider kimi məqsədyönlü fəaliyyəti ölkəmizin enerji strategiyasını keyfiyyətcə yeni mərhələyə yüksəltdi. Bu mərhələdə Ulu Öndərin müəllifi olduğu neft strategiyasının hədəfləri reallaşdı. Azərbaycan neft və qazının dünyaya çatdırılması marşrutları - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri istifadəyə verildi. Dünyanın ən böyük qaz-kondensat yataqlarından olan "Şahdəniz"də hasilat başladı. Azərbaycan 2007-ci ildən qaz idxal edən ölkədən qaz ixracatçısına çevrildi. Ölkədə neft hasilatı 2010-cu ildə pik səviyyəyə - 50,8 milyon tona çatdı.

Lakin Azərbaycan Prezidenti bu uğurlarla kifayətlənmədi və böyük uzaqgörənliklə ölkənin neft-qaz sektorunun gələcəyi ilə bağlı öz strateji baxışını irəli sürdü. İmkanlardan maksimum istifadə, fürsətlərin vaxtında və düzgün dəyərləndirilməsi nəticəsində "Şahdəniz" və "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi növbəti mərhələyə daxil oldu. "Ümid", "Abşeron", "Qarabağ" yataqları kəşf olundu, güclü enerji tərəfdaşlıqları quruldu, nəhəng "Cənub qaz dəhlizi" ərsəyə gəldi. Azərbaycan təbii qazının ixrac marşrutları şaxələndirildi, tədarük bazarları region və Avropa ölkələrini əhatə etdi.

Azərbaycanın enerji ölkəsi kimi əhəmiyyətini və geosiyasi çəkisini artıran bu nailiyyətlərin ardıcıllığı və dəqiqliklə zamanlanması məhz Prezident İlham Əliyevin əsl liderə xas strateji baxışına əsaslanır. Yəni dövlət başçısı özünün də bəyan etdiyi kimi, nəyi necə və nə vaxt etməyi yaxşı bilir, qərarlarını buna uyğunlaşdırmağı məharətlə bacarır, sözünün də imzası qədər dəyərini qoruyur.

Bunun ən bariz nümunələrindən biri "Cənub qaz dəhlizi"nin reallaşdırılması və yeni mənbədən - Xəzər dənizində "Şahdəniz" yatağından təbii qazın yeni marşrutla - Trans-Adriatik Boru Kəməri (TAP) ilə Avropa bazarına ən kritik vaxtda daxil olaraq enerji təhlükəsizliyinin təminatında strateji rol oynamasıdır. Bu layihə strateji baxış, dəqiq proqnozlaşdırma ilə yanaşı, güclü qətiyyətin məhsuludur. Belə ki, 2011-ci ildə Avropa İttifaqı və Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən birgə bəyanat imzaladı. Bu o zaman idi ki, Mərkəzi Asiya və Xəzərdən qazın Avropaya nəqli üçün "Nabucco" layihəsi ətrafında müzakirələr aparılırdı. Amma Azərbaycan genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən "Cənub qaz dəhlizi" layihəsinin təşəbbüskarı oldu. "Nabucco" ideya kimi qaldığı halda 2014-cü ildə "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı işlənilməsi, Cənubi Qafqaz Boru Kəməri (CQBK), Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələrindən ibarət 3500 km uzunluğunda "Cənub qaz dəhlizi"nin təməli qoyuldu. Çoxtərəfli əməkdaşlıq formatı "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası vasitəsilə Azərbaycan Prezidenti layihənin icrasına bilavasitə özü rəhbərlik etdi, qarşıya çıxan çətinlikləri nüfuzu və əzmi ilə yoluna qoydu. TANAP-la Türkiyəyə 2018-ci il iyunun 30-da, Avropaya isə TAP vasitəsilə 2020-ci il dekabrın 31-da qaz tədarükünə başlandı. Beləliklə, "Cənub qaz dəhlizi" tam işə düşdü.

Enerji böhranı dövründə Azərbaycan Avropanın enerji təchizatını şaxələndirən ölkə, enerji təhlükəsizliyinin təminatında etibarlı strateji tərəfdaş oldu. 2021-ci ildə Avropaya 8.2 milyard kubmetr qaz nəql edilmişdisə, enerji təchizatında turbulentliklərin yaşandığı ötən il qaz tədarükü 40 faiz artımla mümkün ən yüksək səviyyəyə - 11.4 milyard kubmetrə çatdırıldı. Ümumiyyətlə, TANAP və TAP istismara veriləndən indiyə kimi Türkiyə 24.3 milyard kubmetr, Avropa isə 28.7 milyard kubmetr Azərbaycan qazı ilə təchiz edilib. Bu il ölkədə qaz hasilatı 48.7 milyard kubmetr, ixrac isə 24 milyard kubmetr proqnozlaşdırılır.

Qaz tədarükü mənbələrinin əhəmiyyətinin təhlükəsizlik amilinə nəzərən müəyyənləşdiyi, diversifikasiyanın önəminin artdığı müasir enerji reallıqlarında Azərbaycanın bu enerji təşəbbüsünün özünü doğrultması ölkəmizlə əməkdaşlığa marağın artmasını və "Cənub qaz dəhlizi"nin genişləndirilməsini şərtləndirdi. Təsadüfi deyil ki, Avropa İttifaqı (Aİ) 2022-ci il mayın 18-də qəbul etdiyi "REPowerEU" planında "Cənub qaz dəhlizi"nin gücləndirilməsini vurğulamaqla layihənin inkişafına siyasi dəstəyini təsdiqlədi. İki ay sonra "Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması isə bunun məntiqi davamı idi. Sənəd Azərbaycandan təbii qaz tədarükünün iki dəfə artırılaraq 20 milyard kubmetrə çatdırılması ilə yanaşı, bərpaolunan enerjinin istehsalı və ixracı üzrə əməkdaşlığı da əhatə edir ki, bu da enerji təhlükəsizliyində strateji tərəfdaşlığımızın daha çox mənbələr hesabına genişlənməsi və uzunmüddətli olmasında qarşılıqlı maraqlardan xəbər verir. Ötən ilin dekabrında "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq Sazişi"nin, bu ilin aprelində "Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında əməkdaşlığa dair Anlaşma Memorandumu"nun da Avropa Komissiyasının iştirakı ilə imzalanması göstərir ki, ölkəmizlə bağlı enerji təşəbbüsləri Aİ tərəfindən dəstəklənir və Azərbaycan ümumavropa enerji təchizatçısı kimi qəbul edilir. Bu da ondan irəli gəlir ki, Azərbaycan Prezidentinin təşəbbüsləri bir tərəfdən müasir çağırışlara əsaslanır, digər tərəfdən isə cənab İlham Əliyevin təşəbbüslərində nə qədər haqlı olduğunu tarixin axarı sübuta yetirib. Həmçinin hər kəs fərqindədir ki, onun təşəbbüsləri təkcə Azərbaycanın deyil, bütün tərəflərin mənafelərinə uyğundur və hamının faydasınadır.

Dövlət başçısının enerji təhlükəsizliyi və enerji keçidi ilə bağlı siyasəti dünyada balanslaşdırılmış enerji sisteminə nail olmağın da münasib yoludur. Bu siyasət ondan ibarətdir ki, "yaşıl enerji" keçidi sürətləndirilməlidir. Eyni zamanda qlobal enerji istehlakının hazırda təxminən 55 faizini təşkil edən neft-qaz mənbələri inkişaf etdirilməlidir. Çünki qısa müddətdə neft-qazdan istifadəyə son verməklə enerji təhlükəsizliyi, əlçatanlıq və davamlılıq arasında balansı təmin etmək mümkün görünmür. Ona görə də bu gün ölkəmizdə ənənəvi və bərpaolunan enerji mənbələri paralel inkişaf etdirilir və bu siyasət enerji təchizatında dayanıqlılığı və enerji resurslarımıza olan ehtiyacları qarşılamağı təmin edir. Bu xüsusda iyulda istismara verilən, indiyədək 453 milyon kubmetr qaz və 171 min ton kondensatın hasil edildiyi "Abşeron" yatağı, həmçinin işlənmədə olan "Qarabağ", "Ümid" (Mərhələ-II), "Babək" və "Azəri-Çıraq-Günəşli" dərin qaz layihələrini xüsusi qeyd etməliyik. Hazırda Avropanın 10-dan çox ölkəsinin Azərbaycan qazına olan ümumi tələbatı illik 30 milyard kubmetrdən çoxdur və bu layihələr əlavə tədarükün mühüm mənbələri qismindədir. Neft-qaz sektoruna investisiyaların azaldığı bir dövrdə həm qaz yataqlarının işlənilməsi, həm də gələn il "Azəri-Çıraq-Günəşli" yataqlar bloku üzrə "Azəri Mərkəzi-Şərqi"də hasilata başlanması məhz uzaqgörən siyasətin töhfələridir. 2024-cü il 30 illik müqavilənin bitmə və XXI əsrin müqaviləsinin işə düşmə tarixidir. Bu cür planlama, "Əsrin müqaviləsi"nin uzadılmasına doğru vaxtda qərar verilməsi bir daha göstərir ki, cənab İlham Əliyev həmişə dəyişiklikləri hazırlıqlı qarşılayır.

Enerji ilə regional və qlobal əməkdaşlıq mühitinin yaradılması xüsusilə Prezident İlham Əliyevin enerji siyasətində əsas xətlərdən biridir. Hazırda Aİ ilə Yüksəviyyəli Enerji Dialoqu həyata keçirilir. Həmçinin Azərbaycan 7 ildir ki, neft bazarının tənzimlənməsinin çevik və səmərəli əməkdaşlıq formatı olan "OPEC plus"da təmsil olunur. Azərbaycan Prezidentinin irəli sürdüyü OPEC və qeyri-OPEC ölkələrinin bu əməkdaşlıq modeli vasitəsilə ölkəmiz neft bazarında tarazlığa, qiymət sabitliyinə və neft sənayesinin inkişafına davamlı töhfələr verir.

Azərbaycanın qlobal çağırışlara və müasir inkişaf meyillərinə uyğun enerji gələcəyində və dünyanın enerji təhlükəsizliyi sistemində elektrik enerjisi ixrac edən ölkə kimi yer tutmasında mühüm rol məhz elektroenergetika sektoruna məxsusdur. "Azərbaycanın çox güclü energetika potensialı olacaqdır" deyən dövlət başçısı bu sahənin inkişafına ilk vaxtlardan yüksək diqqət yetirdi. Bu aspektdə "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı" və digər strateji sənədlərin elektroenergetika sistemimizə böyük töhfələri oldu. 20 il ərzində ümumi gücü 4000 MVt-a yaxın 71 elektrik stansiyasının inşası ilə ölkəmizin enerji sisteminin qoyuluş gücü 8002 MVt-a yüksəldi. Xüsusilə 2006-2008-ci illərdə qısa müddətdə 856 MVt gücündə 7 modul tipli elektrik stansiyasının istismara verilməsi ölkənin elektrik enerjisi ilə təminatında vacib əhəmiyyətli hadisə idi. Sonra 525 MVt gücündə "Sumqayıt" ES, 780 MVt gücündə "Cənub" ES, gücü 800 MVt-a çatdırılan "Şimal" ES, 385 MVt-lıq Qobu ES, habelə dövlət başçısının göstərişi əsasında davamlı həyata keçirilən yenidənqurma tədbirləri enerji təchizatında dayanıqlılığı təmin etdi. Hazırda ölkəmizdə 78 stansiya fəaliyyət göstərir: bunlardan 22-si istilik-elektrik stansiyası, 39-u su, 5-i külək, 8-i günəş enerjisi ilə işləyən stansiyalardır. Həmçinin 3 hibrid elektrik stansiya və 1 bioenerji elektrik stansiyası fəaliyyətdədir. Azərbaycan Prezidentinin elektroenergetika infrastrukturunun qurulması və modernləşdirilməsi ilə bağlı ardıcıl siyasəti Mingəçevirin elektroenergetika mərkəzi kimi önəmini artıran yeni nailiyyətlərə yol açıb. Hazırda Mingəçevirdə müstəqillik dövrünün ən böyük istilik-elektrik stansiyası inşa olunur. 2025-ci ilə planlaşdırılan 1280 MVt-lıq yeni stansiya və "Azərbaycan" İES-in 7 və 8-ci bloklarının əlaqələndirilməsi nəticəsində ümumi güc 1880 MVt-a çatacaq, ildə 800 milyon kubmetr qaza qənaət olunacaq.

20 il ərzində generasiya gücünün artırılması ilə yanaşı, elektrik enerjisi şəbəkəsində də nailiyyətlər əldə edildi. Belə ki, hazırda ümumi gücü 29 256.5 MVA olan 110-500 kV-luq 368 yarımstansiya istismardadır. Həmçinin Gürcüstan, Rusiya, İran və Türkiyə ilə enerji sistemlərinin əlaqələndirilməsi sayəsində elektrik enerjisi mübadiləsi və ticarəti həyata keçirilir. Bütün bunların nəticəsi olaraq ölkəmizdə elektrik enerjisinin istehsalı 2003-cü illə müqayisədə 37 faiz artaraq ötən il 29004.3 mln. kVt·st oldu. Son 20 ildə elektrik enerjisinin idxalı 17 dəfə azaldı, ixracı isə 3 dəfədən çox artdı. Elektrik enerjisinin ixracı 2022-ci ildə 2997.5 mln. kVt·st olub ki, bu da 2003-cü illə müqayisədə 2126.8 mln. kVt·st çoxdur. Həmçinin idxal 2003-cü ildəki 2436.3 mln. kVt·st-lıq göstəricidən ötən il 137.2 mln. kVt·st-a qədər azaldı. 2023-cü ilin sonuna 29 mlrd. kVt·st-dan çox elektrik enerjisinin istehsalı proqnozlaşdırılır.

Elektroenergetika sisteminin bu cür inkişaf dinamikası da təsdiqləyir ki, Azərbaycan Prezidentinin verdiyi sözlər, qarşıya qoyduğu hədəflər mütləq reallaşır. Dövlət başçısı yeniliklərə çevik reaksiyası ilə də inkişaf proseslərinin önündə addımlayan, əhəmiyyətli dəyişikliklər yaradan və bu dəyişiklikləri düzgün yönəldən liderdir. Bərpaolunan enerjinin inkişafını prioritetləşdirən dövlət siyasəti, Xəzəri "yaşıl enerji mərkəzi"nə, Qarabağ - Şərqi Zəngəzur və Naxçıvanı "yaşıl enerji zonası"na, Azərbaycanı isə "yaşıl enerji"nin təchizatçısına çevirməklə bağlı strateji hədəflər məhz yenilikçi, müasir yanaşmalara əsaslanan liderliyin təzahürləridir. Təsadüfi deyil ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də "təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" beş prioritetdən biri kimi müəyyənləşdirilib və "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda "yaşıl enerji məkanı" məqsədi üzrə mühüm tədbirlər təsbit edilib. Buradan da göründüyü kimi, Azərbaycanda bərpaolunan enerji mənbələrindən geniş istifadə ölkəmizin enerji təhlükəsizliyi ilə bağlı deyil. Az karbonlu enerji sistemi, dayanıqlı gələcək qurmaq və xaricdə enerji gücümüzə olan tələbatı ödəmək məqsədi daşıyır.

2020-ci ildə Səudiyyə Ərəbistanının "ACWA Power" və BƏƏ-nin "Masdar" şirkətləri ilə 240 MVt gücündə külək və 230 MVt gücündə günəş enerjisi üzrə pilot layihələrlə başlayan "yaşıl enerji" tərəfdaşlığımızın miqyası qısa müddətdə genişləndi. Az bir vaxtda "Masdar", "ACWA Power", bp, "Fortescue Future Industries", China Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy" və "A-Z Czech Engineering" şirkətləri ilə ümumi gücü 28 QVt-dan çox layihələrə dair əməkdaşlıq sənədlərinin imzalanması məhz Azərbaycan Prezidentinin "yaşıl enerji" kursuna beynəlxalq marağın, ölkəmizin "yaşıl gələcəyi"nə olan inamın göstəricisidir.

"Yaşıl enerji" planları artıq real nəticələrə çevrilir. Yaxın günlərdə regionun ən böyük günəş-elektrik stansiyası istismara veriləcək. 230 MVt gücündə "Qaradağ" GES ölkəmizdə 225 milyon dollar məbləğində xarici investisiya hesabına inşa edilmiş ilk stansiyadır. Bu stansiya sayəsində enerji balansımıza ildə 500 mln. kVt·saat yaşıl enerji daxil olacaq. Həmçinin "Masdar" ilə quruda 1 QVt gücündə günəş və 1 QVt gücündə külək, dənizdə isə ilkin olaraq 2 QVt, növbəti mərhələdə 4 QVt gücündə külək enerjisi və hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqavilələrinə uyğun olaraq torpaq sahələri və dənizdə potensial ərazilər müəyyənləşdirilir. Bu çərçivədə Neftçalada 390 MVt-lıq günəş, Biləsuvarda 445 MVt günəş və Qobustanda 200-300 MVt gücündə külək-elektrik stansiyalarının inşası nəzərdə tutulur. 240 MVt gücündə "Xızı-Abşeron" KES-in isə 2025-ci ildə istismara verilməsi qrafikinə uyğun işlər davam etdirilməkdədir. "ACWA Power" şirkəti ilə dənizdə və quruda ümumi gücü 2,5 QVt-dək külək layihəsinin həyata keçirilməsinə dair icra müqavilələri çərçivəsində ötən ay Batareya Enerji Saxlama Sistemi və quruda 200 MVt külək layihələri üzrə Yol Xəritəsi imzalandı. Cəbrayılda bp tərəfindən gələn il 240 MVt gücündə günəş-elektrik stansiyasının təməli qoyulacaq. Həmçinin Cəbrayılda "Nobel Energy", Füzulidə isə Çin şirkəti ilə günəş-elektrik stansiyalarının tikintisi üçün hazırda ərazilər razılaşdırılır. Naxçıvanda "Nobel Energy", "TotalEnergies" və "A-Z Czech Engineering" şirkətləri tərəfindən ümumi gücü 1,150 MVt olan günəş-elektrik stansiyalarının inşası məqsədilə ərazilərin seçilməsi və razılaşdırılması prosesi davam edir. Bundan başqa, Böyükşor gölündə 100 kVt gücündə pilot layihə üzrə ölkəmizdə ilk üzən günəş stansiyası quraşdırılıb, tezliklə şəbəkəyə qoşulacaq. Ümumən mərhələli şəkildə 2030-cu ilədək 7 QVt həcmində istehsal güclərinin yaradılması planlaşdırılır. İxrac tələblərindən asılı olaraq 2037-ci ilə qədər bu həcmlər əhəmiyyətli dərəcədə arta bilər.

2027-cı ilin sonunadək 1862 MVt həcmində "yaşıl güclər"in ölkənin enerji sisteminə inteqrasiyasını təmin etmək üçün elektrik enerjisi şəbəkəsinin gücləndirilməsi üzrə dövlət proqramının hazırlanması nəzərdə tutulur. Eyni zamanda 2030-cu ilədək "Xəzər-Aİ yaşıl enerji dəhlizi" və Azərbaycan-Türkiyə-Avropa dəhlizini yaratmaq və şaxələndirilmiş marşrutlarla təxminən 5 QVt həcmində "yaşıl elektrik enerjisi" ixrac etmək məqsədilə intensiv işlər görülür. Xəzər dənizindən başlayan Azərbaycan, Gürcüstan, Qara dənizdən keçməklə Rumıniya, Macarıstanı əhatə edən və Bolqarıstanın da qoşulduğu dəhlizin texniki iqtisadi əsaslandırması və Birgə Müəssisənin yaradılması istiqamətində müvafiq addımlar atılır. Həmçinin Azərbaycan, Özbəkistan, Qazaxıstan və Türkmənistan arasında elektrik enerjisinin Mərkəzi Asiyadan ölkəmizə, burdan Avropaya ixracı təşəbbüsü dəyərləndirilir. Bu yaxınlarda Azərbaycanda və Türkiyədə bərpaolunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi, Naxçıvan üzərindən "Türkiyə-Azərbaycan Qarşılıqlı Əlaqə" layihəsinin icrası ilə bağlı imzalanmış sənədlər, eləcə də muxtar respublikada enerji şirkətləri ilə əsasən ixracyönümlü razılaşmalar digər bir ixrac marşrutu üzrə görülən tədbirlərdir. Həm bu dəhlizlər, həm də "Cəbrayıl" enerji qovşağı sayəsində elektrik enerjisinin Naxçıvana, oradan Türkiyəyə, sonra isə Avropaya ötürülməsi perspektivi Azərbaycan Prezidentinin böyük strateji vizyonunun və onun reallaşması üçün məqsədyönlü fəaliyyətinin təcəssümüdür. Burada cənab İlham Əliyevin daha bir müdrik yanaşmasına şahid oluruq. Bu da ondan ibarətdir ki, enerji resurslarının işlənilməsi və dünya bazarlarına çıxarılması vəhdətdə həyata keçirilməlidir. Məhz bu cür yanaşma sayəsində Avrasiyada enerji xəritəsi Azərbaycan vasitəsilə davamlı tərtib edilməkdədir.

Möhtərəm Prezident ərazi bütövlüyümüzü misilsiz bir şəkildə təmin etmiş Müzəffər Sərkərdə kimi, azad edilmiş bölgələrimizin dirçəlişinin, reinteqrasiyasının da unikal nümunəsini yaradan qurucu liderdir. Qarabağ və Şərqi Zəngəzurun modern quruculuq modelinə, xalis sıfır emissiyalı "Yaşıl Enerji Zonası" Konsepsiyasına əsaslanan sürətli və genişmiqyaslı bərpası buna bir sübutdur. Azərbaycanın gücünü ifadə edən bu nəhəng inkişaf prosesində bütün bölgənin enerji ilə təminatı məqsədilə qısa müddətdə 1157 km-dən artıq müxtəlif gərginlikli elektrik verilişi xətti çəkildi, 20 yarımstansiya, ümumi gücü 75 MVt olan 13 stansiya bərpa edilərək istifadəyə verildi. 119 MVt gücündə 13 stansiyada isə hazırda tikinti işləri aparılır. Həmçinin Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları inşa olundu, 140 MVt gücündə su-elektrik stansiyalarının tikilib istismara verilməsi üçün işlər davam etdirilir. Hələ 2016-cı ildə bu layihələr üzrə sazişin imzalanması əsl strateqlərin ata biləcəyi addım idi və Azərbaycan Prezidentinin bu cür düşünülmüş, qəti addımları ölkəmizi Böyük Zəfər və İnkişaf Yoluna gətirib çıxardı. Xankəndinin öz enerji sistemimizə qoşulması, ərazilərimizin Şuşa yarımstansiyası vasitəsilə elektrik enerjisi ilə təmin olunması elektroenergetika tariximizin qürurverici hadisələridir.

Məlum olduğu kimi, "yaşıl enerji zonası"nın yaradılması ilə bağlı 2022-2026-cı illəri əhatə edən tədbirlər təkcə bərpaolunan enerjinin inkişafı ilə məhdudlaşmır, enerji keçidinin bütün komponentləri üzrə fəaliyyəti təşviq edir. Bu çərçivədə azad olunmuş ərazilərdə ümumi gücü 636 KVt olan Arximed qurğusu, 200-dən çox fərdi yaşayış evində günəş kollektoru, 170-dən çox evdə günəş paneli, ictimai və sosial binalarda ümumi gücü 800 kVt-dan çox olan günəş enerjisi sistemləri, 2300-ə yaxın LED lampalarla təchiz olunmuş və günəş enerjisi əsaslı, enerji səmərəli işıq dirəkləri, "ağıllı dayanacaqlar", elektrik doldurma məntəqələri quraşdırılıb. Bunlar davamlı proseslərdir və bütün səylərimiz bu innovativ təcrübənin geniş tətbiqinə, azad edilmiş ərazilərimizi enerji səmərəliliyində nümunəvi bölgəyə çevirməyə səfərbər olunub. Dövlət başçısının vurğuladığı kimi, Qarabağ və Zəngəzuru dünyanın qibtə edəcəyi şəkildə qurmalıyıq.

İlham Əliyev islahatçı liderdir. Məhz onun mütərəqqi beynəlxalq təcrübə və müasir yanaşmaları nəzərə alan islahat xarakterli strateji qərarları və qarşıya qoyduğu hədəflər energetika sektorunda əsaslı dəyişikliklərə yol açdı. Elektrik və istilik enerjisi, həmçinin qaz təchizatı sahələrində istehsalçılar, ötürücülər, paylayıcılar, təchizatçılar, istehlakçılar arasında münasibətləri tənzimləyən, xidmətləri bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırmaqla əlçatanlığını təmin edən idarəçilik prinsiplərinin tətbiqinə başlandı. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında", "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında", habelə üç mərhələdə elektrik enerjisi bazarına keçidi təmin edəcək "Elektroenergetika haqqında" qanunlar qəbul edildi. İlk dəfə olaraq bərpaolunan enerji sahəsinin xarici investisiya əsasında inkişafı gerçəkləşdi. Hərracların keçirilməsinə və əhalinin bərpaolunan enerjinin istehsalçısı olmasına imkan yaradan "Bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi", "Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi" kimi bir sıra mütərəqqi qaydalar, enerji səmərəliliyi ilə bağlı hazırlanmış 14 alt qanunvericilik aktından 10-u qəbul olundu. Hazırda müzakirə və razılaşdırılma mərhələlərində olan "Energetika haqqında", "Qaz təchizatı haqqında", "Energetika və kommunal xidmətlər sahələrində tənzimləyici haqqında" qanunların qəbulu perspektivi, həmçinin istilik təchizatı sahəsində islahatların sürətləndirilməsi və səmərəliliyin artırılması ilə əlaqədar kompleks tədbirlər də bütün bunlarla birlikdə tərəqqi və rifaha xidmət edəcəkdir.

*Beləliklə, cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 20 ilin hər bir nailiyyəti dövlətimizin gələcək taleyini ona əminliklə etibar etmiş Ümummilli Lider Heydər Əliyevin və xalqımızın bu inamının təntənəsidir. Azərbaycan Prezidenti o gələcəyin 20 ilində böyük bir inkişaf tarixi yaratdı. Azərbaycan energetikləri olaraq biz də bu tarixin bir parçası olmağımızla qürur duyuruq!*

**Pərviz ŞAHBAZOV,**
***Azərbaycan Respublikasının energetika naziri***



MÖHTƏŞƏM 20 İL 2003 2023



# Parlaq qələbələrə aparan 20 il

## Prezident İlham Əliyevin elmə əsaslanan inkişaf strategiyası və yeni dövlət idarəçiliyi texnologiyaları

**Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi hakimiyyətə gəlişinin 20 illiyi qeyd edilib. 14 oktyabr 2023-cü ildə Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin iştirakı ilə bu tarixə həsr olunmuş "Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili" adlı konfrans keçirilib.**

**Konfransda çıxış edən Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev qeyd edib ki, Prezident İlham Əliyevin dövlət başçısı postunda 20 illik fəaliyyətinin təhlili onu göstərir ki, o, həmişə cəmiyyətin, dövlətin maraqlarını əsas tutaraq, siyasi məharəti, yüksək mənəvi keyfiyyətləri, kommunikasiya bacarığı sayəsində sadə insanlardan tutmuş dünyanın nüfuzlu şəxsiyyətlərinə kimi hər kəsin rəğbətini və hörmətini əldə edib, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük nüfuz qazanıb.**

Baş nazir Əli Əsədov çıxışında bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ən mühüm istiqamətinin işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması, müasir sosial-mədəni infrastrukturun qurulması, kommunikasiya və nəqliyyat xətlərinin bərpası olduğunu vurğulayıb: "Möhtəşəm prezidentlik dövrünün zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Bu gün Azərbaycan xalqı öz tarixinin ən şərəfli və qürurverici dövrünü yaşayır".

Konfransda çıxış edən nazirlər, dövlət və siyasi xadimlər Azərbaycan Respublikasının son 20 ildə iqtisadi, sosial, humanitar, siyasi, təhlükəsizlik, diplomatiya sahələrində qazandığı tarixi nailiyyətləri konkret rəqəm və faktlarla diqqətə çatdırıblar. Xüsusi vurğulanıb ki, bütün bu uğurların qazanılmasında Ümummilli Lider Heydər Əliyevin formalaşdırdığı dövlət idarəçilik sistemi və Prezident İlham Əliyevin bu sahədə həyata keçirdiyi islahatlar və uğurlu kadr siyasəti durur.

Qeyd etmək lazımdır ki, dövlətin iqtisadi, sosial inkişafı, ölkənin ərazi bütövlüyünün bərpasının və suverenliyinin təmin edilməsi sahəsində qazanılan nailiyyətlər ilk növbədə Prezident İlham Əliyevinin unikal qabaqlayıcı proqnozlaşdırma qabiliyyətindən və dövlət idarəçiliyinə elmi yanaşmasından irəli gəlir. Prezident İlham Əliyevin dövlət idarəçiliyinə gətirdiyi yeni elmi nəzəriyyə və texnologiyalar dünyada ilk dəfə Azərbaycan Respublikasında tətbiq edilmişdir. Dövlət idarəçiliyində bu yeni nəzəriyyə və innovativ texnologiyaların yüksək səmərəliliyi BMT, Dünya Bankı, Davos Dünya İqtisadi Forumu, digər beynəlxalq inkişaf təşkilatlarının hesabatlarında öz əksini tapıb. Dövlət idarəçiliyində istifadə edilən texnologiyaların dünyada və Azərbaycan Respublikasında müqayisəli təhlili bunun bariz nümayişidir.




*Şəkil 1. Dövlət idarəçilik texnologiyalarının təkamülü: dünya və Azərbaycan Respublikası*

Şəkil 1-də dünyada və Azərbaycan Respublikasında mövcud olan dövlət idarəçiliyində tətbiq edilən texnologiyaların tarixi təkamülü əksini tapıb. Tarixən ölkələrin iqtisadi, sosial inkişafı, hərbi və ekoloji təhlükəsizliyi, bu sahələrin müasirləşdirilməsi proseslərinin planlaşdırılması və idarəedilməsi dövlət qurumları tərəfindən həyata keçirilir. Bazar iqtisadiyyatının inkişafı prosesində cəmiyyətdə özəl sektorun artan rolu iqtisadiyyat və sosial sahələrdə yeni bir vəziyyət yaradıb. Bunun nəticəsi kimi XX əsrin son onilliklərində dünya ölkələrinin sosial-iqtisadi proseslərinin idarə edilməsində dövlət-özəl tərəfdaşlığı üstünlük qazanmağa başladı. Azərbaycan Respublikasında bununla bağlı qanunvericilik bazası formalaşdırılmış və müvafiq qanun qəbul olunmuş, 2022-ci ildə qanuna dəyişikliklər edilmişdir.

Ekoloji, sosial və xüsusilə iqlim dəyişiklikləri problemlərinin XXI əsrdə daha da aktuallaşması dövlət idarəçiliyində təkmilləşdirməni zəruri edib. Bu proses BMT tərəfindən 2015-ci ildə keçirilən 70-ci Yubiley Sessiyasında inkişafın davamlılığı dünya prioriteti kimi təsdiqləndikdən sonra xüsusilə aktuallaşıb. Bu səbəbdən hazırda dünyada dövlət idarəçiliyində dövlət-özəl əməkdaşlığı və korporativ idarəetmə prinsiplərini özündə birləşdirən "ESG transformasiya" ən müasir istiqamət hesab edilir və iqtisadi imkanları, intellektual potensialı olan ölkələr bu mərhələyə qədəm qoyublar. Azərbaycan Respublikası bu istiqamətdə də bir addım irəlidədir və ölkədə dövlət idarəçiliyində hazırda "Sinergetik transformasiya" mərhələsi həyata keçirilir. Nəticə etibarilə ölkədə dövlət-özəl və korporativ tərəfdaşlıqla yanaşı, dövlət idarəçiliyinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlbinin də müsbət örnəkləri müşahidə edilməkdədir. Qeyd edilən prosesə erkən başlanılsa da, hüquqi baxımdan 2017-ci ildə qüvvəyə minmişdir. Həmin il fevralın 21-də Mehriban xanım Əliyeva ölkənin Birinci vitse-prezidenti kimi fəaliyyətə başlayıb. Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun prezidenti olmaqla yanaşı, dövlət idarəçiliyində vətəndaş cəmiyyətinin yeni səviyyədə iştirakını təmin etmişdir. Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti dövlət idarəçiliyi səmərəliliyinin artırılmasının vacib amilinə çevrilmişdir. Bu, xüsusilə mədəniyyət, təhsil, sağlamlıq sahəsində uğurlu beynəlxalq və milli layihələrin, sosial proqramların həyata keçirilməsində öz əksini tapıb. Prezident İlham Əliyevin 2 fevral 2021-ci ildə imzaladığı sərəncamla ölkənin 2030-cu ilə qədər müəyyənləşdirilmiş prioritetlərinin həyata keçirilməsində də sinergetik texnologiyaların və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi rolu var.

Lakin Prezident İlham Əliyevin dünya üçün təklif etdiyi innovativ inkişaf yolu cəmiyyətdə geniş tərəfdaşlığı nəzərdə tutan sinergetik texnologiyalar ilə məhdudlaşmır. Ölkə başçısı tərəfindən dünyada ilk dəfə təklif edilmiş bu sinergetik texnologiyalar eyni zamanda iqtisadi, sosial, ekoloji, diplomatik, informasiya, humanitar və sair tədbirlərin vahid siyasət çərçivəsində həyata keçirilməsini də nəzərdə tutur. Uğurlu diplomatiya və bilgiləndirmə sahəsində yorulmaz fəaliyyət Prezident İlham Əliyevin dövlət idarəçiliyində ilk dəfə tətbiq etdiyi sinergetik texnologiyaların vacib istiqamətləridir.

Prezident İlham Əliyevin inkişaf strategiyasının son 20 ildə qazanılmış nəticələri sadə tənliklər vasitəsilə nümayiş etdirilə bilər. Bu tənliklərin tərtibi ideyası ilk dəfə Ağalı məktəbinin şagirdləri ilə keçdiyim dərs vaxtı yaranıb. O zaman tənliklər aşağıdakı kimi təqdim olunmuşdu:

***44 gün + x = Qarabağ Azərbaycandır***

***212 gün + x = Füzuli aeroportu istismara verildi***

***424 gün + x = Ağalı "ağıllı" kəndində yaşayış var***

***515 gün + x = Zəngilan aeroportu istismara verildi***

***83-cü iqtisadi imkan (dünyada) + x = İnklüziv inkişafda 25-ci yer (dünyada)***

***23 saat 51 dəqiqə + x = Azərbaycanın tam suverenliyi bərpa edildi***

İyirmi illik fəaliyyətin nəticələri olan bu fantastik tənlikləri sonsuzluğa kimi uzatmaq mümkündür. Ağalı məktəbinin şagirdləri bu tənlikləri çox tez həll etdilər və "x" nə olduğunu dərhal müəyyənləşdirdilər. Onlar dedilər ki, "x" Prezident İlham Əliyevin uğurlu fəaliyyətidir. Tənliklərdə göstərilən hadisələr son dönəmdə baş versə də, onlara hazırlıq 20 il davam edib və dərin düşünülmüş ardıcıl fəaliyyətin nəticəsidir. Bu uğurun əsasında dəqiq proqnozların verilməsi, məqsədlərin dəqiq hədəflənməsi və icranın optimal idarə edilməsi durur.

Prezident İlham Əliyevin uzaqgörənliyinin daha bir misalı. Məlumdur ki, yaşıl energetika yaxın illərin milli və qlobal prioritetidir və bu sahədə böyük layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Elə bir təsəvvür yarana bilər ki, Azərbaycanda bu fikir hazırda və ya son illərdə formalaşmışdır. Lakin təhlillər göstərir ki, ölkə Prezidenti İlham Əliyev bu istiqamətin inkişafını daha öncə planlaşdırıb. Nazirlər Kabinetinin 9 yanvar 2014-cü ildə keçirilən hesabat iclasında o, demişdi: "Günəş, külək enerji növlərinin inkişafı ilə bağlı işlər daha da sürətlə getməlidir. Bu imkanlardan istifadə etməmək, əlbəttə ki, böyük səhv olardı". Bu misal bir daha göstərir ki, Prezident İlham Əliyevin gələcəyi görmək və inkişafın perspektivlərini düzgün müəyyənləşdirmək qabiliyyəti ölkənin son 20 ildə qazandığı parlaq uğurların vacib şərtidir.

Hədəfləri düzgün müəyyənləşdirmək uğurlu inkişafın vacib şərtidir. Prezident İlham Əliyevin 2021-ci ildə imzaladığı sərəncama görə, 2030-cu il üçün hədəflənmiş prioritetlər inkişafın davamlılığına və inklüziv cəmiyyətin formalaşmasına, eyni zamanda bu proseslərin işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış çərçivəsində reallaşdırılmasına hesablanıb. Davamlı inkişaf edən inklüziv cəmiyyətin formalaşması dünyanın ən müasir prioritetidir. Bunu dünyada ölkələrin inkişaf səviyyəsinin tarixən hansı meyarlar əsasında müəyyənləşdirilməsi də sübut edir.

Şəkil 2-dən göründüyü kimi, insan cəmiyyətinin formalaşmasının ilk mərhələlərindən başlayaraq XX əsrin son onilliyinə qədər ölkələrin inkişaf səviyyəsi iqtisadi meyarlar əsasında müəyyən edilirdi. Son zamanlar bu göstərici hər nəfərə düşən orta gəlirlə əvəzlənib. 1990-cı ildə ölkələrin inkişafını dəyərləndirən yeni bir göstərici beynəlxalq statistikaya daxil edildi. Bu, insan inkişafı indeksi idi və dövlətlərin inkişaf səviyyəsini bu üsul ilə müəyyənləşdirərkən ölkənin iqtisadi imkanı ilə yanaşı, əhalinin sağlamlığı, təhsil və bilikləri nəzərə alınırdı. 2015-ci ildə ölkələrin inkişafı artıq 6 göstərici əsasında müəyyən edilməyə başladı və dünya statistikasına dayanıqlı (davamlı) inkişaf indeksi kimi daxil edildi.




*Şəkil 2. Azərbaycan Respublikasında inkişaf səviyyəsinin qiymətləndirilməsində tətbiq edilən göstəricilərin təkamülü*

2018-ci ildə isə ölkələrin inkişafını dəyərləndirmək üçün inklüziv inkişaf indeksi təklif edildi. Bu göstərici ölkənin hazırkı və gələcək nəsillərinin hərtərəfli və əhatəli inkişafına nə dərəcədə hazır olduğunu nümayiş etdirir. Prezident İlham Əliyevin ölkədə, ilk növbədə işğaldan azad edilmiş ərazilərdə davamlı inkişaf edən inklüziv cəmiyyətin formalaşmasını milli prioritet kimi müəyyənləşdirməsi uzaqgörənliyin və perspektivlərin düzgün hədəflənməsinin bariz təzahürüdür. Son 20 ildə Azərbaycan Respublikası inklüziv inkişafın səmərəli idarəedilməsi sahəsində dünya liderinə çevrilmişdir. Dünya Bankının və Davos Dünya İqtisadi Forumunun dərc etdiyi rəsmi hesabatlara əsasən, Azərbaycan Respublikasının İnklüziv İnkişaf İndeksi 4,69-a bərabərdir və bu göstərici ilə ölkəmiz dünyada 25-ci yerdədir (Şəkil 3).




*Şəkil 3. Dünya ölkələrinin inklüziv inkişaf indeksi və dünyada tutduğu yer*

Nəzərə alınmalıdır ki, iqtisadi imkanlarına görə ölkəmiz dünyada 83-cü yerdədir. Bu o deməkdir ki, ölkəmizdə unikal dövlət idarəçilik texnologiyaları tətbiq edilir. Qeyd edilməlidir ki, adətən iqtisadi imkanlarla inklüziv inkişaf sahəsində dünya ölkələrinin reytinqi ya üst-üstə düşür və ya çox yaxın olur. Məsələn, Fransa iqtisadi imkanlarına görə (hər nəfərə düşən ÜDM-nin dəyəri) dünyada 19-cu, inklüziv inkişaf göstəricisinə görə 18-ci yerdədir, yəni öz iqtisadi imkanlarından bir pillə irəlidədir. Azərbaycan isə bu göstəriciyə görə öz imkanından 53 pillə irəlidədir və bu, dünyada ən yüksək nəticədir. Dünyada bu sahədə ikinci nəticə Çex Respublikasına məxsusdur ki, bu, ölkənin inklüziv inkişaf sahəsində qazandığı nəticə imkanından 13 pillə yüksəkdir.

Nisbətən məhdud imkanlarla yüksək nəticənin qazanılması yalnız uğurlu idarəetmənin nəticəsi ola bilər. Azərbaycan Respublikasında Prezident İlham Əliyevin son iyirmi ildə reallaşdırdığı uğurlu siyasət bu nailiyyətlərin qazanılmasını təmin etmişdir. Bu siyasətin vacib hissəsi dünyada ilk dəfə dövlət idarəçiliyinə 4: sinergetik, komplementar (uyğunlaşdırma), kompensasion, komplimentar (imtiyazların nəzərdə tutulması) prinsiplərinə əsaslanan yeni texnologiyaların gətirilməsidir. Bu səbəbdən 20 illik fəaliyyəti dövründə Prezident İlham Əliyev həm dövlət idarəçiliyi nəzəriyyəsini, həm də praktikasını əhəmiyyətli dərəcədə zənginləşdirmişdir.




*Şəkil 4. Azərbaycan Respublikasının uğurlu sosial siyasətinin beynəlxalq təsdiqi*

İnklüziv inkişaf üçün xüsusi əhəmiyyət daşıyan sosial siyasət Prezident İlham Əliyev tərəfindən həyata keçirilən inkişaf strategiyasının vacib komponentidir. Bu sahədə ölkə çox yüksək nəticələr əldə edib və bu nailiyyətlər öz əksini beynəlxalq təşkilatların sənədlərində tapıb. Bu sənədlər arasında Davos Dünya İqtisadi Forumunun təsisçisi və əvəzsiz prezidenti professor Klaus Şvabın hesabatı xüsusi yer tutur. Professor K.Şvab dünya ölkələrinin iqtisadi imkanları və bu imkanların hansı dərəcədə ədalətli bölünməsinə dair xüsusi tədqiqatlar aparmışdır. Tədqiqat nəticəsində həcmi 600 səhifədən çox olan hesabat dərc edilib. Təhlil olunan 146 ölkə arasında hesabatda 7 ölkəyə xüsusi yer ayrılıb (Şəkil 4). Onların arasında iqtisadi baxımdan yüksək inkişaf etmiş ABŞ, Almaniya və Danimarka yer alıb ki, həmin ölkələrin gəlirləri yüksək, sosial siyasəti isə bu imkanlara cavab vermir. Göstərilən tendensiyalar eyni dərəcədə G20 qrupuna daxil olan Braziliya və Cənubi Afrikaya aiddir. Professor Şvabın gəldiyi qənaət birmənalıdır: iqtisadi şərait, o cümlədən yüksək rəqabət qabiliyyəti inklüziv inkişaf baxımından zəruri olsa da, yetərli şərt hesab edilə bilməz. Alimin araşdırmasının nəticələri, o cümlədən Azərbaycanda durumun təhlili deməyə əsas verir ki, inklüziv inkişafın yüksək səviyyəsinin təmin edilməsi üçün əhalinin rifah halının yüksəldilməsinə yönəlik daim və müntəzəm reallaşdırılan sosial siyasət zəruri şərtdir. Professor Klaus Şvabın təhlilləri Azərbaycanın adları çəkilən ölkələrlə müqayisədə sosial sahənin planlaşdırılması və idarə edilməsinə yönəlik daha səmərəli siyasət gerçəkləşdirməsindən də xəbər verir. Azərbaycanın rəqabət qabiliyyəti indeksi "Böyük iyirmilik" (G20) üzvü olan Braziliya və Cənubi Afrika Respublikası kimi ölkələrin göstəriciləri ilə eyni olsa da, sosial göstəriciləri beynəlxalq qurumların rəsmi hesabatlarına görə, göstərilən ölkələrinkindən əhəmiyyətli dərəcədə yüksəkdir. Gini indekslərinin təhlili deməyə əsas verir ki, Azərbaycanda sosial siyasət və əhali arasında gəlirlərin bölgüsü xarakteri ABŞ, Yaponiya, Fransa, İtaliya, Kanada və dünyanın digər lider dövlətləri və "böyük yeddilik" (G7) ölkələrindəkindən daha səmərəlidir. Azərbaycanın innovativ təcrübəsinin Dünya İqtisadi Forumunun hesabatında xüsusi təhlil predmetinə çevrilməsi onun qlobal əhəmiyyətindən xəbər verir.

*Beləliklə, təhlillər göstərir ki, dövlətin inkişafı və dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxımından Prezident İlham Əliyev tərəfindən hazırlanmış və tətbiq olunan yeni texnologiyalar, Birinci vitse-prezident institutunun formalaşdırılması və səmərəli fəaliyyəti də daxil olmaqla reallaşdırılan struktur dəyişiklikləri, dövlət idarəçiliyinə elmi və innovativ yanaşma Azərbaycan Respublikasının iqtisadi, sosial və humanitar inkişafın müasir və prioritet sahələrində dünya liderləri sırasında yer almasına şərait yaradıb. Bu isə öz növbəsində əminliklə deməyə əsas verir ki, biz gələcək nəsillərə güclü və daim inkişafda olan, öz oyun qaydalarını diktə edən Qüdrətli bir Azərbaycan dövləti təhvil verəcəyik.*

**Urxan ƏLƏKBƏROV,**
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



## Azadlığın təntənə günü

**Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasından üç il ötür. Vətən müharibəsinin 24-cü günündə Zəngilan da azadlığına qovuşan şəhərlər sırasına daxil oldu. Oktyabrın 20-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Zəngilan şəhəri və rayonun daha 6 kəndinin - Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Birinci Muğanlının işğaldan azad olunduğunu elan etdi.**







# Zəfərin Zəngilan səhifəsi

## Şərqi Zəngəzurun giriş qapısı yeni növrağını yaşayır

Həmin gün Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı kəndləri də erməni işğalçılarından təmizləndi.

Zəngilan rayonu uğrunda döyüşlər nəticəsində ordumuz ümumilikdə Zəngilan şəhəri, rayonun 4 qəsəbəsini və 49 kəndini işğaldan azad etdi. Zəngilanın işğaldan azad olunması ilə Azərbaycan-İran sərhədi tam bərpa edildi.

**Tarixə nəzər:** 1920-ci ilin 28 aprel işğalından sonra bolşeviklərin köməyi ilə qədim türk torpaqları hesabına ilk dövlətlərini quran ermənilər Zəngəzur qəzasını işğal ediblər. Bu zaman bolşeviklərin təkidi ilə Zəngəzur Azərbaycanın əlindən alınaraq Ermənistana birləşdirilib. Nəticədə qəzanın yuxarı hissəsi Ermənistanın, Laçın, Qubadlı və Zəngilan bölgələri isə Azərbaycanın tərkibində qalıb. Zəngilan 1930-cu il avqust ayının 8-də müstəqil rayon kimi formalaşıb. 1967-ci ildə Zəngilana şəhər statusu verilib. Həmin vaxt Zəngilan rayonunda 2 şəhər, 5 qəsəbə, 79 kənd olub.

Füzuli və Cəbrayıl rayonları işğal olunduqdan sonra zəngilanlılar 67 gün tam mühasirə şəraitində ermənilərlə vuruşublar. 1993-cü ildə Zəngilan əhalisi son anadək vuruşaraq 235 şəhid verib. Oktyabrın 29-da ermənilər tərəfindən işğal olunan Zəngilanda 27 il ərzində bütün infrastruktur, tarixi və dini memarlıq abidələri dağıdılıb.

Onların arasında İmam Hüseyn məscidi (XVII əsr), Alban kilsəsi, Səkkizguşəli türbə (XIV əsr), Ziya Baba ocağı, Xanazur türbəsi, Günqışlaq piri, Hacallı (Hacıallı) günbəzi, Məlikli Hacı Mir Məhəmməd ocağı, Veysin piri, Qaradağlı piri, Yal piri, Dəvəcüneyt piri ziyarətgahları, Şərifan abidələri (IX-XVI əsrlər), Şəhri Şərifan yaşayış yeri (Orta əsrlər), Ağca Aşıq yaşayış yeri (Orta əsrlər), Qız qalası (Orta əsrlər), Qəsr qalası (Orta əsrlər), sərdabələr, Hacallı dairəvi bürcü (XIV əsr), Körpü (XIX əsr), Nekropol (e.ə VI-IV əsrlər), Küp qəbirlər (b.e.ə. IV-II əsrlər), Koroğlu daşı (VII-VIII əsrlər), Bartaz Qız qalası (XIV əsr), Tağlı körpüsü (XVI əsr) tarixi memarlıq abidələri vardı.

### Zəngilanın dirçəlişi

Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər edən Prezident İlham Əliyev 2020-ci il dekabrın 23-də Zəngilanda Azərbaycanın üçrəngli bayrağını qaldırdı.

2021-ci ilin aprel ayında Zəngilana növbəti səfərində dövlət başçısı rayon sakinləri ilə görüşdü. Eyni zamanda işğaldan azad olunmuş rayonlara Böyük qayıdışın ilk ünvanı olan Ağalı kəndinin təməli qoyuldu. Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "ağıllı kənd" layihəsinin əsasının qoyulması ilə, demək olar ki, keçmiş məcburi köçkünlərin əzəli torpaqlarına qayıdışına bir addım da yaxınlaşdıq. Prezident bu səfərində həmçinin Zəngilanda Beynəlxalq Hava Limanının, Zəngilan-Horadiz avtomobil yolunun təməlqoyma mərasimlərində iştirak etdi.

Zəngilanın işğaldan azad olunmasının birinci ildönümündə İlham Əliyev yenidən rayona səfər edərək Ağalı kəndində aparılan quruculuq, Zəngilan Beynəlxalq Hava Limanında tikinti işləri, Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış oldu. Eyni zamanda "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının açılışı baş tutdu və Rəqəmsal Yarımstansiyanın təməlqoyma mərasimi keçirildi. Prezident İlham Əliyev həmçinin rayonun ictimaiyyət nümayəndələri ilə də görüşdü. Görüşdə dövlət başçısı qeyd etdi ki, Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır. Ölkə rəhbəri yaxın aylarda baş planın təqdim ediləcəyini vurğulayaraq bildirdi ki, bütün bu təbii gözəllik nəzərə alınaraq müasir, çox gözəl bir şəhər, kəndlər qurulacaq.

### Böyük qayıdışın ilk ünvanı

Dövlət başçısının bu səfərindən bir neçə gün sonra isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfəri çərçivəsində işğaldan azad edilmiş rayonlarda oldu. Həmin gün Azərbaycan və Türkiyə dövlət başçıları Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi), Zəngilan rayonunda "Dost Aqropark"ın təməlini qoydular və "ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış oldular.

Ötən ilin may ayında Zəngilana növbəti dəfə səfər edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun, aeroportun, Zəngilan məscidinin tikinti işləri və rayonda salınacaq intensiv meyvə bağı ilə tanış oldular. Həmçinin "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi baş tutdu.

Dövlət başçısı Zəngilandakı çıxışında 44 gün ərzində həm ərazi bütövlüyümüzü, həm ədaləti, həm milli ləyaqətimizi bərpa etdiyimizi diqqətə çatdıraraq dedi: "Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq. Bax, həyat qayıdır - Zəngilana, başqa yerlərə, Şuşaya. Yaxşı bilirsiniz ki, bu bölgənin inkişafı üçün nə qədər böyük işlər görülür. İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dördzolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək. Dünən mən Zəngilan şəhərinin Baş planı ilə tanış oldum. Hesab edirəm ki, ən gözəl variantı seçdik. Bu sahədə təcrübəsi olan beynəlxalq şirkət Baş planı təqdim etdi və mən dedim ki, Zəngilan şəhəri park şəhərinə çevrilməlidir. Yəni Zəngilanın təbiəti o qədər gözəldir ki, biz təbiətə bir zərrə ziyan vurmamalıyıq, əksinə, təbiəti daha da zənginləşdirməliyik".

Beləliklə, ilkin mərhələdə Ağalıda 200 ev və bir sıra zəruri müəssisələr tikildi. 2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinə ilk köç karvanı yola salındı. 29 il sonra ağalılılar ata-baba evlərinə qovuşdular. Onların nisgilləri, həsrətləri sona çatdı. Qayıtdıqları Ağalı isə yeni, müasir standartlara uyğun olaraq "ağıllı kənd" konsepsiyası əsasında qurulmuşdu. Cəmi bir ilə salınan kənddə yaşayış üçün bütün lazımi infrastruktur tikilmişdi. Məktəb, tibb məntəqəsi, uşaq bağçası, "ASAN", "DOST" mərkəzləri, kiçik və orta biznesə dəstək, ümumilikdə digər xidmətlərə əlçatanlığın təmin olunması üçün hər şey nəzərə alınmışdı.

Şərqi Zəngəzurun cənnətməkana çevrilən ilk ünvanı Ağalıya qayıdış mərhələli şəkildə davam etdi. Həmin gün 10 ailə - 53 nəfər Ağalıya qədəmlərini qoydular. İyulun 21-də Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan" şəhərciyindən daha 48 nəfər - 10 ailə, ayın 23-də 10 ailə - 45 nəfər, iyulun 25-də daha 55 nəfər - 11 ailənin köçürülməsi ilə 201 nəfərin Ağalıda daimi məskunlaşması təmin olundu.

Ağalıya qayıdış bu il də davam edib. Ötən ay kəndə iki köç karvanı gəlib. Bununla Ağalı kəndində daimi məskunlaşan əhalinin sayı 649 nəfərə çatıb. Kəndə qayıdış bundan sonra da davam edəcək.

Ötən il oktyabrın 20-si isə yaddaqalan möhtəşəm günlərdən biri idi. İki qardaş ölkənin prezidentləri Şərqi Zəngəzurun ilk "hava qapısı" olan Zəngilan Hava Limanının açılışını etdilər.

Prezident İlham Əliyevin Zəngilana builki səfərləri çərçivəsində bir neçə yaşayış kompleksinin, Alıbəyli, Zəngilan kəndlərinin, uşaq bağçasının, inzibati binanın əsasları qoyulub. Bu il Zəngilanda həmçinin 2-ci Azərbaycan Milli Şəhərsalma Forumu keçirilib.

### 6974 hərbi qulluqçu "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif olunub

Digər şəhər və kəndlərimizin işğaldan azad olunması kimi, Zəngilanın da qurtuluşu asan olmadı. Müzəffər sərkərdənin rəhbərliyi altında qüdrətli ordumuz oktyabrın 18-də Zəngilan rayonu uğrunda hərbi əməliyyatlara başladı. Rayon uğrunda gedən döyüşlərdə igid, qəhrəman oğullarımızın şücaəti nəticəsində düşmən bu torpaqlardan da qovuldu. Və Zəngilan azadlığına qovuşdu.

Prezident İlham Əliyevin sərəncamına əsasən, 2020-ci il noyabrın 26-da "Zəngilanın azad olunmasına görə" medalı təsis edildi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Silahlı Qüvvələrimizin 6974 hərbi qulluqçusu "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif olundu.

Ölkə rəhbəri 2021-ci ildə - Zəngilanın işğaldan azad olunmasının birilliyində sakinlərlə, şəhid valideynləri ilə söhbətində hərbçilərimizi yüksək qiymətləndirərək demişdi: "Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz torpaqlarımızı onların canı-qanı bahasına işğalçılardan azad etmişik. Şəhid olmuş hər bir insan, gənc bizim ürəyimizdə, Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Şəhidlərin adlarının əbədiləşdirilməsi üçün əməli işlər gedir, bundan sonra da gedəcək. Anım günündə təşkil olunan yürüş bütün Azərbaycan xalqının birliyini göstərdi, şəhidlərimizin xatirəsinə olan hörmətimizi göstərdi. Yürüşdə aparılan portretlər mənim göstərişimlə gözəl bir xatirə kimi şəhid ailələrinə təqdim edildi. Çünki onlar bizimlə olmasalar da, bu Zəfər yürüşünə bizimlə bərabər çıxıblar. Yəni bütün Azərbaycan o gün orada idi. Onların ruhu bu gün şaddır. Onlar az yaşayıblar, dünyadan gənc gediblər, şəhid olaraq gediblər. Amma onlar hər zaman ürəyimizdə yaşayacaqlar. Sizin simanızda onların valideynlərinə mən Prezident, Ali Baş Komandan kimi öz təşəkkürümü bildirmək istəyirəm. Çünki doğrudan da bizim şəhidlərimiz şüurlu şəkildə ölümə gedirdilər. Hamımız yaxşı bilirik ki, ağır döyüşlərdə o istehkamları yarmaq, oradan keçmək, dağlara qalxmaq, dağlara dırmaşmaq, xüsusilə Şuşa əməliyyatı tarixdə bəlkə də misli görünməmiş qəhrəmanlıq nümunəsidir. Bunu ancaq milli ruhda böyüyən insanlar edə bilərdilər. Sizin kimi valideynlər onları milli ruhda böyüdüb Vətənə bəxş etdiniz. Onlar da öz həyatlarını Vətənə bəxş etdilər. Mən sizi ürəkdən təbrik edirəm, təşəkkürümü bildirirəm və qucaqlayıram, bağrıma basıram".

### Şanlı tariximizin zəfər günlərindən biri

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyir ki, 3 il əvvəl sentyabrın 27-də Azərbaycan Ordusu Ermənistanın növbəti genişmiqyaslı təxribatlarının qarşısını almaqla yanaşı, torpaqlarımızın işğaldan azad olunması əməliyyatlarına başlayıb və Vətən müharibəsinin ilk günlərində ordu özünün üstün mövqelərini təmin edib. O bildirib ki, Azərbaycan işğalçı ordunu sözün əsl mənasında çaş-baş salıb və müharibənin 3-4-cü günü Ermənistan ordusunun təxminən 20-25 faizi darmadağın edilib: "Bu həm də Ermənistan ordu sıralarında kütləvi fərariliyi şərtləndirməkdə idi. Ordumuz sürətlə irəliləyir, torpaqlarımızın işğaldan azad olunması istiqamətində əks-hücumları dəqiq istiqamətlər üzrə hərbi taktika ilə həyata keçirirdi. Bu mənada oktyabr ayının 20-də Zəngilanın işğaldan azad olunması müharibənin gedişinə çox ciddi təsir göstərdi. Müharibənin taleyini də həll etmiş oldu, çünki bu döyüşlər işğalçı düşmən ordusunun cənub istiqamətində manevr imkanlarını məhdudlaşdırmağa imkan verdi. Zəngilandan üzü şimala doğru digər ərazilərin də işğaldan azad olunması istiqamətində daha təsirli addımlar atmağa da şərait yarandı".

Deputat qeyd edib ki, 2020-ci il oktyabrın 20-si Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir: "Zəngilanın işğaldan azad edilməsi həm hərbi, həm siyasi, həm də iqtisadi mənada olduqca mühüm hadisə idi. Eyni zamanda, bu, Azərbaycan cəmiyyətində böyük ruh yüksəkliyi yaratdı. Nəzərə almaq lazımdır ki, Zəngilanın azad olunması ilə dövlət sərhədlərimizdə nəzarətimiz bərpa olundu. Böyük qayıdış planının reallaşdırılmasının Zəngilandan başladılması da bu bölgənin əhəmiyyətini bir daha göstərir. Bir müddət sonra Zəngilanın Ağalı kəndində "ağıllı kənd" konsepsiyası üzrə yaşayış məskəninin salınmasına start verildi. Qısa zaman kəsiyində işlər yekunlaşdı və soydaşlarımızın 29 illik həsrətindən sonra doğma yurd-yuvalarına qayıdışına şahidlik etdik. Bu, həqiqətən də tariximizin ən qürurverici anlarından biri idi".

E.Mirbəşiroğlu vurğulayıb ki, Zəngilanın simasında Azərbaycan dövləti öz iradəsini nümayiş etdirib: "Prezident İlham Əliyevin dediyi kimi, işğaldan azad olunmuş torpaqlarımızın dünyanın ən inkişaf etmiş məkanlarından birinə çevrilməsi prosesi məhz Zəngilandan başlayıb. Ölkə rəhbərinin yenə dəqiq hesablanmış, uzaqgörən addımları işğaldan azad olunmuş ərazilərimizdə böyük bərpa, quruculuq işlərinin həyata keçirilməsinə imkan verdi. Bu mənada Zəngilanda görülən işlər xüsusilə diqqətəlayiqdir. Bu gün Zəngilanın simasında Qarabağ və Şərqi Zəngəzurda görülən işlər haqqında artıq dünya ictimaiyyətinin təsəvvürləri formalaşmaqdadır".

Deputat hesab edir ki, Zəngilanın işğaldan azad olunması Azərbaycanın hərbi gücünün göstəricisi olmaqla yanaşı, ölkəmizin işğaldan azad olunmuş regionlarla bağlı strategiyasının icrasının da başlanğıcı olub. "Xalqımız hər il 20 oktyabr tarixini Zəngilanın işğaldan azad olunduğu gün kimi böyük təntənə ilə qeyd edir və bu, şanlı tariximizin zəfər günlərindən biri kimi yaddaşımıza həkk olunub", - deyə E.Mirbəşiroğlu əlavə edib.

### Vətən müharibəsində Azərbaycan Ordusunun ən qısa vaxtda azad etdiyi rayon

Hərbi ekspert Şair Ramaldanov isə deyir ki, Azərbaycan Ordusu düşmənin gözləmədiyi cənub istiqamətinə üstünlük verərək, sürətlə Zəngilan istiqamətində hücumlarını davam etdirib və qısa zamanda İranla sərhədini, o cümlədən Zəngilan rayonunu azad edib.

Zəngilanın böyük əhəmiyyəti olduğunu qeyd edən ekspert bildirib ki, rayon İranla həmsərhəd olmaqla yanaşı, Qubadlıya açılan qapı idi. Həmişə olduğu kimi, Azərbaycan Ordusunun vurduğu zərbələr düşmənə məhz başqa imkan qoymayıb və erməni hərbçiləri mövqelərini ataraq qaçmağa başlayıb. Zəngilanın azad edilməsi düşmən tərəfdə fərarilərin artmasına gətirib çıxarıb. Ermənilər, demək olar ki, öz ümidini tam şəkildə itirib. Əgər indiyə kimi əsgərlər fərarilik edirdilərsə, Zəngilanın alınmasından sonra artıq zabitlər və kiçik komandirlər heyətində də fərarilik hallarının sayı çoxalmağa başlayıb. Hətta tağım, bölük şəklində mövqeləri atıb geri çəkilməyə, fərariliyə üz tutmağa və canlarını qurtarmağa üstünlük verilib.

O qeyd edib ki, Zəngilanın azad edilməsi Azərbaycan Ordusunun şəxsi heyətində ruh yüksəkliyini artırıb: "Azərbaycan Zəngilan rayonunu azad etməklə göstərdi ki, qısa zamanda böyük uğura imza atmağa qadirdir. Zəngilan istiqamətində Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi hissələri misilsiz qəhrəmanlıqlar göstərmişdi. O istiqamətdəki döyüşlərin nəticəsi kimi məhz DSX-nin adı çəkilir. Dövlət Sərhəd Xidməti 44 günlük müharibədə öz peşəkarlığını və qəhrəmanlığını göstərərək bu torpaqları azad etdi və oradan Qubadlı və Laçına açılan yol şəbəkəsindən Azərbaycan Ordusunun istifadəsi üçün geniş imkanlar yaratdı".

Ş.Ramaldanov qeyd edib ki, Zəngilanın azad edilməsi və o istiqamətdə sürətli döyüşlərin aparılması düşmənin Şuşa kimi şəhərdən belə diqqətini yayındırmışdı. Ermənistan məhz Zəngilan istiqamətində Azərbaycan Ordusunun qarşısını almaq üçün ora ehtiyat qüvvələri göndərmişdi.

Zəngilan rayonunun ərazi, relyef, yol şəbəkəsi, logistik baxımdan geniş imkanlara malik olduğunu vurğulayan ekspert deyib ki, Vətən müharibəsində Azərbaycan Ordusunun ən sürətlə, qısa zamanda azad etdiyi rayon məhz Zəngilan olub. "Zəngilanın azad edilməsi ilə Azərbaycan İranla dövlət sərhədini tam bərpa elədi. Bununla da o istiqamətdən ola biləcək hər hansı təhdidlərin və ya müdaxilənin qarşısını almağa nail oldu", - deyə o əlavə edib.

### Zəngilan Şəhəri Günü

Bu gün tarixi gündür. Zəngilanın azadlığına qovuşduğu, xalqımıza ərməğan olunduğu tarix. Artıq zəngilanlılar şəhər gününü yurdlarında qeyd edirlər. Prezident İlham Əliyevin iyul ayında imzaladığı sərəncama əsasən, 20 oktyabr Zəngilan Şəhəri Günüdür.

Artıq bu günü də fəxrlə, qürurla, başımız dik qeyd edirik. Zəngilan isə sürətlə bərpa olunmaqda, qurulmaqda davam edir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Zəngilanlıların yaddaş tarixi

**Bu gün Zəngilanın işğaldan azad edildiyi gündür. 20 oktyabr Azərbaycan xalqının qürur duyduğu tarixlərdəndir. Azərbaycan xalqının şərəf və qürurunu, ləyaqət və vicdanını gələcək nəsillər üçün aydınlaşdıran bir gündür oktyabrın 20-si. Zəngilanın erməni faşizmindən azad edilməsi bütövlükdə Azərbaycanın şanlı Zəfər tarixinin silinməz salnaməsidir.**








1993-cü il oktyabrın 29-da işğal edilən Zəngilan 27 il sonra eyni ayda, sadəcə 9 gün fərqlə düşməndən təmizləndi. Rayonun işğal tarixi yerini azadolma tarixinə verdi. Həmin gün qazanılan qələbə ordunun gücü və Ali Baş Komandan İlham Əliyevin milli maraqlara söykənən qətiyyətli və dönməz siyasətinin nəticəsi idi. 2020-ci ilin 20 oktyabrı Zəngilandan köçkün düşənlərin məcburi köçkün adından qurtulduqları gündür. Zəngilanlıların 27 illik həsrətinə son qoyduğu zamandır. İllərlə axıdılan acı göz yaşlarının sevinc göz yaşları ilə əvəzləndiyi tarixdir. Bu tarix bütövlükdə azərbaycanlıların əziz və unudulmaz günüdür.

Xoş xəbər, xoş söz insanın üzündə təbəssüm yaradır, gözünün işığını artırır, ömrünü uzadır, taleyinə silinməz naxış vurur. Üstəlik də bu xəbəri verən şəxsin kim olduğu məlum olanda həmin duyğular aşıbdaşır, qarşısıalınmaz hisslərə çevrilir. 44 günlük savaş günlərində biz belə xəbərləri Ali Baş Komandandan gözləyirdik. Prezident İlham Əliyev həmin günlər xoş xəbər carçısı kimi bitməz-tükənməz sevgimizi qazanmışdı. Təbii ki, bu sevgi Ali Baş Komandanımıza ana südü kimi halal idi. 2020-ci ilin 20 oktyabr günü tarixə yazılan xəbəri Prezident belə vermişdi: "Əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram. Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir"!

Prezident İlham Əliyev bir neçə ay əvvəl bütün bu səmimi hisslərə, xoş duyğulara, əbədi sevincə və təbəssümə daha bir silinməz möhür vurdu. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" iyulun 31-də imzaladığı sərəncamla oktyabrın 20-si Zəngilan Şəhəri Günü kimi qeyd olunacaqdı. Biz bu gün bir daha qələbə qürurunu yaşayır, sevincimizi bölüşürük. Bundan qürurlu nə ola bilər ki?!

Zəngilan işğal illərində yerlə-yeksan olunmuşdur. Ermənistanın faşist ordusu rayondakı tarixi abidələri, mədəniyyət ocaqlarını, məscid və qəbiristanlıqları, eləcə də yaşayış məntəqələrinin əksəriyyətini, sosial-iqtisadi infrastrukturları dağıdaraq vəhşi xislətlərini ortaya qoymuşdular. 30 il davam edən bu vəhşiliyə Azərbaycan xalqı, onun Prezidenti, Silahlı Qüvvələri cəmi 44 günə son qoydu. Zəngilan torpağının işğaldan azad edilməsində Müzəffər Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitləri gələcək nəsillər üçün örnək oldular. Bu örnək Zəngilanın işğaldan azad olunma tarixini, Zəngilan Şəhəri Gününü qeyd edən nəsillərin yaddaşına hopacaq. Hər ildönümdə xatirələri həmişə əziz tutulan unudulmaz şəhidlər bir daha yad olunacaq, ruhları qarşısında baş əyiləcək.

Bu gün Zəngilanda Azərbaycan bayrağı dalğalanır. Həmin bayraq altında Azərbaycanın bu dilbər guşəsində sürətlə bərpa-quruculuq işləri aparılır. 27 il ərzində erməni barbarlarının viranə qoyduqları Zəngilan torpağı tikinti-quruculuq meydanına çevrilib. Cəmi 3 il əvvələ qədər həyatın söndürüldüyü bu ərazinin çox yerləri bu gün cənnətməkana bənzəyir. Bir çox yaşayış məskənində müasir infrastruktur qurulub, "ağıllı kənd" Ağalı salınıb. Zəngilan Beynəlxalq Hava Limanı regionun inkişafını sürətləndirir. Maraqlıdır ki, Böyük qayıdışa məhz Zəngilanda "ağıllı kənd"in tikintisi ilə start verilib. Ağalı kənd meydanında sülhün əbədi təmin olunmasını təcəssüm etdirən "Göyərçin" abidə-fəvvarə kompleksi yaradılıb.

İlham Əliyevin Zəngilana hər səfəri onu göstərir ki, rayon özünün yeni dövrünə başlayır. Bura ölkəmizin ən abad rayonlarından biri olacaq. Yeni yolların çəkilişi, kənd və şəhərlərin salınması, müasir texnologiyaların, innovasiyaların tətbiqi, kənd təsərrüfatının dirçəldilməsi sürətlə Zəngilanın simasını dəyişir. Dünya burada aparılan yeniliklərin şahididir. Təsadüfi deyil ki, bu il sentyabrın 29-da 2-ci Azərbycan Milli Şəhərsalma Forumu Zəngilanda keçirilib. Beynəlxalq tədbirin açılışında çıxış edən Prezident Zəngilanın gələcəyi haqqında danışarkən bu fikirləri söylədi: "Bu şəhərin baş planı artıq təsdiq edilib. Biz infrastruktura böyük vəsait ayırmışıq, bir neçə yaşayış layihəsi icra edilməkdədir. 2025-ci ildə, ola bilər bir az da tez, Zəngilan şəhərinin ilk sakinləri qayıdacaqlar. Biz Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik, çünki onun coğrafi mövqeyi bunu labüd edir. Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir və ona görə Zəngilan Beynəlxalq Hava Limanının inşası da bu bölgənin inkişafı baxımından mühüm faktor olmuşdur. O, insanlar üçün asan çıxışı təmin edəcəkdir. Gələcəkdə isə, əminəm ki, Zəngilanda xarici turistlərin sayı çox olacaqdır. Çünki bu bölgə Azərbaycanın ən gözəl guşələrindəndir. Meşələri, çayları, gölləri və misilsiz ekosistemi olan Zəngilan bizim ən böyük sərvətimizdən biridir. Əminəm ki, vaxt keçdikcə bura turistlər tərəfindən ən çox sevilən bölgə olacaq".

Zəngilanın bugünkü dirçəlişi, 2800 məcburi köçkünün evinə dönməsi, ilin sonunadək bu rəqəmin 5300-ə çatdırılacağı deməyə əsas verir ki, tarixə qürur və şərəf günü kimi yazılan 20 oktyabr qarşıdakı illərdə daha təntənə ilə qeyd ediləcək. Zəngilan Şəhəri Günü zəngilanlılar üçün yaddaş tarixidir. Onlar bu tarixi ildə bir gün deyil, bir ömür yaşayacaqlar.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Cəbrayılın Horovlu kəndinin gələcək görünüşü belə olacaq



**İşğaldan azad edilən Cəbrayıl rayonunun Horovlu kəndinin gələcəkdə necə olacağını nümayiş etdirən videoçarx yayımlanıb.**

AZƏRTAC xəbər verir ki, videoda işğal illərində kəndin dağıntıları əks olunur, eləcə də tamamilə yenidən qurulacaq kəndin yeni siması göstərilir.

Xatırladaq ki, Cəbrayıl rayonunun Horovlu kəndinin təməli bu il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Birinci mərhələdə bu kənddə 1395 nəfərin köçürülməsi üçün 334 fərdi evin tikintisi planlaşdırılıb.

Həmçinin işğaldan azad olunmuş Cəbrayıl rayonunun Horovlu kəndində kəhrizlərin bərpası istiqamətində işlərə başlanılıb.

# <u>*Meşəli sakini:*</u> "Xaçatryanın da əli olduğu hadisələrdə atamı, anamı və 9 qohumumu itirmişəm"



**"1991-ci il dekabrın 23-də ermənilərin Xocalı rayonunun Meşəli kəndinə etdiyi hücum nəticəsində 25 nəfər şəhid oldu, 14 nəfər isə yaralandı. Kəndin 70 faizi yandırıldı. Hətta şəhidlərin nəşləri belə yandırılmışdı. Meşəli hadisələrində atam, anam və doqquz qohumumu itirmişəm".**

Bunu AZƏRTAC-a Meşəli kənd sakini Mikayıl Nurməmmədov deyib. "Hələ hadisələrdən əvvəl də ermənilərin bizə hücumları, aqressiv davranışları olurdu. Milliyyətçi, şovinist davranışlar sərgiləyirdilər. Yunis kişi qoyun otaran vaxt güllə yarası almışdı. Miryusub kişini yaraladılar, Xankəndi xəstəxanasına aparılsa da, orada baxımsızlıqdan dünyasını dəyişdi. Hətta bir dəfə təcili tibbi yardım maşınının sürücüsü Ramil Kazımova da hücum edib yaralamışdılar. Bundan əlavə, Rəcəb müəllimin maşınını yandırmışdılar. Müxtəlif vaxtlarda onların azərbaycanlılara qarşı bu cür terrorçu əməllərinə şahid olurduq. Bütün bunlarda Vaqif Xaçatryanın da əli var idi. Məhkəmə prosesində Vaqif Meşəlidə, digər ərazilərdə törətdiklərini boynuna almaq istəmir, xəbərim yoxdur, bilmirəm deyir. Lakin maraqlısı odur ki, özü hərbi hissəyə komandirlik etdiyini etiraf edir. Necə ola bilər ki, hərbi hissə komandiri olsun, amma hadisələrdə iştirak etməsin? Hadisələrdə cinayətkar, təşkilatçı kimi Vaqifdən başqa, Armaisin, Ernesin də adları hallanırdı. Xaçatryan törətdiklərini inkar etsə də, hadisə şahidlərinin dedikləri və faktlar əsasında ən layiqli cəzanı alacağına əminik", - deyə M.Nurməmmədov vurğulayıb.

# <u>*Əsgəran sakini:*</u> "Vaqif Xaçatryan qəddarlığı ilə seçilən 7 nəfərdən biri idi"



**"Vaqif Xaçatryan Xocalı rayonunun Badara kəndində qəddarlığı ilə seçilən 7 nəfərdən biri olub".**

Bunu AZƏRTAC-a Xocalı rayonunun Əsgəran qəsəbəsinin sakini Şamil Kazımov deyib. O, sözünə belə davam edib: "Meşəli kəndində doğulsam da, sonradan Əsgərana köçmüşük. O elə bir kənddir ki, mövqeləri, giriş-çıxışı kənardan gələn bilmirdi.

Kənddə qoçaq, qorxmaz, sayılıb-seçilən, yaxşı atıcılıq qabiliyyəti olan kişiləri tanıyırdılar. Bilirdilər ki, həmin adamları öldürməsələr, onlar kəndin sakinlərini xilas edəcəklər. Kəndə Novruz kişi başçılıq edirdi. Çox qoçaq adam idi. Birinci onun evini yandırdılar. Oğlu polis idi, cəsurluğu ilə seçilirdi, onu da öldürdülər. Xəlil əmim ovçu idi, atıcılığı yaxşı idi, onu aradan götürdülər. Sayılıb-seçilənlərdən olan Hüseyn kişini və onun yoldaşını da öldürdülər. Bunlar hamısı planlı şəkildə törədildi. Qardaşım Ramil Kazımov polis mayoru idi. Hələ Meşəli hadisələrindən iki il əvvəl içində Vaqif də olmaqla yeddi erməni qardaşımı güllə ilə yaralamışdı. Onlardan Armais, oğlu Spartak, Ernes, Kolyanın adı yadımda qalıb. Meşəli hadisələri zamanı qardaşımın və döyüşkənliyi ilə seçilən qonşusu Mikayılın evini pulemyotla nəzarətdə saxlayırdılar. İkisinə də imkan vermədilər ki, kənd camaatına kömək eləsinlər. Beləliklə, əsas adamları aradan götürəndən sonra kəndə təşviş düşdü. Ondan sonra kəndə od vurdular. Novruz kişini ailəsi ilə birgə evində yandırdılar. Meşə təsərrüfatı idarəsində işləyən Əvəz kişinin evini də kül etdilər. Heç kimə aman vermədilər. Körpələr belə yandı o evlərdə. Məktəbə od vurdular. Biz yanan şəxslərin külünü dəfn elədik.

Vaqif Xaçatryan olanları boynuna almır, məhkəmə iclasında da elə adamların adını çəkir ki, onlar artıq həyatda deyillər. O, məni tanıdı, dediklərimə məhkəmədə irad tuta bilmədi. Vaqifin qardaşı briqadir idi, atam isə mühafizəçi işləyirdi. Vaqifin ailəsi ilə gediş-gəlişimiz olub. Təkcə Vaqifi yox, Badara kəndinin 80-90 faizini tanıyırıq. İşlədiyim çayxana Xocalı ilə Əsgəranın arasında yerləşirdi. Ermənilərin hamısı ora gəlib çay içirdi. Onların nə iş gördüyü, hansı xarakterə malik olduqlarını bilirdim".

## 20 oktyabr 2020-ci il — ZƏFƏR gündəliyi

Torpaqlarımızın işğaldan azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edir.

Gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub.

Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılır. Alay komandirinin müavini Hovik Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri, kapitan Vahab Asetryan da zərərsizləşdirilir.



Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinə artilleriya bölmələrimiz zərbələr endirir. 246-cı alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Ğazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilir.



❖ ❖ ❖

Prezident İlham Əliyev xalqa müraciət edir.

Müzəffər Azərbaycan Ordusunun döyüş meydanında yeni qələbələr qazandığını söyləyən Ali Baş Komandan qeyd edir ki, torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür.

“Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq”, - deyən Prezident xoş xəbərlər verərək işğaldan azad edilən növbəti yaşayış məntəqələrinin adlarını açıqlayır:

**Füzuli** rayonu: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri.

**Cəbrayıl** rayonu: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri.



**Xocavənd** rayonu: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng kəndləri.

**Zəngilan** rayonu: Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Prezident Vəng kəndinə yeni Azərbaycan adı verir: “Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!”

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi instaqram səhifəsində paylaşım edir:

“Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!”

❖ ❖ ❖

Gün ərzində düşmənə məxsus 2 PUA zərərsizləşdirilir.

Axşam saatlarında Gəncə istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus PUA Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilir.

Saat 19:30 radələrində isə düşmənə məxsus növbəti PUA Goranboy rayonunun Tapqaraqoyunlu kəndi üzərində Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilir.

❖ ❖ ❖

Qubadlı istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun artilleriya bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin bölmələri məhv edilir.

❖ ❖ ❖

Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində düşmənin 2-ci motoatıcı alayının müdafiə sahəsində bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilir.

18-ci motoatıcı diviziyanın müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət “Legion” dəstəsi və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina edir. Məlum olur ki, ağır itkilərə məruz qalan bu dəstələr onlara tapşırılmış müdafiə sahələrində tab gətirməyərək kütləvi şəkildə fərarilik edir.

Bundan əlavə, düşmənin 10-cu dağatıcı diviziyasının müdafiə zolağına gətirilmiş kəşfiyyat bölüyü də canlı qüvvə baxımından itkilərə məruz qalır. Şəxsi heyətin üçdəikisini itirən bölmə mövqeləri ataraq geri çəkilməyə məcbur edilir.

***R.BAXŞƏLİYEV,***
***“Azərbaycan”***



# Mənasız və əhəmiyyətsiz kağız parçaları

## Avropa Parlamenti və İspaniya Senatının erməni təəssübkeşliyi boşboğazlıqdan başqa bir şey deyil

**"Ötən 30 ildə işğal və təcavüzə dəstək verən, separatizmi təşviq edən platformalar bəşəri dəyərlər naminə "birlikdən" danışa bilərmi? Avropa Parlamenti məhz selektiv yanaşması ilə ədalətli mövqedən uzaqlaşdığını və ayrı-ayrı qüvvələrin əlində alətə çevrildiyini göstərir. Azərbaycan ötən illər ərzində bu qurumlardan faktiki işğal və təcavüz faktı ilə bağlı qətiyyətli mövqe görməyib. Ümumiyyətlə, əleyhimizə çıxış edən qurumlar, eləcə də Avropa Şurası və İspaniya Senatı yaxşı olardı ki, boşboğazlıqdan əl çəkib özlərinin davranışlarına əl gəzdirsinlər".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat vurğulayıb ki, müasir Avropa təsisatları yaradılarkən bəşəri dəyərlər rəhbər tutulub və 1948-ci ildə qəbul edilən İnsan Hüquqları Bəyannaməsinin məqsədi, habelə sənəddə bəyan edilən hüquqların hamılıqla və səmərəli tanınması və həyata keçirilməsi ali niyyət kimi müəyyən olunub. Hətta Avropa Şurasının Nizamnaməsinin preambulasında ifadə olunur ki, bu sənəd ədalətlə və beynəlxalq əməkdaşlığa əsaslanmış sülhün möhkəmləndirilməsinin sivilizasiyanın qorunması üçün həyati əhəmiyyət daşıdığına inanılaraq qəbul edilib. O cümlədən də Avropa İttifaqı üçün beynəlxalq hüququn əməkdaşlıq prinsipləri fəaliyyət üçün təməl olaraq müəyyən edilib. Azərbaycan məhz bu bəşəri dəyərləri bölüşdüyünə və özünün Konstitusiyasının preambulasında təsbit olunmuş ali niyyətlər və 12-ci maddədə ifadə edilən dövlətin ali məqsədləri ilə üst-üstə düşdüyünə görə bu təsisatlarla əməkdaşlıq edir.

Müsahibimin sözlərinə görə, ötən dövr ərzində uğurlu əməkdaşlıq modeli qurulsa da, demək olar ki, bu təsisatların heç biri öz imkan və səlahiyyətlərinə münasibətdə Azərbaycanın gözləntilərini doğrultmayıb. Prezident İlham Əliyevin 24 iyun 2014-cü ildə Avropa Şurası Parlament Assambleyasının sessiyasındakı tarixi nitqində də bəyan etdiyi kimi, "demokratiya, qanunun aliliyi və müxtəlif ölkələrdəki vəziyyətə bəzən selektiv yanaşma" bu illər ərzində bizi çox narahat edib.

"Digər tərəfdən, 30 ilə yaxın bir dövrdə Avropa təsisatlarının Fransa, Lüksemburq, İsveçrə kimi bir sıra aparıcı subyektləri Ermənistanın işğal, təcavüz siyasətinə, ərazimizdə erməni separatizminə birbaşa və dolayı yollarla dəstək veriblər. Baxmayaraq ki, Avropa Şurasının və Avropa İttifaqının Nizamnamələrində Avropa ölkələrinin daha sıx birliyinə ehtiyac duyulduğu, Avropa Konvensiyasında isə əsas məqsədin onun üzvləri arasında daha böyük birliyə nail olmaqdan ibarət olduğu bəyan edilir. Bu illər ərzində işğal və təcavüzə dəstək verən, separatizmi təşviq edən platformalar bəşəri dəyərlər naminə "birlikdən" danışa bilərmi?" - deyə deputat bildirib.

Bəhruz Məhərrəmov qeyd edib ki, Prezident İlham Əliyevin 2014-cü ildə Strasburqda bəyan etdiyi kimi, "Ermənistan Avropa Şurası Parlament Assambleyasının 2005-ci ildə qəbul etdiyi qeyd edilən məzmunlu qətnaməsinə ümumiyyətlə məhəl qoymurdu". Amma nə Avropa Şurası, nə qurumun Parlament Assambleyası, nə Avropa Parlamenti bu məsələ ilə bağlı nəinki ədalətli mövqe tutmadı, əksinə, Ermənistanın işğalçılıq mövzusunda, ümumiyyətlə, danışmamağa üstünlük verdi. Təbii ki, bu tip davamlı riyakar və selektiv yanaşması ilə Avropa təsisatları, xüsusən Avropa İttifaqında əslində son bəyan olunanlar sadəcə sənədləşmiş, lüzumsuz söz yığınıdır.

"Ötən gün biz yenə də riyakar strukturun Azərbaycana çağırış edən, ermənilərin Qarabağa qayıdış hüququndan bəhs edən saxtakar bəyanatlarına şahidlik etdik. 700 mindən artıq məcburi köçkünün, 300 mindən artıq qərbi azərbaycanlının qayıdış hüquqlarından bir dəfə də olsun bəhs etməyən, 1 milyondan artıq insanın hüquqlarını görməzdən gələn Avropa İttifaqını bu gün hansı maraqlar danışdırır, bizə tam aydındır. Biz çox yaxşı xatırlayırıq ki, cəmi üç il öncə Gəncə, Bərdə, Tərtərdə dinc insanlar Ermənistan tərəfindən raket atəşinə tutularkən, yüzlərlə mülki şəxs, qadınlar, qocalar, uşaqlar məhz azərbaycanlı olduqları üçün müharibə cinayətlərinə qurban gedərkən bu riyakarlar necə və niyə susurdu", - deyə o söyləyib.

Fransanın göstərişləri ilə hərəkət edən, ədalətsiz və qərəzli bir təşkilatın hər hansı qərar və tövsiyəsinin bizim üçün mötəbər olmadığını deyən deputat əlavə edib ki, real situasiyanı təhrif edən bu çirkli kağız parçaları ilə, habelə bu tip davranışlarla avrostrukturlar sadəcə özlərini ifşa edirlər.

Deputat Azərbaycanın istər Vətən müharibəsində, istərsə də antiterror tədbirləri zamanı BMT Nizamnaməsinin 51-ci maddəsində ifadə olunmuş özünümüdafiə hüququnu həyata keçirdiyini, işğalçı, təcavüzkar ilə mübarizə apardığını və beynəlxalq hüququn aliliyini təmin etdiyini xüsusi vurğulayıb. Bildirib ki, belə olan halda Avropa İttifaqı hansı əsaslarla Azərbaycanın özünümüdafiə hüququna müdaxilə edən təxribatçı çağırışlar edir və bizim BMT Nizamnaməsi ilə təsbit olunmuş haqlarımızı hansı əsasla mübahisələndirə bilər?!

Bəhruz Məhərrəmov həmçinin deyib ki, biz bütün hərbi əməliyyatlarda beynəlxalq humanitar hüququn tələblərini rəhbər tutaraq hərəkət etmişik, bizim hədəfimizdə ermənilər yox, işğal, separatizm və terror olub: "Ermənilər məhz Ermənistanın və havadarlarının, o cümlədən Fransanın təhriki ilə Qarabağdan köçüblər. Bu prosesdə, demək olar ki, onların hər birinin Azərbaycan tərəfindən heç bir təzyiq və təhdidə məruz qalmaması barədə audiovizual ifadələri sənədləşdirilib. Xocalıdan, Kəlbəcərdən, Laçından, Şuşadan qovulan insanlar, qışda Arazın buzlu suyuna tökülən zəngilanlılar Ermənistandan eyni münasibəti görmüşdülərmi?"

Bəhruz Məhərrəmov həmçinin İspaniya Senatının 17 oktyabr tarixli plenar iclasında qəbul etdiyi anti-Azərbaycan xarakterli bəyanat barədə də fikirlərini bildirib. Qeyd edib ki, Senatın qəbul etdiyi qərəzli bəyanat onların bölgədə mövcud olan yeni reallıqlardan nə dərəcədə uzaq olduqlarını sübut edir. Bu, bir daha təsdiqləyir ki, İspaniya Senatı məhz erməni lobbisinin təsiri altında həqiqəti əks etdirməyən qərarlar qəbul edir.

Deputatın sözlərinə görə, əleyhimizə çıxış edən qurumlar yaxşı olardı ki, boşboğazlıqdan əl çəkib özlərinin davranışlarını təsis sənədlərində müəyyən edilmiş ehkamlara uyğunlaşdırsınlar. Hansısa beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı və İspaniya Senatı bu məsələyə burnunu soxmaqda israrlıdırlarsa, o zaman öncə 300 mindən artıq qərbi azərbaycanlının Ermənistana ləyaqətli qayıdış hüququndan, habelə 700 mindən artıq azərbaycanlının Qarabağ və Şərqi Zəngəzura qayıdışını ləngidən mina terroru, onların yerlə yeksan edilmiş evləri və vandalizmə məruz qalmış qəbiristanlıqlarından danışmağa başlasınlar.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Azərbaycanı haqlı mövqeyindən kimsə çəkindirə bilməyəcək

## Ermənistanı öz tərəfinə çəkmək üçün "yarışan" Qərb dövlətlərini yalnız məkrli, çirkin maraqları düşündürür

**Dostunu və düşmənini qəti şəkildə hələ də müəyyənləşdirə bilməyib ortalıqda qalmış Ermənistanı öz çirkin maraqları naminə tərəflərinə çəkmək üçün Qərbin bəzi dövlətləri sanki bir-biri ilə yarışa giriblər. Baş verən hadisələrin ardıcıllığına nəzər salsaq, bunu aydın görərik.**

Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya münasibətdə davamlı və müşahidə olunan demarşları bu ölkə ilə münasibətləri daha da kəskinləşdirib. Ən başlıcası da, Rusiya Prezidentinə cinayət işinin başlamasını nəzərdə tutan Beynəlxalq Cinayət Məhkəməsinin Statutunu ratifikasiya etməsi Cənubi Qafqazda gözü olan bəzi Avropa dövlətlərinin fəallaşmasına səbəb olub. Xüsusilə Nikol Paşinyanın MDB-nin Bişkekdə keçirilən son sammitində iştirak etməməsi, bundan bir neçə gün sonra Avropa Parlamentində çıxış etmək üçün Fransaya getməsi və AP-də çıxış edərək müttəfiq kimi Rusiyanı Ermənistana kömək göstərməməkdə ittiham etməsi deməyə əsas verir ki, Paşinyan konkret olaraq hakimiyyətə gəlmək üçün ona dəstək olan və buna görə qarşısında öhdəlik götürdüyü Qərb dövlətlərinin sifarişlərini yerinə yetirməkdədir. Qərbin marağı başa çatmaqda olan Qarabağ münaqişəsindən istifadə edib Ermənistanı qorumaq adı ilə hərbi bazalarını Ermənistana yerləşdirməkdir.

Azərbaycan müxtəlif maraqlı dövlətlərin yaratdıqları, Ermənistan vasitəsi ilə həyata keçirdikləri çoxillik Qarabağ problemini özü əbədi olaraq həll etdi. Başqa sözlə desək, öz çirkin niyyətlərini həyata keçirə bilməyən dövlətlərin Cənubi Qafqaz planlarını pozdu. Həll olunmamış yeganə məsələ Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin hələlik imzalanmamasıdır. Amma bunun da üzərində ciddi iş gedir, danışıqlar aparılır. Bu prosesin də yaxın zamanlarda başa çatacağı gözlənilir. Elə məsələnin kökündə duran, indiyə kimi Qarabağın yerini xəritədə düzgün göstərə bilməyən Qərb dövlətlərini də "hərəkətə" keçməyə məcbur edən budur. Onlar bu müqavilənin kimin vasitəsi ilə və hansı şərtlərlə imzalanması marağındadırlar. Bişkekdə keçirilən MDB-nin son sammitində Rusiya Prezidenti Vladimir Putin tərəflər arasında sülh müqaviləsinin bağlanması üçün vasitəçiliyə hazır olduqlarını xüsusi vurğulayaraq demişdir: "Gündəlikdə bu uzun sürən münaqişəyə son nöqtəni qoymaq üçün sülh müqaviləsinin hazırlanması məsələsi var. Rusiya tərəfi, şübhəsiz ki, bunda tərəfdaşlarımıza mümkün olan hər bir yardımı göstərməyə hazırdır. Xüsusən ehtiyac olsa, Moskvada, istənilən formatda görüşün - əvvəlcə xarici işlər nazirlərinin, ekspertlərin görüşünün təşkilinə razıyıq. Rusiya bu danışıqların həmin ölkələrin liderləri tərəfindən imzalanacaq sülh sazişi ilə yekunlaşmasına şərait yaradacaq. Əlbəttə, seçim həmişə müvafiq ölkənindir, Rusiya yalnız bunun üçün müvafiq şəraiti yaratmağa hazırdır".

Xatırladaq ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə də üçlük formatında görüş planlaşdırılır. Tərəflərin bu çağırışa reaksiyaları pozitivdir. Hələlik cavabsız qalan əsas imzalanma yerini kimin haranı seçməsi məsələsidir - Brüsseli, Vaşinqtonu, Moskvanı, yoxsa Tbilisini?

Məlumdur ki, 2020-ci ildə müharibəni dayandırmaq üçün çoxsaylı təkliflər içərisində tərəflər Rusiyanın vasitəçiliyini seçdilər. Təbii ki, Azərbaycan üçün isə vacib olanı sərhədlərin delimitasiyası və demarkasiyası, Zəngəzur dəhlizinin açılması və davamlı sülhün bərqərar olmasıdır.

Amma Qərbin sülh müqaviləsinin kimin vasitəçiliyi ilə imzalanmasında marağı bir qədər fərqlidir. Əgər sülh müqaviləsi Rusiyanın vasitəçiliyi ilə imzalanarsa, bu, Qərbin, xüsusilə bütün vasitələrdən istifadə edərək Cənubi Qafqaz siyasətində varlığını sübut etmək istəyən Fransanın Qafqaz siyasətinin süqutu, Rusiyanın isə nüfuzunun regionda möhkəmlənməsi deməkdir. Elə bu məqsədlə də adı rüşvətdə, korrupsiyada və digər qalmaqallı məsələlərdə hallanan Avropa Parlamenti və eyni zamanda maraqlarını bu qurumun vasitəsi ilə başqalarına qəbul etdirməyə çalışan bəzi dövlətlər ölkəmizə qarşı "hücuma", səlib yürüşünə çıxıblar. Aydın məsələdir ki, "hücuma" moderatorluq edən Fransanın məqsədi Ermənistanın vasitəçiliyi ilə Rusiyaya zərbə vurmaq, onun nüfuz dairəsinin siyasi coğrafiyasını daha da məhdudlaşdırmaqdır.

Qarabağ münaqişəsini daha da qloballaşdırıb qitələrarası münaqişəyə çevirmək Ermənistanın çoxdankı arzusu idi. Amma artıq iş işdən keçib. Azərbaycan problemi həll edib. Qarabağda yaşayan erməni icmasının nümayəndələri könüllü olaraq Azərbaycan tərəfdən heç bir təzyiq və təhdid olmadan ərazini tərk ediblər. Gedərkən də, getdikdən sonra da mətbuata açıqlama verən erməni icmasının nümayəndələri konkret şəkildə bəyan ediblər ki, yerli separatçıların təklifi və təzyiqi, Nikol Paşinyanın çağırışı ilə ərazini könüllü tərk ediblər. Köçən ermənilərə Azərbaycan tərəfdən təzyiqin olmamasını Nikol Paşinyan özü də təsdiqləyib.

Məsələ burasındadır ki, "mədəni" Qərbdə islamofobiya o qədər güclüdür və siyasi maraqlar bəzi Qərb dövlətlərinin başçılarını o qədər kor edib ki, əsl həqiqəti görməzdən gəlib, Qarabağdan könüllü gedən ermənilərin fikirlərini tamamilə təhrif edərək bundan öz çirkin məqsədləri üçün istifadə etməyə, ölkəmizə qarşı siyasi təzyiq göstərməyə çalışırlar. Təəccüb doğuran budur ki, nə qədər paradoksal olsa da, bu kampaniyaya qoşulanların sırasında separatizmdən əziyyət çəkən İspaniya da var. Hətta Cənubi Qafqazla heç bir coğrafi yaxınlığı, sərhədi belə olmayan Niderland Krallığı da müsəlman Azərbaycanına qarşı səlib yürüşünə çıxan Fransanın təsirinə düşərək ölkəmizə qarşı hücuma keçənlər sırasında yer alıb. Anlaşılan budur ki, xristian təəssübkeşliyi həqiqətə, ədalətə, beynəlxalq hüquqa arxa çevirə bilirmiş.

30 ilə yaxın Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında qalmasına, 1 milyondan artıq soydaşımızın Ermənistanın etnik təmizləmə siyasəti ilə üzləşərək öz doğma torpaqlarından didərgin salınmasına, şəhərlərimizin, kəndlərimizin dağıdılmasına, tarixi, mədəni və dini abidələrimizin yerlə yeksan edilməsinə bu illər ərzində bir dəfə də olsun münasibət bildirməyən İspaniya Senatı, deyəsən, indi qəflət yuxusundan ayılaraq ölkəmizin əleyhinə həqiqətdən uzaq iddialarla, absurd "ittihamlar"la dolu bəyanat qəbul edib. Erməni lobbisinin dezinformasiyası əsasında hazırlanan bəyanat bu ölkənin regiondan xəbərsiz olmasından məlumat verir. Beynəlxalq hüququ heçə sayan, ərazi bütövlüyü və suverenlik kimi beynəlxalq prinsiplərə hörmətsizlik nümayiş etdirən, aqressiv separatizmə tam şəkildə dəstək göstərməklə, regionda uzunmüddətli sülh və sabitliyin bərqərar olması istiqamətində göstərilən səylərə mane olan belə bir bəyanatın qəbul edilməsi təəccüblü olduğu qədər də təəssüf doğurur.

Azərbaycan birgünlük lokal xarakterli antiterror tədbirləri keçirməklə, məhz regional sülh, təhlükəsizlik və sabitlik qarşısında dayanan ən böyük maneəni - aqressiv separatizmi aradan qaldırdı. Hazırda Azərbaycan hökuməti Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası, Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli istiqamətində tədbirləri uğurla davam etdirir. Bölgəyə səfər etmiş BMT-nin ixtisaslaşmış qurumlarının nümayəndələrinin hesabat və bəyanatları da bunu təsdiqləyir.

İspaniya Senatının, Niderland Krallığının siyasiləri coğrafiyadan xəbərsiz ola bilərlər. Amma sözügedən sənədləri qəbul etməzdən əvvəl öyrənməliydilər ki, regionda mövcud olmuş münaqişənin kökündə kim dayanır. Bu, əlbəttə ki, Ermənistandır. Ərazi iddiaları edən də, 30 il torpaqlarımızı işğal altında saxlayıb azərbaycanlıları etnik təmizləməyə məruz qoyan da, yurd yerlərini viranəyə çevirib soydaşlarımızın izini o torpaqlardan silmək istəyən də, tarixi-mədəni irsimizi məhv edən də Ermənistandır.

Azərbaycan illərdir Qarabağda alovlandırılan bir münaqişə ocağını söndürüb. Bir sıra maraqlı dövlətlərin silah anbarına, separtizmin yuvasına çevirdiyi Qarabağda sabitlik yaradıb. Öz çirkin maraqlarını həyata keçirə bilməyib bundan qəzəblənənlər bilməlidirlər ki, iki qonşu xalqı düşmən edib fayda görmək istəyənlərin adı həmişə lənətlə xatırlanacaq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Fransa xalqlarımıza qarşı soyqırımı törədib

**Bu gün Bakıda Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" adlı beynəlxalq konfrans keçiriləcək.**







Bakı Təşəbbüs Qrupu (BTQ) Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 6 iyul 2023-cü ildə Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən yaradılıb.

BTQ XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir.

Tədbirdə iştirak edəcək Martinikanın Azadlığı Partiyasının nümayəndəsi Luk Karole mətbuat konfransı zamanı deyib: "Fransa insan haqları ölkəsi hesab edilir, lakin bizim ölkələrimizdə yerli xalqa qarşı müstəmləkə siyasəti aparır. Fransa xalqlarımıza qarşı soyqırımı törədib. Fransanın iqtisadiyyatını inkişaf etdirmək üçün onlardan qul kimi istifadə edilib. Nigeriya, Senaqal kimi ölkələr də müstəmləkəçiliyə məruz qalırlar. Onlar azad olmaq üçün mübarizə aparırlar".

"Fransanın müstəmləkəçiliyi ilə mübarizədə beynəlxalq təzyiqlər olmalıdır. Artıq Fransa imperialist mövqedən çıxış edə bilmir. Ancaq Fransa öz səylərini davam etdirir və radikallaşma gözə çarpır", - deyə o əlavə edib.

Martinikanın Azadlığı Partiyasının nümayəndəsi Luk Karole deyib ki, Fransa Martinikanı ayrıca xalq olaraq görməkdən imtina edir: "Biz öz aramızda ana dilimizdə danışırıq. Lakin Fransa regional dillərlə bağlı qanuna imza atmayıb. Biz yaxın zamanda bir sənəd qəbul etdik ki, öz dilimiz fransız dili ilə bərabər statusa malik olsun. Lakin Fransa isə deyir ki, tək rəsmi dil fransız dilidir. Onlar başqa dilin rəsmi dil olmasından imtina edirlər".

Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin nümayəndəsi Yakob Bisep isə bildirib ki, Fransanın məqsədi assimilyasiya etməkdir: "Fransa bu siyasətinə ilk olaraq dildən başlayır. Xalqlarımız fransız dilində danışmağa məcbur edilirlər. Mübarizələrimiz maneələrlə rastlaşır".

Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin nümayəndəsi Qaston Samit isə xatırladıb ki, müstəmləkəçiliyə məruz qalmış xalqlar beynəlxalq dəstək gözləyirlər: "Öz torpaqlarımızdakı əhali ilə çalışırıq ki, bu məsələ sürətlənsin. Fransa özünü beynəlxalq səviyyədə insan haqları müdafiəçisi kimi təqdim edir. Lakin biz onu göstərmək istəyirik ki, Fransa müstəmləkəyə məruz qoyduğu dövlətlərə bu cür yanaşmır. Biz istəyirik ki, müstəmləkəçiliyə sakit şəkildə son qoyaq. Lakin Fransa bu dialoqu rədd edir. Fransanı yalnız öz maraqları düşündürür. Bir sıra ölkələrdə Fransa müstəmləkəçiliyinə son qoyulsa da, hələ də orada Fransa təsirləri özünü göstərir".

***"Azərbaycan"***

# Aİ-nin azərbaycanlıların Ermənistana qayıtmaq hüququna məhəl qoymaması və müharibə canilərinə amnistiya tələbi regionda gərginliyi artırır

**Biz, Ermənistandan qovulmuş azərbaycanlıları təmsil edən Qərbi Azərbaycan İcması olaraq, Avropa Şurasının Nazirlər Komitəsinin iclasında Avropa İttifaqının (Aİ) 2023-cü il oktyabrın 18-də verdiyi anti-Azərbaycan bəyanatını şiddətlə qınayırıq.**

İlk öncə vurğulayaq ki, bu bədnam bəyanatı məhz 18 Oktyabr - Azərbaycan Dövlət Müstəqilliyinin Bərpası Günündə verməklə Aİ ölkəmizə və xalqımıza qərəzini simvolik şəkildə ifadə etmişdir.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qeyd edilib ki, Avropa İttifaqının sənədi qərəzlidir, ayrı-seçkilik xarakteri daşıyır, sülhə mane olur və Ermənistanın törətdiyi müharibə cinayətlərinə və insanlıq əleyhinə cinayətlərə haqq qazandırır.

"İlk öncə vurğulamaq istərdik ki, qayıdış hüququnu ancaq Qarabağ ermənilərinə şamil etməklə və Ermənistandan qovulmuş azərbaycanlıların bu hüququnu inkar etməklə Aİ azərbaycanlılara qarşı etnik əsasda ayrı-seçkiliyini açıq şəkildə göstərmişdir.

Bundan əlavə, münaqişə zamanı törədilmiş çoxsaylı hərbi cinayətlərə baxmayaraq, Aİ-nin "bütün Qarabağ erməniləri" üçün amnistiya tələbi bizi dərindən narahat edir. Müharibə cinayətlərinə amnistiyanın verilməsi təkcə ədalət və hesabatlılıq prinsiplərini pozmur, həm də cəzasızlıq mühiti yaratmaqla regionda davamlı sülh və barışığı mümkünsüz edir. Aİ-nin müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər üçün amnistiya tələb etməsi bu qurumda irqçi mentalitetin ayaq açmasını və humanizm dəyərlərinin aşınmasını, eləcə də onun regionda sülh və ədalətin bərqərar olmasında maraqlı olmadığını göstərir.

Bundan əlavə, bəyanatda Azərbaycan yerli əhalinin insan hüquqlarını və mədəni irsini qorumağa çağırılsa da, Ermənistandan və işğal olunmuş Azərbaycan ərazilərindən qovulmuş azərbaycanlıların hüquqları və mədəni irsi ilə bağlı Ermənistanın məsuliyyəti barədə heç bir çağırış edilmir. Bu, Aİ-nin qərəzli və anti-Azərbaycan yanaşmasının növbəti sübutudur.

Nəhayət, bəyanatda Azərbaycan Ermənistanın ərazi bütövlüyünə sadiqliyini təsdiq etməyə çağırıldığı halda, Ermənistana oxşar çağırış edilmir. Ermənistanın Azərbaycan ərazilərini onilliklər ərzində işğal altında saxlaması və Aİ-nin ona göz yumması faktını nəzərə alsaq, Aİ bu çağırışı ilə faktiki olaraq Ermənistanı Azərbaycana qarşı növbəti hərbi təcavüzə cəsarətləndirir.

Aİ-nin bu bəyanatı və son dövrlər nümayiş etdirdiyi mövqe onun sülh üçün tərəfdaş kimi etibarını və rolunu sarsıtmışdır. Biz Aİ-ni anti-Azərbaycan yanaşmasından əl çəkməyə, insanların hüquq və ləyaqət baxımından bərabərliyi, eləcə də dövlətlərin suveren bərabərliyi prinsiplərinə və Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüquqlarına hörmət etməyə çağırırıq", - deyə icmanın bəyanatında vurğulanıb.

# Qərbi Azərbaycan İcması Beynəlxalq Frankofoniya Təşkilatını ehtiyatlı və məsuliyyətli olmağa çağırır

**Ermənistan və Fransa Beynəlxalq Frankofoniya Təşkilatını (BFT) qatı anti-Azərbaycan platformasına çevirmək cəhdlərini davam etdirir. Bu xüsusda, BFT-nin baş katibinin İrəvanda verdiyi son açıqlamalar narahatlıq doğurur.**

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qeyd edilib ki, Qarabağda erməni mədəni irsinin qorunmasının vacibliyini qabardan baş katibin Ermənistanda Azərbaycan xalqına mənsub olan mədəni irsin acınacaqlı vəziyyətinə toxunmaması açıq-aşkar qərəz və ikili standartların təzahürüdür.

Qərbi Azərbaycan İcması BFT-nin baş katibini Ermənistan və Fransanın Azərbaycana qarşı çirkin fəaliyyətində alətə çevrilməməyə və Azərbaycanla bağlı açıqlamalarında ehtiyatlı və məsuliyyətli olmağa çağırır.

XXXIII Yay Olimpiya Oyunları qarşısında

**Bu gün idmanın inkişaf səviyyəsinə görə Azərbaycan dünyada ən irəlidə gedən ölkələrdən biri kimi tanınır, qəbul olunur. Azərbaycanda inkişafına diqqət yetirilən idman növləri sırasında fərdi mübarizə hər zaman ön planda yer alıb və bu qəbildən olan yarışlarda ölkəmizin təmsilçilərinin qazandığı nailiyyətlərin sayı kifayət qədərdir.**



# Yerli idmançı, yoxsa legioner?!

## Olimpiya Oyunlarına hazırlaşan güləş yığmamızda islahatlar aparılır

Fərdi idman növlərindən bəhs edərkən heç şübhəsiz diqqət ilk növbədə güləş üzərində fokuslanır. Güləş öz populyarlığına, auditoriyasının sayına görə digər fərdi idman növlərindən öndə dayanır.

Azərbaycanın bütün dövrlərdə tanınmış güləşçiləri olub və xalqımız onlarla fəxr edib. Yunan-Roma, sərbəst güləşçilərimiz dəfələrlə Yay Olimpiya Oyunlarının, dünya və Avropa çempionatlarının qalibi olublar.

2024-cü ildə bizi dünyanın daha bir mötəbər turniri- Paris Olimpiadası gözləyir. Bəs bu yarışa güləşçilərimiz necə hazırlaşırlar və ümumiyyətlə, bu idman növünün mövcud durumu qaneedicidirmi?

### Güləş Federasiyasının baş katibi: "Əvvəlki illərlə müqayisədə legionerlərin sayı xeyli azalıb"

Bu mövzu ilə bağlı Azərbaycan Güləş Federasiyasının (AGF) baş katibi Nəsimi Musayev qəzetimizə açıqlamasında bildirdi ki, Güləş Federasiyası Olimpiadaya hazırlıq prosesinə bu ildən start verib. Sərbəst güləş üzrə yığmamız Rusiyada bir neçə təlim-məşq prosesi keçib. Yunan-Roma güləşi üzrə millimiz Xorvatiya və Macarıstanda, qadın güləşçilərimiz isə Polşa, Rumıniya və Bolqarıstanda bir neçə komandanın iştirakı ilə birgə hazırlıq prosesində yer alıb: "Millilərimizin fərqli məkanlarda təlim-məşq toplanışı keçməsi səbəbsiz deyil. Sərbəst güləş Rusiyada, yunan-Roma və qadın güləşi isə Avropa ölkələrində daha çox inkişaf edib. Belə birgə toplanışlar və sparrinqlərin olması güləşçilərimizin taktiki-texniki planda inkişafını sürətləndirir. Təbii ki, Olimpiadaya yaxınlaşdıqca hazırlıq prosesi daha da intensiv xarakter alacaq. "Paris-2024"ə optimal formada yollanmaq üçün əlimizdən gələni edəcəyik. Gələn il aprelin 4-7-də Bakıda Avropa Olimpiya Təsnifat Turniri və mayın 9-12-də Türkiyənin İstanbul şəhərində Dünya Olimpiya Təsnifat Turniri keçiriləcək. Həmin yarışlarda Olimpiadaya lisenziyalar qazanmağa çalışacağıq".

AGF-də uşaq, yeniyetmə idmançıların hazırlıq prosesinə də toxunan federasiya rəsmisi qeyd etdi ki, son 2 ildə U-15 milli komandalarına xüsusi diqqət və qayğı ilə yanaşılır. Geyim təchizatı, qidalanma, Bakıda və bölgələrdə təlim-məşq toplanışlarının keçirilməsi, Avropa çempionatında tam heyətlə iştirak - bütün bunlar Azərbaycan güləşinin gələcəyini sağlam qurmaq və davamlı inkişafa hesablanmış yatırımdır. Bundan başqa, sırf AGF-nin nəzdində regionlarda yeni güləş bölmələrinin açılması, həmin bölmələrin müvafiq inventarla təminatı üçün addımlar atılır.



Nəsimi Musayev







Hicran Şərifov

Baş katib Nəsimi Musayev AGF-nin legioner siyasətinin müəyyənləşməsi və tənzimlənməsi prosesinə də toxunaraq bildirib ki, ölkə güləşində əsas problemlərdən biri ağır çəkilərdə rəqabətədavamlı idmançıların az olmasıdır: "Etiraf etmək lazımdır ki, bu problem həmişə olub. Müstəqilliyin ilk illərindən ağır çəkilərə legioner güləşçilər cəlb edilib. Məqsəd ölkədə rəqabəti gücləndirmək, legionerlərin yanında və onlarla mübarizədə yerli idmançıların püxtələşməsinə və inkişafına nail olmaqdır. Bəli, bu gün güləşimizdə legionerlər var. Ancaq biz bu vəziyyətlə barışmırıq. Bu istiqamətdə bir sıra addımlar atılır və atılacaq. Onlardan biri də bölgələrdə güləş liseylərinin yaradılmasıdır ki, bu məktəblərdə ağır çəkilərdə keyfiyyətli idmançıların yetişməsinə nail olmağa çalışacağıq. Hazırda müxtəlif yaş qrupları üzrə 11 milli komandamız var. Yığmalarımızda ümumilikdə 37 məşqçi fəaliyyət göstərir ki, onların da cəmi 6-sı əcnəbi mütəxəssisdir. Güləşçilərə gəlincə, əvvəlki illərlə müqayisədə legionerlərin sayı xeyli azalıb. Məsələn, əvvəllər yeniyetmələrdən ibarət millilərdə legionerlər yer alırdısa, artıq heyət tam yerli idmançılardan ibarətdir. Gənc güləşçilər sırasında isə bu il cəmi 2 legioner iştirak edib. Böyüklərə gəlincə, vaxtilə cəmi 1 yerli idmançımızın olduğu qadınlardan ibarət komandada indi cəmi 3 legioner var, qalanları yerli güləşçilərdir. Yunan-Roma güləşi üzrə millimizdə yalnız 97 və 130 kiloqramda legionerlər var. Onlar cəmi 4 nəfərdir. Sərbəst güləşdə isə təxminən 10 milliləşdirilmiş idmançı var".

Sonda Nəsimi Musayev onu da əlavə edib ki, AGF yaxın gələcəkdə Bakıda və digər bölgələrdə güləşin inkişafı üçün müxtəlif layihələri həyata keçirməyi planlaşdırır. Oktyabrda ölkəmiqyaslı məşqçilərin seminarı keçiriləcək. Nəzəri və praktiki məşğələlər 6 fərqli məkanda baş tutacaq. İdman məktəblərinin, klub və cəmiyyətlərin məşqçilərinin bilik və bacarıqlarının artırılmasına hesablanmış bu tip seminarlar vaxtaşırı təşkil ediləcək. Bundan başqa, mövcud güləş zallarının maddi-texniki bazasının təkmilləşdirilməsi və inventarla təminat, güləş liseylərinin və yeni zalların istifadəyə verilməsi də qarşıda duran hədəflərimizdən biridir. Bu planları həyata keçirdikdən sonra böyük effektini görəcəyik. Belə olan halda legionerlərə də tədricən ehtiyac qalmayacaq.

### Hicran Şərifov: "Nəhayət ki, Güləş Federasiyasında vəziyyət düzəlir"

Üç Olimpiya Oyununda hakimliyi ilə dünyanın ən məşhur ədalət təmsilçiləri sırasında ilk pillələrdə qərarlaşan, "Şöhrət" və Olimpiya ordenli, beynəlxalq dərəcəli hakim, "Qızıl fit" mükafatçısı, Əməkdar məşqçi Hicran Şərifov da bu sahədə son dövrlərdə aparılan islahatlar, mövcud problemlər və onların həlli barədə fikirlərini bizimlə bölüşdü.

O qeyd etdi ki, qarşıda güləşçilərimizi dünyanın ən böyük idman tədbiri "Paris-2024" Yay Olimpiya Oyunları gözləyir. Hədəf bu nüfuzlu Oyunlara yüksək səviyyədə hazırlaşmaqdır: "Azərbaycan Güləş Federasiyası da bu yarışa hazırlığını davam etdirir. Təbii ki, olimpiadada iştirak etmək üçün lisenziya xarakterli turnirlərdə uğurlu çıxış çox vacibdir. Bir neçə gün bundan öncə Serbiyanın paytaxtı Belqradda keçirilən dünya çempionatında yunan-Roma güləşində Həsrət Cəfərov (67 kq) və Sənan Süleymanov (77 kq), sərbəst güləşdə isə Maqomedxan Maqomedov (97 kq) "Paris-2024"ə vəsiqə qazandılar. Təbii ki, bir çoxları lisenziya sayının azlığından narazılıqlarını bildirirlər. İnanırıq ki, qarşıdakı lisenziya xarakterli turnirlərdə pəhləvanlarımız onlara olan ümidləri doğruldacaqlar. Çünki federasiyada indi görülən müsbət işlər bunları deməyə əminlik yaradır. Nəhayət ki, Güləş Federasiyasında vəziyyət düzəlir. Öz sahələrində müasir, səmərəli fəaliyyət göstərən şəxslər federasiyada pandemiya zamanı yaranan ətaləti, mövcud olan ləngimələri aradan qaldırmağa çalışırlar. Federasiya daxilində, məşqçilər korpusunda hər kəs öz vəzifəsini, məsuliyyətini dəqiq bilir, buna uyğun da fəaliyyət göstərir. Federasiyada təkbaşına idarəçilik, qərar qəbul etmə yoxdur, əks təqdirdə bu, bizi uğursuzluğa aparar. Qərarların qəbulunda müzakirələr aparılır, baş məşqçinin istədiyi tələbləri təkbaşına həyata keçirməsi yoxdur, federasiyada nizam-intizam çox ciddidir".

AGF-də aparılan legioner siyasətinə də toxunan Hicran Şərifov qeyd edib ki, bu istiqamətdə də müəyyən dəyişikliklər labüddür. Yunan-Roma güləşində hazırda 2 legioner idmançının olduğunu deyən mütəxəssis əlavə etdi ki, bu, sərbəst güləşdə çoxluq təşkil edir: "Qarşıdakı illərdə bu say nisbətində də azalma gözlənilir. Çünki federasiya rəhbərliyinin düzgün strategiyası sayəsində bu istiqamətdə də islahatlar aparılmaqdadır. Hazırda legionerləşdirmə siyasəti demək olar ki, bütün ölkələrdə var. Dünya siyasətində baş verən son proseslərdən sonra bir çox ölkə əsasən Rusiyadan olan güləşçilərin xidmətində maraqlı olublar. Hər hansı ölkənin aparıcı güləşçisinin Azərbaycan tərəfindən çıxış etməsində zərər yoxdur. Əgər ölkəmizə qızıl medal qazandıracaqsa, yerli güləşçilərin inkişafına töhfə verəcəksə, bu, müsbət hal kimi qiymətləndirilməlidir. Ümumiyyətlə, legionerlərin əvəzinə yerli güləşçilərə daha çox şans verilsə, uşaq-yeniyetmə güləş məktəblərinin yetirmələrinin əsas komandalara cəlbi daha sürətli həyata keçirilsə, nəticə də tam fərqli olar. Ən azından qalibiyyət üçün istənilən azərbaycanlı daha çox səy göstərir. Burada millilik, azərbaycançılıq, Azərbaycanın adının ucalması əsas diqqət mərkəzində yer alır. Legioner güləşçini isə şübhəsiz ki, daha çox maddiyyat maraqlandırır, burada hansısa millilikdən söhbət gedə bilməz. Bu mənada legionerlərin cəlb olunması zamanı onun səviyyəsi, Azərbaycan adının ucalmasında nə dərəcədə maraqlı olması xüsusi diqqət mərkəzində yer almalıdır. Belə legionerlərdən uşaq-yeniyetmə güləş məktəblərində olanlar da müsbət cəhətlər əxz edə bilər".

Hicran Şərifov onu da vurğuladı ki, bu sahədə ən mühüm islahatlardan biri də bölgələrdə aparılmalıdır. Azərbaycanın region güləş məktəblərinə həm dəstək artırılmalı, həm də onlardan mütləq şəkildə tələblər olmalıdır: "Uşaq, yeniyetmə idmanına diqqətin artırılması xüsusi önəm daşımalıdır. Güləş mütəxəssislərinin, təşkilatçılarının paytaxtda, ondan da daha çox bölgələrdə formalaşdırılması üçün xüsusi fəaliyyət tədbirləri müəyyənləşdirilməlidir. Problemlər yetərincədir. Sevindirici haldır ki, federasiya rəhbərliyi və onun komandası fəaliyyətlərinə düzgün istiqamətdən başlayıblar. Biz, idman mütəxəssisləri, onilliklərini güləş idmanına həsr edən şəxslər də bu prosesdə federasiya rəhbərliyinin daim yanındayıq, təcrübələrimizi bölüşməyə hazırıq".

İnanırıq ki, güləşdə davam edən dəyişikliklər tezliklə öz müsbət təsirini göstərəcək, ləngimələr aradan qaldırılacaq. Böyük ənənəyə malik olan güləş idman növünün populyarlığı davam edəcək, indiyədək mötəbər yarışlarda uğurlar əldə etmiş pəhləvanlarımız yen-yeni zəfərlər qazanacaqlar. Odur ki, Paris Olimpiadasında bir daha Azərbaycan bayrağının dalğalanmasını və himnimizin səsləndirilməsini səbirsizliklə gözləyirik.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Şikayət çox, baxan yox

## Yaxud Qarabağ Regional Mədəniyyət İdarəsində nə baş verir

**Müstəqil dövlət olaraq bizim gücümüz sarsılmaz birliyimizdədir. Müstəqillik tariximizin müxtəlif məqamlarında bu monolit birlik çətin sınaqlardan uğurla çıxıb, qələbələrimizin mayası, etibarlı təməli olub.**

Götürək son 20 ili. Bu dövrün sosial-iqtisadi yüksəlişində, 30 il erməni işğalında qalan Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması missiyasının şərəflə reallaşdırılmasında xalq-dövlət birliyinin yenilməz güc olduğu inkaredilməzdir. Xalq dövlətinə, Prezidentinə inanır, güvənir, etibar edir, dövləti idarə edən rəhbər isə doğma vətəninə, qədirbilən xalqına vətəndaş yanğısı ilə xidmətdən qürur duyur. Bu aydın mövqeyini yüksək tribunalardan dəfələrlə bəyan edən Prezident İlham Əliyevin bir deyimini xatırladaq: "Bəzi hallarda bəzi xırda səviyyəli məmurlar özlərini elə aparırlar ki, sanki bütün dünya bunlara borcludur. Özlərini ağa kimi, xan kimi aparırlar, insanlara yuxarıdan aşağı baxırlar. Mən dəfələrlə demişəm ki, Prezident başda olmaqla, bütün dövlət məmurları xalqın xidmətçisidir. Məhz buna görə biz vəzifədəyik. Buna görə xalq mənə etibar edib və mən təyin etdiyim bütün kadrlardan bunu tələb edirəm".

İndi isə mətləbə keçək. Məlumdur ki, ölkə həyatının bütün sahələrində həyata keçirilən genişmiqyaslı islahatların davamı olaraq Azərbaycanda regional mədəniyyət idarələri yaradılmışdır. Onlardan biri də Qarabağ Regional Mədəniyyət İdarəsidir. İdarə Xankəndi ilə birlikdə Qarabağın 8 rayonunu əhatə edir. Bu sahədə həyata keçirilən islahatların hədəfi Azərbaycanın mədəniyyətinin, incəsənətinin inkişafını sürətləndirmək, əhaliyə göstərilən mədəni xidməti daha yaxşı təşkil etmək, yerlərdə incəsənət sahələrində istedadı olan gənc və yeniyetmələri aşkar edib onlara qayğı və diqqət göstərmək, eyni zamanda sıralarında çalışan minlərlə vətəndaşın üzləşdiyi çətinlik və problemləri operativ və mövcud qanunvericiliyin tələbləri çərçivəsində ədalətli həll etməkdir. İnsafən bu gözləntilər özünü əksər bölgələrdə doğruldur, sözügedən sahə ilə təmasda olan hər kəsdə məmnunluq yaradır.

Ancaq təəssüf ki, bu məmnunluq Qarabağ Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi ərazilərdə hiss olunmur. Ağcabədi şəhərində yerləşən idarəyə hər gün çox sayda insanlar müraciət edir. Yaxın-uzaq rayonlardan gələnlərin problemlərini həll etmək üçün döydükləri qapını onların üzünə açan olmur. 50-80 kilometr, bəlkə də daha çox məsafə qət edib gələn, vaxtını itirən, müəyyən vəsait xərcləyən vətəndaş kor-peşman, narazı geri dönmək məcburiyyətində qalır.

Hər gün daha da artan, çoxalan şikayətlərin fonunda regional idarəyə baş çəkməyi vacib bildik. Niyyətimiz idarənin rəisi Qalib Həsənovla görüşmək, artan narazılıqların, çoxalan şikayətlərin səbəbini öyrənmək idi. Təəssüf ki, iş vaxtı olsa da, başqaları kimi biz də rəisi iş yerində tapa bilmədik. Amma məlumatsız, suallarımıza cavab almadan qayıtmaq fikrimiz də yox idi. Bu səbəbdən rəis müavini Elçin Cəfərovla görüşmək istədik. Mühafizəçilər bildirdilər ki, o, məşğuldur. "Eybi yox" deyib gözləməyə qərar verdik. Nəhayət, qapını açdılar. Elçin müəllim jurnalist olduğumuzu biləndə giley-güzar boğçasını açdı, nə açdı: "Bezmişik bu müxbirlərin əlindən. İşləməyə də imkan vermirlər". Sənəd istədi, xidməti vəsiqəmizi təqdim etdik. Biləndə ki, rəsmi dövlət qəzetinin bölgə müxbiriyəm, bayaqkı halından əsər-əlamət qalmadı. Tamam dəyişdi. Ünvanladığım suallar isə təəssüf ki, cavabsız qalırdı. Müavin aydın və konkret suallara cavab vermir, yaxud vermək istəmir, bunları rəis bilər deyirdi. "Qəbula gələn vətəndaşları niyə qəbul etmirsiniz?" sualımızın cavabı isə, sözün həqiqi mənasında, təəccüb doğurdu: "Biz onların müraciətlərinə onlayn qaydada cavab veririk".

Elçin Cəfərovla dialoqun əhəmiyyətsiz olduğu qənaətinə gəlib sağollaşıb ayrıldıq. Amma ayrılmazdan əvvəl xahiş etdik ki, idarə rəisi Qalib müəllimin mobil telefonunun nömrəsini versin, əlaqə saxlayaq. Qısa və konkret cavab aldıq: "Qətiyyən mümkün deyil".

Foyedə gözləyən nigaran baxışlı insanların yanından laqeydliklə ötüb keçmək təbii ki, insafsızlıq olardı. Ayaq saxlayıb söhbətləşdik. Hərə öz dərdindən-odundan, üzləşdiyi çətinliklərdən söhbət açdı. Ağdamdan, Laçından, Tərtərdən, Bərdədən olan mədəniyyət işçilərinin giley-güzarını dinləmək üçün saatlarla vaxt lazım idi. Biz bu vaxtı tapacaqdıq. Amma şikayətçilərlə söhbət etdiyimizdən xəbər tutan rəis müavini bu dəfə də işimizə mane olmaq istədi. "Hansı haqla burada belə iş görürsünüz? Siz qanunu pozursunuz. İdarəni tərk etməlisiniz", - deyib üstümüzə gəldi. Ona media haqqında qanunun müddəalarını, ölkəmizdə söz, mətbuat azadlığının hökm sürdüyünü xatırlatmalı olduq. Bununla belə, mübahisənin böyüməməsi üçün rəisin qəbulunda gözləyən vətəndaşlara ünvanımızı, əlaqə telefonumuzu verib oradan uzaqlaşdıq.

Baş verən xoşagəlməz bu olaydan bir neçə gün sonra telefonumuz susmaq bilmədi. Ard-arda şikayətlər gəlirdi. Məzmunları müxtəlif olsa da, Qarabağ Regional Mədəniyyət İdarəsinin öz işçilərinin problemlərinə münasibətdə göstərdiyi biganəlik, etinasızlıq daha çox vurğulanırdı. Görünürdü ki, idarənin rəhbərliyi Prezident İlham Əliyevin "Məmur xalqın xidmətçisi olmalıdır" tövsiyəsini unudub özünü ağa kimi aparır, amirliyə, inzibatçılığa üstünlük verir. Bunun məntiqi nəticəsi isə göz qabağındadır - kütləvi narazılıq, vətəndaşları incik salmaq.

Bəzi müraciətlərə nəzər salaq. Sevda Malışova Ü.Hacıbəyli adına Uşaq İncəsənət Məktəbinə 20 ildən çox rəhbərlik edib. Bu illər ərzində məktəb böyük uğurlara imza atıb, dəfələrlə beynəlxalq musiqi festivallarında qalib olub, respublikanın mədəni həyatında sayılıb-seçilən ünvana çevrilib. Sevda xanımın xidmətləri dövlət tərəfindən layiqincə qiymətləndirilib - "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. Qarabağ Regional Mədəniyyət İdarəsi yaranandan sonra rəis Qalib Həsənov Sevda xanımın peşəkarlığını, zəngin təcrübəsini, xidmətlərini nəzərə almadan onu yaşa görə tutduğu vəzifəsindən azad edib. Halbuki qüvvədə olan qanunvericiliyə görə, işçiyə dövlət tərəfindən fəxri ad verilibsə, onu yeni müqavilə ilə işdə saxlamaq mümkündür. Düzdür, əvvəl Qalib Həsənov bu amili nəzərə alıb Sevda xanımla işə davam üçün müqavilə bağlayıb. Lakin qısa bir müddətdən sonra hansısa səbəbdən müqaviləni ləğv edib. Sonra isə məhkəmə çəkişmələri, aylarla davam edən maliyyə yoxlamaları və s. Söz yox ki, kimin haqlı, kimin haqsız olduğunu zaman göstərəcək. Amma buna ehtiyac var idimi?!

Başqa bir şikayət: Zülfiyyə Vaqif qızı Nəcəfova uzun illər Bərdə rayon mədəniyyət şöbəsində mühasib işləyib, həm də heç bir qüsuru olmadan. Qarabağ Regional Mədəniyyət İdarəsi yarananda ona ərizə yazdırıblar ki, hər bir işçi ilə müqavilə təzələnməlidir. O da işdən çıxması ilə bağlı hamı kimi ərizə yazıb. Rəhbərlik işə yenidən bərpa olunmaq üçün ondan ərizə alıb. Zülfiyyə xanım 15 gün ərzində yenidən əvvəlki işində çalışıb. Sonra isə heç bir səbəb göstərilmədən onun işinə xitam verilib. Nə Zülfiyyə xanımın 30 illik qüsursuz fəaliyyəti, nə də uzun müddət yataq xəstəsi olub vəfat edən həyat yoldaşının Qarabağ qazisi olması nəzərə alınıb. İndi ümidi hər yerdən üzülən, işsiz qalan Zülfiyyə xanım müxtəlif ünvanlara şikayət məktubları yazır. Regional idarə rəhbərliyinin təcrübəli işçiyə demirik, mərhum Qarabağ qazisinin həyat yoldaşına münasibəti budurmu?!

Tərtər rayonunun Hüsənli kənd sakini Hürü İlqar qızı Əsədova 2021-ci ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq və informatika fakültəsini fərqlənmə diplomu ilə bitirib. Ən fəal 12 məzunla birlikdə mədəniyyət naziri onu qəbul edib. Təxirə salınmadan işlə təmin olunmasını tapşırıb. Amma nazirliyin tapşırığına regionda əhəmiyyət verilmir. Hürü xanım tez-tez Ağcabədiyə ayaq döysə də, hələ ki, bir nəticə yoxdur. Bu da perspektivli gənc kadr. Görəsən Q.Həsənov onun üçün nə bəhanə tapıb?

Bərdə şəhəri, C.Məmmədquluzadə küçəsi 91 ünvanında yaşayan Nizami Əbil oğlu Cəfərovun müraciətində isə Bərdə rayonu ərazisindəki tarixi abidələrin mühafizəsindəki nöqsanlardan söz açılır. Şəhərdəki Heydər Əliyev Parkı ərazisində yaradılmış süni gölə çirkli suların axıdıldığı, buranın üfunət mənbəyinə çevrildiyi vurğulanır. Bu faktlar Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri tərəfindən yoxlanılıb təsdiq edilsə də, heç bir tədbir görülmür. Heydər Əliyev Parkı Mədəniyyət Nazirliyinin balansındadır. Bəs bu ciddi faktlar qarşısında Qarabağ Regional Mədəniyyət İdarəsi niyə tədbir görmür, nədən həyəcan təbili çalmır. Ulu Öndərin adını daşıyan, Bərdə əhalisinin əsas istirahət yeri olan bu məkana belə münasibətə nə ad vermək olar?!

Regionda narazılıq doğuran daha bir reallıq. Dövlət başçısının imzaladığı sərəncamla 2023-cü il "Heydər Əliyev İli" elan edilmişdir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə bölgələrdə silsilə xarakterli elmi-praktiki konfranslar, mədəni-kütləvi tədbirlər keçirilir, xalq Ulu Öndərə sonsuz məhəbbət və ehtiramını bildirir. Qarabağ Regional Mədəniyyət İdarəsi isə əraziyə daxil olan rayonların icra hakimiyyətlərinə rəsmi məktub göndərib ki, bizim rəsmi razılığımız olmadan Heydər Əliyev mərkəzlərində, digər mədəniyyət müəssisələrində heç bir tədbir keçirmək olmaz. Bizə elə gəlir ki, bu, artıq ağ eləməkdir, hərçənd mənəm-mənəmliyin də bir həddi olmalıdır, xüsusən də söhbət sözün hər mənasında mədəniyyətdən gedirsə.

Regionda mədəniyyət işçilərinin kütləvi narazılığına səbəb olan başqa bir mühüm məsələ də var. Regional idarə yaranana qədər dövlətdən sosial yardım alan çoxsaylı mədəniyyət işçiləri idarə fəaliyyətə başlayandan sonra bu imkandan məhrum olublar. Səbəb isə çox sadədir: idarə hansı məqsədləsə dövlət portalında öz işçiləri ilə yeni müqavilə bağlamağı israrla ləngidir. Tərtər rayonunun Bəyimsarov kənd Diyarşünaslıq klubunun mədəni təşkilatçısı Fuad Qədimov, həmin rayonun Umudlu kənd Mədəniyyət evinin bədii rəhbəri Zahir Əsədov, Bərdə şəhər Mədəniyyət Mərkəzinin xadiməsi Aidə Orucova, Bərdə şəhəri H.Aslanov küçəsi 96 ünvanında yaşayan Elşən Abbasov bizə ünvanladıqları müraciətlərində regional idarə rəhbərliyi tərəfindən haqlarının müxtəlif formalarda pozulduğunu diqqətə çatdırır, kömək istəyirlər.

Sadaladığımız bu faktlar Qarabağ Regional Mədəniyyət İdarəsinin fəaliyyətindəki mövcud nöqsanların kiçik bir hissəsidir. Qalanlarını isə araşdırıb üzə çıxarmaq və bütün bunlar haqqında tədbir görmək Mədəniyyət Nazirliyinin səlahiyyətindədir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

◆Unudulmazlar

# Qəlbləri oxşayan ecazkar səs

**İl üstə il gəldikcə, nəsillər nəsilləri əvəzlədikcə hələ sağlığında adı Azərbaycanın vokal ifaçılığı tarixinə böyük həriflərlə yazılmış sənətkar Şövkət xanım Ələkbərovanın ifaları, səhnə və musiqi mədəniyyəti daha sevilən və unudulmaz olur. Çünki səsinin sədası ilə öncə qarış-qarış Azərbaycanı, sonra isə dünyanı gəzmək olar...**



Ecazkar səsə və ifaya malik Şövkət Feyzulla qızı Ələkbərova 1922-ci il oktyabrın 20-də Bakıda anadan olmuşdur. Onun anası qızlardan ibarət orkestrdə tar çalırdı. Kiçik yaşlarından musiqiyə böyük maraq göstərən Şövkəti anası tez-tez məşqlərə aparırdı. Atası xalq musiqimizi, muğam və aşıq havalarını çox sevirdi. İncəsənətə bağlı ailədə böyüyən Şövkət 12 yaşında musiqi məktəbinin kamança sinfinə daxil olur. Tezliklə onların evində tar, kamança və qardaşının ifasında zərb alətindən ibarət üçlük yaranır. Asəf Zeynallı adına Musiqi Məktəbində Hüseynqulu Sarabskinin sinfini bitirdikdən sonra səhnə yaradıcılığına başlayır. 15 yaşında musiqi müsabiqəsinin qalibi olub. Bəstəkar Üzeyir bəy Hacıbəyli və müğənni Bülbül onun istedadını yüksək dəyərləndiriblər.

Şövkət Ələkbərova 1938-1945-ci illərdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solisti olub. 1945-ci ildən etibarən Azərbaycan Dövlət Filarmoniyasının solisti işləyib. Şövkət xanımın ifaçılığı üçün yüksək vokal mədəniyyəti, emosionallıq və lirizm, muğam yaradıcılığı üçün isə məharətli improvizasiya bacarığı səciyyəvi idi.

O, 1937-ci ildə bədii özfəaliyyət kollektivlərinin müsabiqəsində iştirak edərək öz çıxışı ilə Üzeyir bəy Hacıbəyli, Səid Rüstəmov, Bülbül kimi sənətkarların diqqətini cəlb edib. Opera Teatrında keçirilən yekun konsertdə Şövkət Ələkbərova "Qarabağ şikəstəsi"ni oxumuş, Fatma Mehrəliyeva və Gülağa Məmmədovla birlikdə ilk üçlüyə daxil olmuşdur. Bu müsabiqə Şövkət Ələkbərovanın peşəkar musiqi sənətinə gəlişinin əsasını qoyur. 1945-ci ildən filarmoniyanın solisti kimi işə başlayan Şövkət xanımın ifasında səslənən xalq və bəstəkar mahnıları, muğamlar Azərbaycanda çox böyük məşhurluq qazanır.

"Görüş", "Bəxtiyar", "Onu bağışlamaq olarmı?" filmlərinə Tofiq Quliyevin yazdığı mahnılar Şövkət xanımın ifasında xalqımızın dilinin əzbəri idi. Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" filmində Sənəm rolunun musiqi partiyalarını məhz Şövkət Ələkbərova ifa etmişdir. Əməkdar incəsənət xadimi, kinoşünas Aydın Kazımzadə mətbuata açıqlamalarında bu filmlərin sırasına "Bəxtiyar", "Aygün", "Ögey ana", "Onu bağışlamaq olarmı?" kimi ekran əsərlərini də əlavə edərək bildirir ki, "bu filmlərdən bizə tanış olan o gözəl mahnılar o səslə, o avazla yaddaşımıza əbədi həkk olunub. Şövkət xanımın səsindən, ifasından istifadə olunan o qədər filmlər var ki, onları bir yerə toplasan, böyük bir siyahı alınar".

Müğənninin bəstəkar Cahangir Cahangirovun "Füzuli" kantatasının II hissəsində oxuduğu "Məni candan usandırdı" romans xarakterli musiqi parçası da xalqın ürəyinə yol tapmışdır. Emin Sabitoğlunun "Şirin dil" mahnısı Şövkət Ələkbərovanın repertuarında xüsusi yer tutur. Mahnının sözləri Kərkük bayatılarından götürülüb.

Rusiyanın bir çox şəhərlərində, Fransa, İsveçrə, Şri-Lanka, Əfqanıstan, Hindistan, Misir, Əlcəzair, İran, Türkiyə, Polşa və digər xarici ölkələrdə uğurla çıxış edən Şövkət Ələkbərovanın repertuarına "Segah", "Qatar", "Şahnaz" kimi muğamlar, Azərbaycan bəstəkarlarının və Orta Şərq xalqlarının mahnıları da daxil idi.

Şövkət Ələkbərovanın sənətindən danışarkən elə tanınmış incəsənət xadimləri var ki, onların adlarını çəkməmək olmur. Şövkət xanım müsahibələrində yeri düşəndə həmkarlarına həmişə dahi sənətkar Bülbül və Xan Şuşinskidən öyrəndiyini, onları özünə müəllim, örnək bildiyini deyərdi.

Şövkət Ələkbərova dövrünün böyük bəstəkarlarının bir-birindən gözəl əsərlərini elə ustalıqla ifa edib ki, artıq o mahnıların hər birinin üzərinə Şövkət Ələkbərova emblemi vurulub. Şövkət xanım Azərbaycan xalqının yaddaşında, ürəyində elə bir yerə sahibdir ki, illər, əsrlər keçsə də, nə qədər ki, bu xalq və bu musiqi var, o da yaşayacaqdır.

Musiqişünas Ceyran Mahmudova atası Emin Sabitoğlu ilə Şövkət xanımın yaradıcılıq əlaqələrindən danışarkən qürur hissi ilə bildirir: "Şövkət xanım öz gözəl səsi və ifası ilə hər zaman dahi bəstəkarları bir-birindən gözəl mahnılar yazmağa sövq edib. Bir çox bəstəkarlar var ki, sırf onun üçün mahnılar bəstələyiblər. Atam Emin Sabitoğlu da onlardan biri idi. Şövkət Ələkbərovanın özünəməxsus səsi hər zaman seçilib. İndi də radiodan və ya televiziya ekranlarından bu səsi eşidərkən onun kimə aid olduğunu həmin an bilmək olur. Bu cür sənətkarlar heç zaman ölmürlər, yaddaşımızda, ürəyimizdə daim yaşayırlar".

Musiqişünas ekspertlər qeyd edirlər ki, dahi Niyazi məhz bu amili nəzərə alaraq "Qaragilə", "Xumar oldum" mahnılarını simfonik orketr üçün işləmişdi və Şövkət xanım orkestrin müşayiəti ilə bu inciləri ifa edəndə maestro qeyri-ixtiyari əlləri, barmaqları, üzünün dəyişən cizgiləri ilə bu mahnıları "oxuyurdu".

Səhnədə daim xanım-xatın, gülərüz görünən Şövkət xanım həm də mehriban və qayğıkeş ana idi. Bir qızı, bir oğlu olub. Lakin Şövkət xanım öz qardaşı uşaqlarına da baxıb. İkinci Dünya müharibəsi zamanı Şövkət xanımın böyük qardaşı Mir Ələkbər itkin düşüb və az sonra yoldaşı da dünyasını dəyişib. Onların qızı Validə isə onda bir neçə aylıq körpə olub və Şövkət xanım onu öz qızı kimi böyüdüb, boya-başa çatdırıb.

Validədən başqa Şövkət xanım qardaşı Mir Şəfehin iki övladı - Sevda və Eldarı da himayə edib, evində saxlayıb. Beləliklə, Şövkət xanım beş uşaq böyüdüb, tərbiyə edib.

Otuz il bundan öncə, 1993-cü il fevralın 7-də əbədiyyətə qovuşan Şövkət xanım Ələkbərova Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə Fəxri xiyabanda dəfn edilib. Unudulmaz sənətkarın Azərbaycan mədəniyyəti və incəsənəti sahəsində xidmətləri, habelə ifaçılıq yaradıcılığı respublika rəhbərliyi tərəfindən yüksək qiymətləndirilərək o, 1954-cü ildə "Azərbaycanın Əməkdar artisti", 1959-cu ildə isə "Azərbaycanın Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Qanunsuz erməni silahlı birləşmələrinin hava nəqliyyatına yaratdıqları radiomaneələr DTX-də ciddi araşdırılır

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Qarabağ bölgəsində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələri tərəfindən ölkənin hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə və xarici aviaşirkətlərə məxsus mülki hava gəmilərinin naviqasiya sistemlərinə qarşı radiomaneələr tətbiq edilmiş və bu barədə dəfələrlə beynəlxalq ictimaiyyətə məlumatlar verilmişdir.**

2021-2023-cü illər ərzində belə radiomaneələrin tətbiqinin intensivləşməsi həmin ərazilərin yaxınlığında yerləşən radar stansiyalarına qlobal naviqasiya peyk sistemlərindən siqnalların daxil olmasında fasilələrin yaranması, siqnalların qəbuluna maneələrin törədilməsi, habelə Qarabağ bölgəsi ətrafında uçan mülki hava gəmilərində naviqasiya siqnallarının itməsi ilə müşayiət olunmuş və bununla da mülki təyyarələrin idarə edilməsinin müvəqqəti itirilməsinə və aviasiya qəzalarına səbəb ola biləcək çoxsaylı cinayət faktları qeydə alınmışdır.

Azərbaycanın Qarabağ bölgəsində qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri terrorçuluq və digər cinayətlərin araşdırılması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində davam edən cinayət işinin istintaqı zamanı lokal xarakterli antiterror tədbirləri nəticəsində tərk-silah edilmiş sözügedən silahlı birləşmələrin sərəncamında olmuş digər xüsusi texniki vasitələrlə yanaşı, xaricdə istehsal olunan "Pole-21M", həmçinin yük avtomobillərinin bazası üzərində qurulan "Repellent-1" tipli və kustar üsulla quraşdırılmış radioelektron mübarizə kompleksləri də aşkar edilmişdir.

Taktiki-texniki göstəricilərinə əsasən, "Pole-21M" kompleksinin 150 km-dək məsafədə yerləşən obyektlərə "GPS", "QLONASS", "Galileo", "BeiDou" və sair tipli peyk naviqasiyası sistemlərindən daxil olan siqnalların məhdudlaşdırılması və radiomaneələrin yaradılması üçün istifadə edildiyi müəyyən olunmuşdur.

"Repellent-1" kompleksindən havada olan obyektlərin radiorabitə vasitələrinin idarəetmə və məlumat ötürmə kanallarının siqnallarının 35 km-dək məsafədə aşkarlanaraq fəzada yerinin, istiqamətinin, sürətinin təyin edilməklə izlənilməsi, idarəetmə və naviqasiya sistemlərinin işinə radiomaneə yaradılması, eləcə də kustar üsulla quraşdırılmış radioelektron mübarizə komplekslərindən obyektlərə "GPS" və "QLONASS" naviqasiya peyklərindən daxil olan siqnalların məhdudlaşdırılması və radiomaneələrin yaradılması istiqamətində istifadə olunduğu təsbit edilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam edir.

***Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidməti***

# Beynəlxalq axtarışda olan daha bir şəxs Azərbaycana ekstradisiya edilib

**Baş Prokurorluğun vəsatəti əsasında Ukrayna Baş Prokurorunun Ofisi tərəfindən "Ekstradisiya haqqında" 1957-ci il 13 dekabr tarixli Avropa Konvensiyasının tələblərinə uyğun olaraq Azərbaycan Respublikası vətəndaşı Fuad Kərimovun ekstradisiyası haqqında qərar qəbul olunub.**

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsində istintaq edilən cinayət işi üzrə Fuad Kərimovun xüsusilə külli miqdarda ziyan vurmaqla törədilən mənimsəmə və vəzifə saxtakarlığı cinayətlərini törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə beynəlxalq axtarışa verilib.

Fuad Kərimov Ukraynanın ərazisində saxlanılaraq oktyabrın 19-da Ədliyyə Nazirliyi Penitensiar Xidmətin xüsusi konvoyunun müşayiəti ilə ölkəmizə gətirilib.

# Azərbaycan Ordusunda silah və texnika payız-qış mövsümündə istismar rejiminə keçirilir

Azərbaycan Ordusunda 2023-cü ilin hazırlıq planına uyğun olaraq silah, döyüş və xüsusi texnikanın istismarının payız-qış mövsümünə keçirilməsi üzrə kompleks tədbirlər keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bütün hərbi hissələr silah və texnikanın payız-qış mövsümündə fasiləsiz və dayanıqlı istismarını təmin etmək üçün mərkəzləşdirilmiş qaydada yanacaq-sürtkü materialları, həmçinin digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilir.

Keçirilən kompleks tədbirlər çərçivəsində texnikanın yanacaq-sürtkü materialları mövsümü tələblərə uyğun olaraq dəyişdirilir, o cümlədən elektrik və hidravlik sistemlərinin istismara yararlılığı yoxlanılır.

# "Mustafa Kamal Atatürk-2023" birgə taktiki təliminə hazırlıq məşqləri davam edir

Ölkəmizdə keçiriləcək Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümünə həsr olunmuş "Mustafa Kamal Atatürk-2023" birgə taktiki təliminə hazırlıq prosesi davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, plana uyğun olaraq, döyüş təyyarələri ilə havaya qalxma və yerə enmə, kiçik və orta hündürlüklərdə çətin pilotaj manevrləri, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi, eləcə də hava kəşfiyyatının aparılması və digər tapşırıqlar üzrə fəaliyyətləri məşq etdirilib.

Təlim məşqləri zamanı qarşıya qoyulan bütün tapşırıqlar hərbi pilotlar tərəfindən yüksək dəqiqliklə yerinə yetirilib.

# Hərbi qulluqçuların mobil telefonlardan istifadə etməsi ilə bağlı qaydalar sərtləşdiriləcək

**Azərbaycan Ordusunda informasiya təhlükəsizliyi, eləcə də məxfilik qaydaları ilə bağlı mütəmadi olaraq şəxsi heyətlə maarifləndirici söhbətlər aparılır, iltizamnamələrə imza atılaraq bununla bağlı öhdəçilik götürürlər.**

Buna baxmayaraq bir neçə hərbi qulluqçunun xidmət zamanı smartfon tipli telefon istifadə etməsi, eləcə də şəxsi hesablarında xidmətə aid foto-video görüntüləri paylaşması aşkar edilib. AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin sosial şəbəkələrdən istifadə edən hərbi qulluqçularla bağlı yaydığı məlumatda bildirilib.

"Bu hərbi qulluqçulardan bəziləri Müdafiə Nazirliyi rəhbərliyinin müvafiq əmr və sərəncamlarına zidd hərəkətlərinə görə ordu sıralarından xaric edilib, digərləri barəsində isə ciddi intizam tədbirləri görülüb.

Ordu mənsublarına yaraşmayan hərəkətlərlə hərbi etika qaydalarını, eləcə də mobil telefonlardan istifadə zamanı nizamnamələrin tələblərini və müvafiq əmrləri kobud şəkildə pozan hərbi qulluqçular barəsində bundan sonra da ciddi tədbirlər görüləcək.

"Qaydaların daha da sərtləşdirilməsi ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üçün aidiyyəti üzrə yeni təkliflər hazırlanaraq təqdim edilib", - deyə məlumatda qeyd edilib.


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Prezident Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Tələt Məcidova əzizi

**ELEONORA MƏCİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Tələt Məcidova əzizi

**ELEONORA MƏCİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**ARİF MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, Komissiyanın üzvləri və Katibliyin rəhbərliyi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Tələt Məcidova əzizi

**ELEONORA MƏCİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Tələt Məcidova əzizi

**ELEONORA MƏCİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

**"NTC Company" MMC-nin əməkdaşları - Cahangir Habil oğlu Məmmədovun, Cəmşid Şəfayət oğlu Maharovun və Danial Mirzə oğlu Hacıyevin şəxsi işləri itdiyi üçün etibarsız sayılır.**


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **5315**
Sifariş **2708**

Qiyməti 40 qəpik